RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 39 (10059) 28 fevral 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# “Dostlarınızın hamısı Sizinlə qürur duyur və Sizdən bir çox şeyləri öyrənirlər”



## Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli Azərbaycan Respublikasına rəsmi səfərə gəlib

Fevralın 27-də Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əlinin rəsmi qarşılanma mərasimi keçirilib.

Mərasimdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli ilə təkbətək və geniş tərkibdə görüşləri olub.

Həmin gün Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın Efiopiyanın birinci xanımı Zinaş Tayaçev ilə görüşü olub.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Efiopiyanın Baş naziri Abiy Əhməd Əlinin və birinci xanım Zinaş Tayaçevin şərəfinə rəsmi nahar verilib.

Fevralın 27-də Azərbaycanda rəsmi səfərdə olan Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub, Baş nazir Abiy Əhməd Əlinin başçılıq etdiyi nümayəndə heyəti Bakıda Zəfər parkını ziyarət edib.

Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli Azərbaycana rəsmi səfəri çərçivəsində "ASAN xidmət" mərkəzini ziyarət edib, Ələt Azad İqtisadi Zonasında (ƏAİZ), Səngəçal neft terminalında və "AI Academy"də olub.

2-3

## Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində (bundan sonra - rəqəmsal inkişaf) prioritet istiqamətlərin müəyyənləşdirilməsi, milli texnoloji potensialın gücləndirilməsi, rəqəmsal suverenliyin möhkəmləndirilməsi, innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi, həmçinin bu sahədə dövlət siyasətinin vahid və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurası (bundan sonra - Şura) yaradılsın.

2. Şuranın aşağıdakı tərkibi təsdiq edilsin:

**Şuranın sədri**

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti

**Şuranın üzvləri:**

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri

Azərbaycan Respublikasının elm və təhsil naziri

Azərbaycan Respublikasının ədliyyə naziri

Azərbaycan Respublikasının maliyyə naziri

Azərbaycan Respublikasının iqtisadiyyat naziri

Azərbaycan Respublikası Mərkəzi Bankının sədri

Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru.

3. Şuranın fəaliyyətinin təşkili məqsədilə Şuranın Katibliyi yaradılsın və Katiblik funksiyasının həyata keçirilməsi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə həvalə edilsin.

4. Müəyyən edilsin ki, Şura bu Fərmanın 5-ci hissəsində nəzərdə tutulmuş vəzifələrin icrası məqsədilə yerli və xarici ekspertləri, mütəxəssisləri, beynəlxalq təşkilatları, elmi müəssisə və təşkilatları cəlb edə, habelə aidiyyəti dövlət orqanlarının (qurumlarının) və digər maraqlı tərəflərin nümayəndələrindən ibarət ayrı-ayrı istiqamətlər üzrə işçi qruplar yarada bilər.

5. Şura rəqəmsal inkişaf sahəsi üzrə:

5.1. dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin icrasına nəzarəti və dövlət orqanları (qurumları) arasında siyasətin əlaqələndirilməsini təmin etsin;

5.2. dövlət orqanları (qurumları) tərəfindən icra olunan layihələrin bu sahədə mövcud strateji məqsədlərə uyğunluğunun təmin edilməsinə nəzarəti həyata keçirsin;

5.3. dövlət orqanlarının (qurumlarının) təklifləri və beynəlxalq təşkilatların tövsiyələri nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı tədbirlər görsün.

6. Şura fəaliyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 fevral 2026-cı il*

## "Neytrallıq" pərdəsi altında riyakarlıq

### Separatçılığın vəkili rolunda çıxış edənlərin məqsədi sülhə mane olmaqdır



Daha acınacaqlı fakt odur ki, bu qızılların bir hissəsi konsentrasiya düşərgələrindəki qurbanların şəxsi əşyalarından əridilərək külçə halına salınmışdı. Neytrallıq statusuna baxmayaraq, İsveçrə sənayesi Almaniya üçün işləyirdi. Almaniya və İtaliya arasındakı yük daşımaları İsveçrə vasitəsilə həyata keçirilirdi. İsveçrənin saat və dəqiq mexanika sənayesi Almaniya üçün bomba fitilləri, optik cihazlar və digər hərbi komponentlər istehsal edirdi.

5

## Erməni məkrinin şantajı



Sumqayıt hadisələrinin erməni ekstremistləri tərəfindən planlı şəkildə həyata keçirilməsi ilə bağlı çoxsaylı dəlillərdən biri də hadisələrdən bir müddət əvvəl kütləvi şəkildə ermənilərin əmanət kassalarında olan pullarını çıxara bilmələri idi. Belə ki, 1988-ci ilin yanvar ayından etibarən Sumqayıtda yaşayan 1000-dən çox erməni əmanət kassalarındakı vəsaitlərini kütləvi şəkildə çıxarmış və şəhəri tərk etməyə başlamışdı. Bu, onların qarşıdan gələn hadisələrdən xəbərdar olduqlarını sübut edən ən ciddi dəlillərdən biridir.

Həmçinin aparılan istintaqla müəyyənləşdirilib ki, Sumqayıtda bir çox erməni mal-mülklərini öncədən çıxardıqdan sonra kompensasiya almaq məqsədilə öz evlərini yandırıblar.

9

## Ermənistan seçim qarşısındadır



"Kilsə Ermənistan cəmiyyətində çox ciddi təsirə malikdir. Son bir-iki aydır bu mübarizədə baş nazir Nikol Paşinyanın müəyyən qədər geri çəkildiyini müşahidə edirik. Həm diaspor strukturlarından, həm də ölkə daxilində hakimiyyətin Apostol kilsəsinin rəhbərinə qarşı fəaliyyətinin dayandırılması ilə bağlı ciddi təzyiqlər var. Ermənistan mətbuatında kilsə islahatlarını dəstəkləmiş bir neçə yepiskopun artıq peşman olduğuna və II Qaregini yenidən dəstəklədiklərinə dair məlumatlar var. Bu isə onu deməyə əsas verir ki, bu mübarizədə Paşinyan ciddi nəticə əldə edə bilmir".

10

◆ Efiopiyanın Baş naziri Abiy Əhməd Əlinin Azərbaycana rəsmi səfəri

# “Dostlarınızın hamısı Sizinlə qürur duyur və Sizdən bir çox şeyləri öyrənirlər”

## Rəsmi qarşılanma mərasimi







**Fevralın 27-də Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əlinin rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Efiopiyanın Baş nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Efiopiyanın Baş naziri Abiy Əhməd Əlini və birinci xanım Zinaş Tayaçevi qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Efiopiyanın Baş nazirinə raport verdi.

Efiopiya Federativ Demokratik Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi. Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Efiopiyanın Baş naziri Abiy Əhməd Əlinin qarşısından keçdi.

Sonda rəsmi foto çəkdirildi.

## Təkbətək görüş



Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli ilə təkbətək görüşü olub.

## Azərbaycanın və Efiopiyanın birinci xanımlarının görüşü olub



Fevralın 27-də Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın Efiopiyanın birinci xanımı Zinaş Tayaçev ilə görüşü olub.

## Efiopiyanın Baş nazirinin şərəfinə rəsmi nahar

Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Efiopiyanın Baş naziri Abiy Əhməd Əlinin və birinci xanım Zinaş Tayaçevin şərəfinə rəsmi nahar verilib.



## Prezident İlham Əliyevin Efiopiyanın Baş naziri ilə geniş tərkibdə görüşü olub və iki ölkə arasında bir sıra sənədlər imzalanıb



**Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli ilə geniş tərkibdə görüşü oldu.**

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Prezident İlham ƏLİYEV** dedi: Hörmətli cənab Baş nazir, hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz. Çox şadam ki, bizi ziyarət edirsiniz. Bizim elə indicə cənab Baş nazirlə çox yaxşı söhbətimiz oldu və biz tərəfdaşlığımızın bir çox vacib sahələrini əhatə etdik. Mən cənab Baş nazirə bu yaxınlarda Efiopiyaya səfər etmiş qızım Leylaya göstərdiyi qonaqpərvərliyə görə minnətdarlığımı ifadə etdim. Bu səfər ona yaxşı, böyük təəssürat bağışladı. Yeri gəlmişkən, o, ilk dəfədir ki, nümayəndə heyətlərinin görüşündə iştirak edir və bu, onun Sizin ölkənizə, Sizin xalqınıza olan çox xüsusi münasibətilə bağlıdır. Mən Sizi bütün nailiyyətləriniz münasibətilə təbrik etmək istəyirəm.

Sizin rəhbərliyinizlə Efiopiya uğurla inkişaf edir, beynəlxalq birliyin vacib bir üzvüdür və iqtisadiyyatınız da artır. Əlbəttə ki, biz ikitərəfli münasibətlərimizin siyasi və iqtisadi, energetika, kənd təsərrüfatı, mədəniyyət sahələrində gücləndirilməsində çox maraqlıyıq. Bir sözlə, əminəm ki, bu səfər bizim gələcək uğurlu əməkdaşlığımız üçün vacib amil olacaq və ölkələrimizə, xalqlarımıza çox yaxşı nəticələr verəcək. Bir daha xoş gəlmisiniz.

* * *

Sonra **Baş nazir Abiy Əhməd ƏLİ** çıxış edərək dedi: Cənab Prezident, əziz Qardaşım. Gözəl ölkənizdə olmaqdan məmnunam və şərəf hissi duyuram. Bakı gözlədiyimdən qat-qat təmiz və gözəl şəhərdir. Bu isə ölkə rəhbərliyinin buna sadiqliyini və yanaşmasını göstərir. Bu, məni çox sevindirir. Həmçinin Sizi təbrik etmək istərdim ki, dostlarınızın hamısı Sizinlə qürur duyur və Sizdən bir çox şeyləri öyrənirlər. Gözəl ölkənizlə münasibətlərimiz, qeyd etdiyiniz kimi, hələ sadəcə başlayır. Bununla belə, biz bu münasibətlərin strukturlaşmış, əməli və aydın nəticələrə yönəlmiş olmasını istəyirik.

İki ölkə arasında çoxlu ortaq maraqlar var. İkimiz arasında, həmçinin çox uzlaşma mövcuddur. İndicə başladığımızla yanaşı, ümid edirəm ki, növbəti bir neçə ildə bizim birlikdə sərmayə yatıracağımız vacib sahələr olacaq və beləliklə, hər iki ölkə üçün fərq yaradacağıq.

Leylaya gəldikdə, mən dostlarla ünsiyyət qura bilən və möhkəm bünövrə əsasında münasibətlər yaratmağı bacaran belə təcrübəli qızınızın olduğu üçün Sizi təbrik etmək istəyirəm. Əminəm ki, növbəti səfərdə o, ölkəmizin bəzi bölgələrini görəcək və mən də komandamı, ailəmi Azərbaycanla tanış olmaq və münasibətlərimizi gücləndirmək üçün göndərəcəyəm.

Müzakirə edəcəyimiz çox sahələr var. Sizinlə çox məhsuldar və səmimi müzakirəmiz oldu. Bu məsələlərin bəzilərinin müzakirəsini burada davam etdirə bilərik. Ümumiyyətlə, mən gözəl ölkənizə səfər etməkdən çox şadam. Artıq çox böyük marağım yaranıb. Mən daha çox bilməyi, öyrənməyi və bir çox sahələrdə Sizinlə işləməyi səmimiyyətlə arzulayıram. Çox sağ olun, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm.

* * *

Söhbət zamanı Azərbaycanla Efiopiya arasında siyasi dialoqun inkişafından məmnunluq ifadə olundu, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu. Həmçinin kənd təsərrüfatı, mədən sənayesi, enerji, energetika, rəqəmsal transformasiya, süni intellekt sahələrində birgə kadr hazırlığı, turizm, mədəniyyət, təhsil, o cümlədən tələbə mübadiləsinin həyata keçirilməsi üzrə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

Görüşdə eyni zamanda Efiopiyada "ASAN xidmət" konsepsiyası əsasında mərkəzlərin uğurla fəaliyyət göstərməsi, həmçinin "DOST" təcrübəsinin tətbiqi ilə bağlı müzakirələrin aparıldığı qeyd edildi.

* * *

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Efiopiyanın Baş naziri Abiy Əhməd Əlinin iştirakı ilə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Efiopiyanın xarici işlər naziri Qedion Timoteos "Azərbaycan Respublikası ilə Efiopiya Federativ Demokratik Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"i və "Birləşmiş Millətlər Təşkilatının İqlim Konfransının (COP32) otuz ikinci sessiyasının təşkilində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

Qeyd edək ki, Efiopiyanın Baş nazirinin ölkəmizə səfəri çərçivəsində "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Efiopiya Federativ Demokratik Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Efiopiyanın Federal Etika və Antikorrupsiya Komissiyası arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi ilə Efiopiya İnvestisiya Komissiyası arasında Anlaşma Memorandumu" və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC ilə Efiopiya Yayım Korporasiyası arasında Anlaşma Memorandumu" imzalanıb.

# Efiopiyanın Baş naziri Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib

**Fevralın 27-də Azərbaycanda rəsmi səfərdə olan Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**



AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Həmçinin görkəmli dövlət və ictimai xadim Əziz Əliyevin və istedadlı həkim Tamerlan Əliyevin məzarları ziyarət olunub və məzarların önünə gül dəstələri qoyulub.

# Efiopiyanın Baş naziri Zəfər parkını ziyarət edib





**Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əlinin başçılıq etdiyi nümayəndə heyəti fevralın 27-də Bakıda Zəfər parkını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Efiopiyanın Baş naziri Zəfər abidəsinin önünə əklil qoyub.

Sonra qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verilib.

# Efiopiyanın Baş naziri "ASAN xidmət"də

Fevralın 27-də Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli Azərbaycana rəsmi səfəri çərçivəsində "ASAN xidmət" mərkəzini ziyarət edib.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev qonağa Prezident İlham Əliyevin təşəbbüsü əsasında yaradılmış "ASAN xidmət" mərkəzləri və innovasiyalar sahəsində həyata keçirilən layihələr barədə ətraflı məlumat verib.

Qonağa "ASAN xidmət" mərkəzlərinin fəaliyyətində tətbiq olunan müxtəlif texnoloji həllər ilə bağlı təqdimat edilib. Azərbaycanın milli brendi olan ASAN-ın intellektual məhsul kimi ixracı istiqamətində 30-dan çox ölkə və beynəlxalq təşkilatla müqavilə imzalandığı diqqətə çatdırılıb. Həmçinin vurğulanıb ki, Birləşmiş Millətlər Təşkilatı Azərbaycanın beynəlxalq müstəvidə brendinə çevrilmiş "ASAN xidmət" konsepsiyasını ən yaxşı model kimi dəyərləndirir və dörd qitədə təşviq edir.

Baş nazir Səyyar ASAN xidmətin fəaliyyəti ilə də tanış olub. Vətəndaşların dövlət xidmətlərinə əlçatanlığının təmin edilməsində mühüm rol oynayan Səyyar ASAN xidmət layihəsini qiymətləndirərək həmin təcrübənin də yaxın zamanda Efiopiyada tətbiq olunacağını qeyd edib.

Qonağa "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi, "Bilim Bakı" mərkəzi və "ABAD" publik hüquqi şəxsin fəaliyyəti ilə əlaqədar da ətraflı məlumat verilib.

Qeyd edək ki, Dövlət Agentliyi ilə həyata keçirilmiş əməkdaşlığın nəticəsi olaraq 2025-ci ilin iyun ayında Efiopiyanın Əddis-Əbəbə şəhərində Azərbaycanın "ASAN xidmət" konsepsiyası əsasında ilk "MESOB" dövlət xidmətləri mərkəzi fəaliyyətə başlayıb.

Xatırladaq ki, 2024-cü ilin may ayında Dövlət Agentliyi ilə Efiopiyanın müvafiq qurumu arasında "ASAN xidmət" təcrübəsinin Efiopiyada tətbiqi ilə bağlı Anlaşma Memorandumu imzalanıb.

Anlaşma Memorandumunun icrası çərçivəsində Dövlət Agentliyi tərəfindən Efiopiyadan olan dövlət qulluqçuları üçün təlimlər keçirilib, xidmətlərin vahid standartı müəyyən edilib, habelə "ASAN xidmət" mərkəzlərində istifadə olunan texnoloji həllər əsasında tövsiyə sənədləri formalaşdırılıb.

# Efiopiyanın Baş naziri "AI Academy" ilə tanış olub





**Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli Azərbaycana rəsmi səfəri çərçivəsində "AI Academy"də olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev süni intellektin ölkənin rəqəmsal inkişaf gündəliyində strateji prioritet kimi müəyyən olunduğunu vurğulayıb. O, həmçinin insan kapitalının hazırlanması və texnoloji imkanların genişləndirilməsinin milli inkişaf modelinin əsas komponentlərindən biri olduğunu qeyd edib.

Milli Süni İntellekt Mərkəzinin baş direktoru Tuncay Bağırov qonaqlara akademiyanın yaradılma məqsədi, fəaliyyət istiqamətləri və inkişaf planları barədə məlumat verib. Bildirilib ki, "AI Academy" Azərbaycanın 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyasına uyğun olaraq ölkədə yüksəkixtisaslı mütəxəssis hazırlığının sistemli şəkildə təşkili, dövlət və özəl sektor üçün tətbiqyönümlü bacarıqların inkişaf etdirilməsi və innovasiya mühitinin gücləndirilməsi məqsədilə fəaliyyət göstərir.

Qonaqlara akademiyanın tədris proqramları, ixtisaslaşmış kursları və praktiki təlim modulları təqdim olunub, tədris prosesinin real layihələrə əsaslanan model üzrə qurulduğu diqqətə çatdırılıb. Bu yanaşmanın süni intellekt texnologiyalarının yalnız nəzəri bilik səviyyəsində deyil, konkret iqtisadi və institusional tətbiqlər vasitəsilə dəyər yaratmasına xidmət etdiyi bildirilib.

Görüş zamanı süni intellekt sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi, bilik və təcrübə mübadiləsinin təşviqi, eləcə də bu istiqamətdə birgə təşəbbüslərin inkişaf etdirilməsi məsələləri müzakirə olunub.

# Efiopiyanın Baş naziri Abiy Əhməd Əli Səngəçal neft terminalında olub

Azərbaycanda rəsmi səfərdə olan Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli Səngəçal neft terminalında olub.

AZƏRTAC xəbər verir ki, terminalla tanışlıq Xəzər regionunda bənzərsizliyi ilə seçilən Xəzər Enerji Mərkəzindən başlanıb.

Məlumat verilib ki, Azərbaycanın neft-qaz sənayesinin tarixini dolğun əks etdirən bu mərkəz ölkəmizin dünya neft və qaz sənayesindəki rolunu geniş təbliğ edir.

Mərkəz 2005-ci ildə yüksəksəviyyəli rəsmi qonaqların iştirakı ilə Prezident İlham Əliyev tərəfindən açılıb. Mərkəzin istifadəyə verilməsi Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin Azərbaycan hissəsinin açılışı ilə eyni vaxta təsadüf edib. Burada qonaqlar rəmzi nişan kimi öz əl izlərini qoyub və bu nişan Xəzər Enerji Mərkəzinin rəmzinə çevrilib. Mərkəzin əsas məqsədlərindən biri Azərbaycanın neft və qaz sənayesinin 150 ildən çox olan tarixini nümayiş etdirməkdir.

Ali qonağa respublikamızın neft tarixinin xronologiyası barədə ətraflı məlumat verilib. Bildirilib ki, neft və qaz sənayesi Azərbaycan üçün yalnız iqtisadi dəyər daşımır, o, eyni zamanda milli qürur mənbəyidir. Dünyada ilk dəfə mexaniki üsulla neft quyusu 1847-ci ildə Bibiheybət ərazisində qazılıb. XIX əsrə qədər dünyada hasil edilən neftin yarısı ölkəmizin payına düşüb. XIX əsrin ikinci yarısında xarici ölkələrin iş adamları Azərbaycanda biznes fəaliyyətinə başlayıblar. Bunlara bütün dünyada tanınan Rotşildlər və Nobel qardaşlarını misal göstərmək olar. Dünyada məşhur olan Nobel mükafatı həm də Alfred Nobelin Bakıdakı neft yataqları üzrə səhmlərinin satışından əldə olunmuş vəsaitlərin toplanması hesabına yaradılıb.

İkinci Dünya müharibəsi illərində Sovet İttifaqında neftin 75 faizini hasil edən Azərbaycan ordunu yanacaqla təchiz edərək Qələbənin əldə olunmasında əhəmiyyətli rol oynayıb. Ötən əsrin 70-80-ci illəri isə Xəzər dənizinin dərinsulu sektorlarındakı yataqların işlənməsi və neft-kimya sənayesinin inkişafı ilə səciyyəvidir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə nəhəng "Azəri-Çıraq-Günəşli" yatağının işlənilməsi məqsədilə "Əsrin müqaviləsi" kimi tanınan hasilatın pay bölgüsü haqqında müqavilə imzalanıb. Bu müqavilə ölkənin sürətli inkişafına təkan verərək, onu regional enerji mərkəzinə çevirib.



Efiopiyanın Baş naziri və onu müşayiət edən şəxslər müxtəlif yataqlardan hasil edilən neft nümunələrinə də baxıblar. Sonra Azərbaycanın neft tarixi və "Cənub qaz dəhlizi" layihəsindən bəhs edən videoçarx nümayiş etdirilib.

Bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin neft strategiyası çərçivəsində ölkəmizdə irimiqyaslı enerji layihələri həyata keçirilib. Bu layihələrin təməlini qoyan Ulu Öndər Azərbaycana milyard dollarla xarici sərmayələrin cəlb edilməsi üçün mühüm addımlar atıb. İlkin olaraq Xəzərin neft və qaz yataqlarının işlənilməsi və neft kəmərlərinin tikintisinə yönəldilmiş vəsaitlər sonradan digər sahələrin, xüsusilə qeyri-neft sektorunun inkişafına, iri infrastruktur layihələrinin həyata keçirilməsinə, yeni iş yerlərinin açılmasına şərait yaradan gəlir gətirib.

Bu gün Azərbaycanın dünyanın sürətlə inkişaf edən ölkələrindən birinə çevrilməsində və artıq özünün xarici sərmayələr yatırmaq iqtidarında olmasında bunun böyük rolu vardır. Vurğulanıb ki, tikintisinə 2001-ci ildə başlanmış terminalda xam neft üçün ümumi həcmi 880 min barel olan üç çən, baş nasos stansiyası, separatorlar, emal qurğuları və idarəetmə məntəqəsi var. Buraya fiber-optik rabitə kabelləri, sahildən 187 kilometr məsafədə yerləşən dəniz yataqlarından neft və qaz kəmərləri çəkilib.

Ali qonağa xatirə hədiyyələri təqdim olunub. Sonra Abiy Əhməd Əli avtobusla Səngəçal terminalının ərazisini gəzib. Ona terminaldakı texnoloji proseslər barədə ətraflı məlumat verilib. Bildirilib ki, Səngəçal terminalı Azərbaycanın neft və qaz sənayesinin döyünən ürəyi hesab edilir. Terminal Azərbaycanın Xəzər dənizindəki yataqlarından hasil edilən xam neftin və qazın qəbul edildiyi, emal olunduğu, saxlandığı və ixrac edildiyi məkandır.

"Azəri-Çıraq-Günəşli" yatağından ötürülən neft və "Şahdəniz"dən nəql edilən qaz terminala daxil olur, əsasən Bakı-Tbilisi-Ceyhan və Cənubi Qafqaz Boru Kəməri ilə ixrac edilir. Dünyanın ən böyük və səmərəli neft və qaz terminallarından sayılan Səngəçal terminalının sahəsi 550 hektardan çoxdur. Terminalda gündə 1,2 milyon bareldən çox xam neft və 40 milyon kubmetrdən artıq qaz emal edilir. Onun xam neft saxlama həcmi 3,2 milyon barel təşkil edir. Terminalın sahəsi mürəkkəb boru kəmərləri və avadanlıq şəbəkəsi ilə əhatə olunub. Dənizdəki qurğulardan terminala daxil olan boru kəmərləri müxtəlif marşrutlara istiqamətlənməklə, Azərbaycanın yüksəkkeyfiyyətli xam neftini və qazını dünya bazarlarına nəql edir. Bundan əlavə, terminal Qazaxıstan və Türkmənistan neftini də qəbul edir. "İlkin Neft Layihəsi" və "Səngəçal Terminalının Genişləndirilməsi Proqramı" çərçivəsində terminalın ötürmə və emal imkanları daha da artırılıb.

# Efiopiya Baş naziri Abiy Əhməd Əli Ələt Azad İqtisadi Zonasında olub



**Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əlinin başçılıq etdiyi rəsmi nümayəndə heyəti Ələt Azad İqtisadi Zonasında (ƏAİZ) olub.**

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində keçirilən görüşdə Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov nümayəndə heyətinə ƏAİZ-in strateji coğrafi mövqeyi, "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsi, eləcə də Xəzər hövzəsində formalaşan sənaye mərkəzi kimi artan rolu barədə ətraflı məlumat verib.

Bildirilib ki, azad zona unikal qanunvericilik bazasına malikdir və burada investorlar üçün xüsusi hüquqi rejim tətbiq olunur. Qeyd edilib ki, ƏAİZ-də rezidentlərə istifadəyə hazır ərazi-daxili və ərazi-xarici infrastruktur, müasir mühəndis-kommunikasiya sistemləri ilə təchiz olunmuş sənaye torpaq sahələri, həmçinin geniş maliyyə və qeyri-maliyyə imtiyazlar paketi təqdim edilir.

Daha sonra ali qonaq azad zona ərazisindəki sənaye mərkəzinin fəaliyyəti ilə tanış oldu.

# Azərbaycan və Türkmənistan arasında əməkdaşlıq məsələləri müzakirə olunub

**Fevralın 27-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türkmənistanın xarici işlər nazirinin müavini Ahmet Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi istiqamətində siyasi dialoqun dinamik inkişafı məmnunluqla qeyd olunub, ali və yüksəksəviyyəli səfərlərin və təmasların əhəmiyyəti vurğulanıb. Bu çərçivədə ötən il Prezident İlham Əliyevin Türkmənistana, Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana səfərləri və əldə olunmuş nəticələr məmnunluqla xatırlanıb.

Görüş zamanı Azərbaycan və Türkmənistan arasında mövcud olan strateji tərəfdaşlıq münasibətlərinin xarakterinə uyğun olaraq, ticarət-iqtisadiyyat, enerji, nəqliyyat və logistika, o cümlədən Xəzər dənizində əməkdaşlıq, humanitar və mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsi imkanları nəzərdən keçirilib və perspektivləri müzakirə edilib.

Bu çərçivədə Azərbaycan və Türkmənistan arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın əlaqələrin inkişafında mühüm rol oynadığı vurğulanıb. Ötən il Türkmənistanın Azərbaycanda, bu il isə Azərbaycanın Türkmənistanda mədəniyyət günlərinin təşkilinin əhəmiyyəti qeyd olunub, bununla yanaşı, xalçaçılıq və atçılıq kimi ortaq dəyərlərimizin təbliğatının vacibliyi diqqətə çatdırılıb.



Eyni zamanda regional və beynəlxalq gündəliyin aktual məsələləri üzrə fikir mübadiləsi aparılıb, çoxtərəfli platformalar çərçivəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Xalqlarımız arasında tarixən mövcud olan ənənəvi dostluq və qardaşlıq əlaqələrinin bundan sonra Azərbaycan ilə Türkmənistan arasında tərəfdaşlıq münasibətləri zəminində daha da inkişaf edəcəyinə dair həmfikirlik ifadə olunub.

Görüş zamanı habelə qarşılıqlı maraq doğuran digər ikitərəfli və çoxtərəfli məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Eyni gündə Azərbaycan və Türkmənistan Xarici İşlər nazirlikləri arasında növbəti siyasi məsləhətləşmələr keçirilib.

Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Samir Şərifov, Türkmənistan tərəfindən isə xarici işlər nazirinin müavini Ahmet Qurbanov başçılıq edib.

# "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, ölkə iqtisadiyyatında müasir texnologiyaların tətbiqinin və yerli istehsal potensialının genişləndirilməsi, habelə dövlət idarəetməsinin və infrastrukturun yüksək səviyyədə rəqəmsallaşdırılması əsasında dayanıqlı, rəqabətqabiliyyətli inkişafın təmin edilməsi məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" (bundan sonra - Fəaliyyət Planı) təsdiq edilsin (əlavə olunur).

2. Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi dövlət büdcəsi və qanunla nəzərdə tutulan digər mənbələr hesabına təmin edilsin.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurası Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirsin.

4. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

4.1. Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə rübdə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.2. Fəaliyyət Planında müəyyən edilmiş tədbirlərin maliyyələşdirilməsi məqsədilə hər il dövlət büdcəsinin tərtibi prosesində zəruri maliyyə vəsaitinin nəzərdə tutulması, həmin vəsaitin bölgüsü, büdcə ilinin istənilən vaxtında digər istiqamətlər üzrə xərclənməsi və ilin sonunadək xərclənməməsinin (büdcəyə qaytarılmasının) təsirləri barədə təkliflərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

5.1. Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədilə hər il dövlət büdcəsinin tərtibi prosesində, maliyyə ekspertizası aparılmaqla, zəruri maliyyə vəsaitinin ayrıca sətirlə nəzərdə tutulması üçün müvafiq işlər görsün;

5.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə razılaşdırmaqla, bu Sərəncamın 4.2-ci bəndində nəzərdə tutulan tədbirləri həyata keçirsin.

6. Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

7. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, dövlət adından yaradılan publik hüquqi şəxslərə və digər büdcə təşkilatlarına tapşırılsın, Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikasının Baş Prokurorluğuna, Azərbaycan Respublikasının Mərkəzi Bankına, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinə (ombudsmana), Azərbaycan Respublikasının Hesablama Palatasına, Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasına və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına tövsiyə edilsin ki:

7.1. Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və tam icrasını təmin etsinlər;

7.2. Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrası barədə aylıq məlumatları hər növbəti ayın 10-dək Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə təqdim etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 fevral 2026-cı il*

*Sərəncamın əlavəsi ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında informasiya-kommunikasiya texnologiyalarının inkişafı və rəqəmsal texnologiyaların geniş tətbiqi sosial şəbəkələrin ictimai münasibətlər sistemində əhəmiyyətli yer tutmasına səbəb olmuşdur. Sosial münasibətlərin sürətlə rəqəmsallaşması və sosial şəbəkələrin uşaqların gündəlik həyatına getdikcə daha erkən yaşda daxil olması, həmin şəbəkələr vasitəsilə informasiyanın istehsalı, yayılması və istehlakının miqyasının artması bu sahədə hüquqi tənzimləmənin mövcud vəziyyətinin müasir texnoloji, sosial və təhlükəsizlik çağırışları baxımından təhlilini və təkmilləşdirilməsini zəruri edir.

Beynəlxalq təşkilatların və elmi tədqiqat qurumlarının araşdırmaları, digər ölkələrin təcrübəsi göstərir ki, uşaqların rəqəmsal mühitdə qorunmasına diqqət yetirilməsi, onların psixoloji rifahı və təhlükəsizliyi, sağlam inkişafı üçün xüsusi hüquqi müdafiə və texnoloji mühafizə mexanizmlərinin tətbiqi tələb olunur. Bu yanaşmada rəqəmsal mühitdə uşaqların şəxsi həyatının, ləyaqətinin və təhlükəsizliyinin bilavasitə dövlətlər tərəfindən qorunması tövsiyə edilir. Beynəlxalq təcrübədə, ilk növbədə sosial şəbəkələrin fəaliyyətinin tənzimlənməsi, onlara uşaqlar üçün risklərin azaldılması, məlumatların daha ciddi mühafizəsi və təhlükəsizliyi ilə bağlı öhdəliklər müəyyən edən tələblərin tətbiqinin geniş vüsət alması müşahidə olunur.

Bu yeni tələblər sosial şəbəkələrin fəaliyyətinin sistemli hüquqi çərçivədə tənzimlənməsi, valideyn nəzarəti, platformadaxili təhlükəsizlik mexanizmləri və yaşa uyğun məzmun filtrləri vasitəsilə uşaqların və yeniyetmələrin rəqəmsal mühitdə təhlükəsizliyini təmin edir, həmçinin onların kritik informasiyanı təhliletmə, davranış və bilgi mədəniyyətinin inkişafına şərait yaradır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, uşaqların rəqəmsal mühitdə müdafiəsi sahəsində balanslaşdırılmış, sübuta əsaslanan və sistemli yanaşmanın, sosial şəbəkələrdən istifadə sahəsində rəqəmsal bacarıqların təşviqi, onlayn davranış mədəniyyətinin formalaşdırılması və yaradıcı rəqəmsal potensialın inkişaf etdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. aidiyyəti dövlət orqanlarını (qurumlarını), elmi müəssisə və təşkilatları, mütəxəssisləri və vətəndaş cəmiyyəti institutlarını cəlb etməklə və beynəlxalq təcrübə nəzərə alınmaqla, ölkə ərazisində uşaqların sosial şəbəkələrdəki zərərli məzmun və təsirlərindən qorunmasını, o cümlədən sosial şəbəkələrdə qeydiyyat zamanı yaş məhdudiyyətinin tətbiqini əhatə edən normativ hüquqi aktların layihələrini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. məktəbəhazırlıq qruplarında və ümumi təhsil müəssisələrində mobil və elektron cihazlardan istifadəyə dair qaydaların müəyyən edilməsi və tətbiqi ilə bağlı tədbirlər görülməsini təmin etsin;

1.3. məktəbəhazırlıq və ümumi təhsil fənləri üzrə təhsil proqramlarına (kurikulumlara), o cümlədən məzmun standartlarına rəqəmsal savadlılıq, kibertəhlükəsizlik və məsuliyyətli onlayn davranış mövzularının daxil edilməsi, eyni zamanda mediada valideynlər, müəllimlər və uşaqlara yönələn maarifləndirmə proqramlarının hazırlanıb həyata keçirilməsi ilə bağlı tədbirlər görsün;

1.4. sosial şəbəkələrdən qanunauyğun istifadənin, belə istifadə zamanı uşaq hüquqlarının müdafiəsinin təmin edilməsi ilə bağlı mütəmadi maarifləndirmə işinin həyata keçirilməsi, o cümlədən uşaqların rəqəmsal rifahına dair elmi tədqiqatlar aparılmasının təşviq edilməsi məqsədilə tədbirlər görsün;

1.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 fevral 2026-cı il*

# C.R.Hüseynovun Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində Azərbaycan Respublikasının baş konsulu vəzifəsindən geri çağırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Cavidan Rizvan oğlu Hüseynov Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində Azərbaycan Respublikasının baş konsulu vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 fevral 2026-cı il*

# C.R.Hüseynovun Azərbaycan Respublikasının Bəhreyn Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Cavidan Rizvan oğlu Hüseynov Azərbaycan Respublikasının Bəhreyn Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 fevral 2026-cı il*

# K.V.Məmmədzadənin Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Kamran Vahid oğlu Məmmədzadə Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 fevral 2026-cı il*

# E.E.Məmmədovun Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elmar Eldar oğlu Məmmədov Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 fevral 2026-cı il*

# Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransın birinci günü başa çatıb

**Fevralın 27-də AMEA Rəyasət Heyətində Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Birinci Türkoloji Qurultayın qurucuları və dərsləri: tarix və müasirlik" mövzusunda beynəlxalq elmi konfrans işə başlayıb.**



AZƏRTAC xəbər verir ki, beynəlxalq elmi konfransın iştirakçıları AMEA Rəyasət Heyətinin foyesində Birinci Türkoloji Qurultaya həsr olunmuş məlumat bazası, virtual sərgi, eləcə də AMEA-da yubileylə bağlı nəşr edilmiş kitablarla tanış olublar.

Konfrans Birinci Türkoloji Qurultayın təşkilində yaxından iştirak etmiş türk dünyasının görkəmli şəxsiyyətlərinin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Birinci Türkoloji Qurultayın türk xalqlarının elmi və mədəni birliyinin tarixi təməli olduğunu söyləyib. Vurğulayıb ki, 1926-cı ildə Bakı şəhərində, məhz bu tarixi məkanda keçirilmiş Birinci Türkoloji Qurultay XX əsrdə türk xalqlarının, o cümlədən Azərbaycan xalqının mədəni həyatında baş vermiş ən əlamətdar hadisələrdən biri kimi tarixə düşüb. AMEA prezidenti qeyd edib ki, konfransda təqdim olunacaq məruzələr və aparılacaq müzakirələr türkologiya elminin inkişafına təkan verəcək, iştirakçılar arasında elmi əlaqələrin gücləndirilməsinə geniş imkanlar yaradacaq.

Türkiyənin Yunus Əmrə İnstitutunun prezidenti, professor Abdurrahman Aliy Birinci Türkoloji Qurultayı ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış mühüm hadisə kimi dəyərləndirib. O, qurultayın vaxtilə irəli sürdüyü bir çox ideyaların müasir şəraitdə uğurla gerçəkləşdiyini söyləyib. Türkiyəli professor qeyd edib ki, qurultayın 100 illik yubileyi türk dünyasının intellektual irsinin yenidən qiymətləndirilməsi, türkologiyanın aktual məsələlərinin müzakirəsi və elmi əməkdaşlıq imkanlarının genişləndirilməsi baxımından əhəmiyyətlidir.

Daha sonra Birinci Türkoloji Qurultaya həsr olunan film nümayiş etdirilib.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov Birinci Türkoloji Qurultayın türk dünyasının zəngin keçmişinə istinad etdiyini, gələcək barədə düşünmək, ortaq strateji baxışlar və mədəni həmrəyliyin əsaslarını müəyyənləşdirmək baxımından mühüm nəticələrlə yadda qaldığını söyləyib. Nazir müavini AMEA-da müxtəlif dövlət qurumları, nazirliklərlə birgə Birinci Türkoloji Qurultayın 100 illiyi ilə əlaqədar bir sıra elmi tədbirlər təşkil olunduğunu, sanballı nəşrlər hazırlandığını, müxtəlif tədqiqat və mədəniyyət layihələri həyata keçirildiyini diqqətə çatdırıb.

Daha sonra Türkiyə Respublikasının mədəniyyət və turizm nazirinin müavini Serdar Çam, milli təhsil nazirinin müavini dosent Celile Ören Ökten, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova, Türkiyənin ölkəmizdəki səfiri professor Birol Akgün, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Türkiyə millət vəkili, AK Partiya sədr müavini, Türk Dövlətləri ilə əlaqələr üzrə başqan, professor Kürşat Zorlu, Atatürk Kültür, Dil, Tarix Yüksək Qurumunun prezidenti, professor Dərya Örs, Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayev, Türk Dil Qurumunun rəhbəri, professor Osman Mert, Xalq şairi Sabir Rüstəmxanlı çıxış ediblər.

Türk Mədəniyyəti Araşdırma İnstitutunun direktoru professor Ahmet Bican Ercilasun "Türkologiyanın strateji əsasları qurultay miqyasında", Azərbaycan Atatürk Mərkəzinin rəhbəri, akademik Nizami Cəfərov "Birinci Türkoloji Qurultayda Azərbaycan" və Azərbaycan Dillər Universitetinin professoru Adil Babayev "Birinci Türkoloji Qurultay iştirakçılarının aqibəti və şərəfi" mövzusunda məruzələrlə çıxış ediblər.

Çıxışlarda Birinci Türkoloji Qurultayın tarixi əhəmiyyətini, ideya əsaslarını və təşkilatçılarının elmi irsini müasir elmi yanaşmalar kontekstində təhlil etmək baxımından tədbirin önəmi qeyd edilib. Bildirilib ki, bu tədbir türk dünyasının intellektual birliyini möhkəmləndirən, elmi dialoqu dərinləşdirən və yeni tədqiqatlara yol açan mühüm platformadır.

Daha sonra tədbir işini panel iclasları ilə davam etdirib.

Beynəlxalq elmi konfransda Azərbaycandan başqa, Türkiyə, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan, Şimali Kipr Türk Cümhuriyyəti və başqa ölkələrdən gəlmiş tanınmış elm adamlarının məruzələri dinlənilib.

Konfrans çərçivəsində "Birinci Türkoloji Qurultayın çağırılmasının tarixi və ictimai zərurəti", "Qurultayın təşkilatçıları və aparıcı simalarının türkologiya elminə töhfələri", "Qurultay qərarlarının türk xalqlarının elmi və mədəni inkişafına təsiri", "Türk dillərinin tədqiqi, əlifba və terminologiya məsələləri, metodoloji yanaşmalar, "Qurultay ideyalarının sovet dövründə və sonrakı mərhələlərdə inkişaf dinamikası", "Müstəqillik dövründə türkologiyanın qarşısında duran çağırışlar", "Qlobal elmi mühitdə türkoloji araşdırmaların perspektivləri" və "Qurultayın az araşdırılmış pərdəarxası məqamları" istiqamətləri üzrə müzakirələr aparılıb.

Dilçilər, tarixçilər, etnoqraflar, ədəbiyyatşünaslar və mədəniyyət tədqiqatçıları türkologiya elminin aktual problemlərini müxtəlif elmi məktəblərin baxış bucağından təqdim ediblər.

Qeyd edək ki, beynəlxalq elmi konfransın iştirakçıları fevralın 28-də Xəzər Universitetində Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş simpoziumda da iştirak və çıxış edəcəklər.

# "Azərbaycan və Türkiyə iş adamlarının birgə fəaliyyəti yalnız kapital axını ilə ölçülməməlidir"

**"Azərbaycan və Türkiyə arasında iqtisadi əməkdaşlıq son illər yeni mərhələyə qədəm qoyub".**



Bunu AZƏRTAC-a açıqlaması zamanı türkiyəli iqtisadiyyat və maliyyə məsələləri üzrə ekspert İlhan İşbaşı bildirib.

Onun sözlərinə görə, iki qardaş ölkə arasında formalaşmış yüksəksəviyyəli siyasi dialoq və qarşılıqlı etimad biznes mühitinə də öz müsbət təsirini göstərir.

"Azərbaycan regionda sabitlik, təhlükəsizlik və proqnozlaşdırıla bilən iqtisadi siyasət baxımından investorlar üçün etibarlı tərəfdaşdır. Türkiyə iş adamları üçün bu faktorlar sərmayə qərarlarında əsas rol oynayır. Son illərdə Azərbaycanda aparılan struktur islahatları, vergi və gömrük sistemində sadələşdirmələr, rəqəmsallaşma və sahibkarlığa dövlət dəstəyi mexanizmləri investisiya mühitini daha da cəlbedici edib. Sənaye parkları və azad iqtisadi zonalarda təqdim olunan güzəştlər türk investorlarının marağını artırır. SOCAR-ın Türkiyədə həyata keçirdiyi iri layihələr - xüsusilə Petkim və STAR neft emalı zavodu - iki ölkə arasında qarşılıqlı sərmayənin uğurlu modelini formalaşdırıb. Bu layihələr yalnız iqtisadi baxımdan deyil, həm də enerji təhlükəsizliyi və sənaye əməkdaşlığı baxımından strateji əhəmiyyət daşıyır. Eyni modelin digər sahələrdə - logistika, kimya sənayesi, aqrar emal və yüksək texnologiyalar sahəsində tətbiqi mümkündür", - deyə İlhan İşbaşı əlavə edib.

İlhan İşbaşının sözlərinə görə, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri yeni investisiya imkanları yaradır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında müasir infrastrukturun qurulması, "yaşıl enerji" konsepsiyasının tətbiqi və aqroparkların yaradılması türk şirkətləri üçün perspektivli sahələrdir: "Türkiyə şirkətləri tikinti, yol infrastrukturu, enerji, kənd təsərrüfatı və turizm sahələrində zəngin təcrübəyə malikdir və bu təcrübə Azərbaycanla ortaq layihələrdə səmərəli şəkildə istifadə oluna bilər. İki ölkə arasında əməkdaşlığın növbəti mərhələsi yüksək texnologiyalar və innovasiya sahəsini əhatə etməlidir. Startap ekosisteminin inkişafı, rəqəmsal transformasiya, "ağıllı şəhər" və "ağıllı kənd" layihələri çərçivəsində birgə təşəbbüslər iqtisadi inteqrasiyanı daha da gücləndirə bilər. Nəqliyyat və logistika imkanlarının genişlənməsi, xüsusilə Orta dəhliz üzərindən artan yük axını Azərbaycanı regional tranzit mərkəzinə çevirir. Azərbaycan Türkiyə üçün Mərkəzi Asiya bazarına çıxış imkanı yaradırsa, Türkiyə də Azərbaycan məhsulları üçün Avropa və Aralıq dənizi bazarlarına açılan qapıdır. Bu qarşılıqlı tamamlayıcılıq investisiya əməkdaşlığını daha da sürətləndirəcək".

İşbaşının sözlərinə görə, gələcək dövrdə kiçik və orta sahibkarlıq subyektləri arasında birbaşa tərəfdaşlıqların genişləndirilməsi xüsusi əhəmiyyət kəsb edir.

"Birgə biznes forumları, ticarət nümayəndəlikləri və investisiya platformaları bu istiqamətdə praktiki nəticələr verə bilər. Azərbaycan və Türkiyə iş adamlarının birgə fəaliyyəti yalnız kapital axını ilə ölçülməməlidir. Bu əməkdaşlıq ortaq istehsal, texnologiya transferi, yeni iş yerlərinin yaradılması və regional iqtisadi sabitliyin möhkəmləndirilməsi deməkdir. Qarşılıqlı investisiyaların artması iki qardaş ölkənin strateji tərəfdaşlığını daha da dərinləşdirəcək və uzunmüddətli dayanıqlı inkişaf üçün möhkəm zəmin yaradacaq", - deyə İlhan İşbaşı vurğulayıb.

# İqtisadi Şuranın növbəti iclası keçirilib



Fevralın 27-də Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində Azərbaycan Respublikası Prezidentinin 30 may 2025-ci il tarixli Sərəncamındakı tapşırıqlardan irəli gələrək "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın layihəsi və əsas hədəflərin müzakirəsi, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın layihəsi, eləcə də 2025-ci ildə iqtisadi artım, onun əsas amilləri və fəaliyyət sahələrində mövcud vəziyyət, 2025-ci ilin yekunları üzrə makroiqtisadi və maliyyə sabitliyi sahəsində vəziyyət və siyasət istiqamətləri, habelə digər cari məsələlər ətraflı müzakirə olunub.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, gündəlikdə olan məsələlər üzrə Baş nazirin müavinləri Samir Şərifov və Şahin Mustafayev, iqtisadiyyat naziri Mikayıl Cabbarov və Mərkəzi Bankın sədri Taleh Kazımov çıxış ediblər. İclasda təqdim olunan məsələlərə dair İqtisadi Şuranın üzvləri tərəfindən rəy və təkliflər bildirilib.

İclasın yekununda "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın layihəsi və digər məsələlər barədə müvafiq tapşırıqlar verilib.

# Prezident Administrasiyasının rəhbəri COP32-nin prezidenti ilə görüşüb



**Fevralın 27-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev Efiopiya Federativ Demokratik Respublikasının xarici işlər naziri, COP32-nin müəyyən olunmuş prezidenti Gedion Timotevos Hessebon ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu gün Efiopiyanın Baş naziri Abiy Əhməd Əli ilə görüşü zamanı iki ölkə arasında BMT-nin iqlim konfransları (COP) sahəsində təcrübə mübadiləsinin müzakirə edilməsinə toxunaraq, dövlətimizin başçısının tapşırığı ilə Azərbaycanın Efiopiya ilə tam əməkdaşlığa hazır olduğunu vurğulayıb.

Samir Nuriyev Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın COP29 çərçivəsində təşkilati-logistika, substantiv və kommunikasiya sahəsində həyata keçirilmiş işlərə toxunub, həmçinin COP29-da bir sıra tarixi qərarların qəbul edildiyini bildirib.

Gedion Timotevos Hessebon Azərbaycanın COP29-u yüksək səviyyədə təşkil etdiyini, zəngin irs yaratdığını qeyd edib. Nazir Efiopiyanın Azərbaycanla COP32 çərçivəsində əməkdaşlıqda maraqlı olduğunu bildirib və ölkəmizin bu istiqamətdə Efiopiyaya təşkilati-logistika və substantiv dəstəyini yüksək qiymətləndirib.

Görüşdə Efiopiyanın Baş naziri Abiy Əhməd Əlinin Azərbaycana səfəri çərçivəsində iki ölkənin xarici işlər nazirləri arasında imzalanmış "BMT-nin İqlim Konfransının 32-ci sessiyasının (COP32) təşkili ilə bağlı əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun əhəmiyyəti vurğulanıb.

Həmçinin 2026-cı ildə ölkəmizdə keçiriləcək BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) ilə əlaqədar fikir mübadiləsi aparılıb.

# "Neytrallıq" pərdəsi altında riyakarlıq

## Separatçılığın vəkili rolunda çıxış edənlərin məqsədi sülhə mane olmaqdır

**Beynəlxalq aləmdə özünü dialoq və tərəfsizlik rəmzi kimi tanıdan İsveçrənin son addımları bu ölkənin onilliklər ərzində formalaşmış neytrallıq statusu ilə ziddiyyət təşkil edir. Xüsusilə 2023-cü ildən sonra Qarabağ məsələsi ətrafında İsveçrə siyasi platformalarında artan canlanma bölgədəki sülh prosesinə xidmət etmək əvəzinə mövcud postmünaqişə reallıqlarını şübhə altına almaq təsiri bağışlayır.**



Bu cür yanaşma həm Azərbaycan, həm də bütövlükdə Cənubi Qafqazın sabitlik perspektivləri üçün ciddi narahatlıq mənbəyidir. İsveçrə parlamentində qondarma "Swiss Peace Initiative for Nagorno Karabakh" adı altında irəli sürülən layihələrin təhlili göstərir ki, bu təşəbbüslər sülh gündəliyinin mahiyyətindən uzaqdır. 2020-ci ilin üçtərəfli Bəyanatı və 2023-cü il antiterror tədbirləri nəticəsində yaranmış yeni hüquqi-siyasi mənzərəni görməzdən gələn bu addımlar, əslində, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması üçün zəruri olan təməl bazaya zərbə vurur.

İsveçrənin İkinci Dünya müharibəsi dövründəki rolu "neytrallıq" anlayışının mənəvi və iqtisadi sərhədləri barədə hələ də davam edən böyük bir mübahisə mövzusudur. İsveçrə Milli Bankı (SNB) müharibə illərində nasist Almaniyasının ən böyük qızıl alıcısı idi. Almaniya işğal etdiyi ölkələrin (Belçika, Hollandiya və s.) mərkəzi banklarından talan etdiyi qızılı İsveçrə frankına dəyişirdi. Almaniya üçün İsveçrə frankı strateji əhəmiyyət kəsb edirdi, çünki bu valyuta ilə neytral ölkələrdən müharibə sənayesi üçün xammal almaq mümkün idi.

Daha acınacaqlı fakt odur ki, bu qızılların bir hissəsi konsentrasiya düşərgələrindəki qurbanların şəxsi əşyalarından əridilərək külçə halına salınmışdı. Neytrallıq statusuna baxmayaraq, İsveçrə sənayesi Almaniya üçün işləyirdi. Almaniya və İtaliya arasındakı yük daşımaları İsveçrə vasitəsilə həyata keçirilirdi. İsveçrənin saat və dəqiq mexanika sənayesi Almaniya üçün bomba fitilləri, optik cihazlar və digər hərbi komponentlər istehsal edirdi.

1990-cı illərdə beynəlxalq təzyiqlər nəticəsində İsveçrə hökuməti müstəqil ekspertlər qrupu (Bergier Komissiyası) tərəfindən araşdırma başlatdı. Hesabatda İsveçrənin neytrallıq bəhanəsi ilə nasist rejiminə kömək etdiyi və bununla da müharibənin ömrünü uzatdığı qeyd olundu. 1998-ci ildə İsveçrə bankları Holokost qurbanlarının varislərinə və sağ qalanlara 1.25 milyard dollar təzminat ödəməyə razı oldular. İsveçrənin bu addımları çox vaxt "sağ qalma strategiyası" kimi müdafiə olunsa da, sənədlər göstərir ki, bankların bir çoxu bu əməliyyatlardan, sadəcə, iqtisadi mənfəət güdürdülər. İsveçrənin müharibə dövründəki iqtisadi siyasəti tez-tez "mühasirəyə alınmış qala" iqtisadiyyatı kimi təqdim olunsa da, reallıqda bu, nasist Almaniyası ilə dərin və strateji bir əlaqə idi. Bergier hesabatı sübut etdi ki, İsveçrənin neytrallığı passiv bir müşahidə deyil, aktiv bir maliyyə xidməti idi. İsveçrə Almaniyaya milyardlarla frank dəyərində "kliring krediti" ayırmışdı. Bu, praktiki olaraq o demək idi ki, Almaniya İsveçrədən mal alırdı, lakin pulunu dərhal ödəmir, "borca yazdırırdı". Bu, müharibə aparan bir dövlət üçün ən böyük iqtisadi dəstək formalarından biridir. Berlin üçün İsveçrə yeganə pəncərə idi ki, orada talan edilmiş qızılı dünya bazarında qəbul edilən franklara çevirə bilsin. Hesabatın ən sarsıdıcı hissələrindən biri İsveçrənin bu fəaliyyətinin müharibənin müddətinə təsiri ilə bağlıdır. Əgər İsveçrə bankları qızıl əməliyyatlarını dayandırsaydı, Almaniyanın strateji xammal almaq imkanı 1943-1944-cü illərdə kəskin şəkildə məhdudlaşacaqdı. İsveçrənin dəmir yollarının alman hərbi tranziti üçün açıq olması Şimali İtaliya cəbhəsində nasist müqavimətinin daha uzun sürməsinə birbaşa töhfə vermişdi. Komissiya aşkar etdi ki, İsveçrə bankları təkcə Almaniya ilə deyil, həm də fərdi nasist rəsmiləri ilə də əməkdaşlıq ediblər. Müharibədən sonra banklar ölmüş yəhudilərin hesablarını "varisləri tapılmır" bəhanəsi ilə onilliklər boyu dondurub saxlamış və bu vəsaitlərdən öz daxili dövriyyələrində istifadə etmişlər. Bergier Komissiyasının işi İsveçrə cəmiyyətində böyük şok yaratdı. Uzun illər özünü "humanitar yardım mərkəzi" (Qırmızı Xaç və s.) kimi görən ölkə, öz keçmişinin qaranlıq maliyyə üzü ilə qarşılaşmalı oldu.

İsveçrənin təbii resursları, demək olar ki, yox səviyyəsində idi. Ölkənin elektrik enerjisi və isidilməsi tamamilə Almaniyadan gələn kömürdən asılı idi. Almaniyaya yüksəkdəqiqlikli saat mexanizmləri, optik cihazlar, zenit topları və alüminium göndərilirdi. Əvəzində Almaniya İsveçrəyə sənayesini ayaqda saxlamaq üçün hər ay yüz minlərlə ton kömür və polad satırdı. İsveçrənin maşınqayırma nəhəngləri nasist Almaniyasının hərbi arsenalını birbaşa gücləndirirdi. Bu toplar müharibənin ən effektiv zenit silahlarından sayılırdı və Almaniya tərəfindən geniş istifadə olunurdu. Almaniyanın öz sənayesi kütləvi istehsala yönəldiyi halda, İsveçrə daha mürəkkəb, mikroskopik dəqiqlik tələb edən komponentləri təmin edirdi.

İsveçrənin ən böyük rıçaqı və eyni zamanda təhlükəsi onun coğrafi mövqeyi idi. Almaniya ilə İtaliya arasındakı ən qısa təchizat yolu İsveçrə Alp dağlarından keçirdi. İsveçrə bu tunelləri açıq saxlamaqla Almaniyanın cənub cəbhəsini (İtaliya) təchiz etməsinə şərait yaradırdı. Bunun müqabilində isə müstəqilliyini "sığortalayırdı". Müharibənin ortalarında İsveçrənin ümumi ixracatının təxminən 60 faizdən çoxu birbaşa Berlin-Roma oxu ölkələrinə yönəlmişdi. İsveçrə üçün bu əməkdaşlıq həm işğaldan qaçmaq üçün bir vasitə, həm də böyük qazanc mənbəyi idi. Lakin bu "neytrallıq" müttəfiq dövlətlər tərəfindən kəskin tənqid olunurdu və müharibədən sonra İsveçrənin beynəlxalq nüfuzuna ciddi zərbə vurdu. Göründüyü kimi, İsveçrənin "neytrallığı" maskası tarixin sınaq anlarında iqtisadi maraqların və siyasi konyunkturanın rənginə boyanır. Dünən nasist qızılları ilə iqtisadiyyatını bərkidən, qurbanların fəryadına qapılarını bağlayan Bern bu gün Cənubi Qafqazda real sülhə mane olmaqla, əslində, öz qaranlıq keçmişinə işıq tutur. Lakin unudulmamalıdır ki, tarixin yaddaşı bank seyflərindən daha dərindir və ədalət gec-tez bütün "neytral" pərdələri yırtıb atır. Bakı artıq köhnə dünyanın bu cür "ikili oyunlarını" qəbul etmir və regionda yeni reallığı məhz öz gücü ilə diktə edir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumu xüsusi əhəmiyyət daşıyır

**"Ümumdünya Şəhərsalma Forumu indiyədək 12 müxtəlif ölkə və şəhərdə keçirilib. İndi isə biz Bakıda təşkil olunacaq forum ərəfəsindəyik. Sonuncu forum Misirdə olub".**



AZƏRTAC xəbər verir ki, bunu Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasına (WUF13) hazırlıq prosesinə həsr olunmuş mətbuat konfransında BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Qlobal Bilik və Təbliğat Bölməsinin direktoru Edlam Yemeru deyib.

O qeyd edib ki, Ümumdünya Şəhərsalma Forumu, həqiqətən də, qlobal və inklüziv platformadır. Bu forum artıq şəhərsalma sahəsində dünyanın aparıcı beynəlxalq müzakirə məkanına çevrilib. Burada dünyanın bütün maraqlı tərəfləri - hökumətlər, beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyəti institutları və xüsusilə özəl sektor bir araya gəlir. Bu isə dövlət və özəl sektor arasında əməkdaşlığın daha da möhkəmlənməsinə şərait yaradır.

"Bakıda keçiriləcək forum xüsusi əhəmiyyət daşıyır. Çünki hazırda qlobal miqyasda məskunlaşma böhranı getdikcə daha kəskin xarakter alır. Məhz bu təcili çağırışlar fonunda WUF13-ün Bakıda təşkili olduqca vacibdir. Eyni zamanda Bakıda keçiriləcək forum növbəti 10 ilin şəhərsalma gündəliyinin formalaşmasına mühüm təsir göstərəcək. Tədbirdə insanlar üçün layiqli və əlçatan yaşayış yerlərinin təmin olunması məsələlərinə xüsusi diqqət yetiriləcək. Əsas məqsəd qlobal məskunlaşma probleminin həllinə töhfə verməkdir", - deyə Edlam Yemeru bildirib.

# Azərbaycan-Türkiyə strateji müttəfiqliyi siyasi və iqtisadi baxımdan daha da dərinləşəcək

**"Əlaqələri strateji müttəfiqlik səviyyəsində olan iki qardaş ölkə - Azərbaycan və Türkiyə arasında münasibətlərin əsasını qarşılıqlı etimad, ortaq tarix və ortaq geosiyasi maraqlar təşkil edir".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Kocaeli Heydər Əliyev Mədəniyyət Mərkəzinin idarə heyətinin üzvü, türkiyəli siyasi ekspert Mehmet Seven bildirib.

Onun sözlərinə görə, 2021-ci ildə imzalanmış "Şuşa Bəyannaməsi" Azərbaycan-Türkiyə əlaqələrini rəsmi şəkildə müttəfiqlik səviyyəsinə yüksəltdi.

"Bu sənəd təkcə siyasi bəyanat deyil, həm də təhlükəsizlik, müdafiə, iqtisadiyyat və regional əməkdaşlıq sahələrində konkret fəaliyyət mexanizmlərini müəyyənləşdirən yol xəritəsidir. İki ölkə arasında siyasi dialoqun yüksək səviyyədə olması iqtisadi əməkdaşlığa da birbaşa müsbət təsir göstərir. Türkiyə hazırda Azərbaycan iqtisadiyyatına ən çox investisiya yatıran ölkələrdən biridir və qarşılıqlı investisiya portfeli milyardlarla dollarla ölçülür. Enerji, tikinti, sənaye, nəqliyyat-logistika və kənd təsərrüfatı sahələrində həyata keçirilən birgə layihələr iki ölkənin iqtisadi inteqrasiyasını daha da dərinləşdirir", - deyə o əlavə edib.

M.Seven enerji sahəsində əməkdaşlığı xüsusi qeyd edib. Bildirib ki, Bakı-Tbilisi-Ceyhan və TANAP kimi qlobal əhəmiyyətli layihələr Azərbaycan ilə Türkiyə arasında strateji tərəfdaşlığın real nəticəsidir: "Bu layihələr təkcə iki ölkəyə deyil, bütövlükdə Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verir və regionun geoiqtisadi əhəmiyyətini artırır. Nəqliyyat və logistika sahəsində Orta dəhliz çərçivəsində əməkdaşlıq da xüsusi əhəmiyyət daşıyır. Azərbaycan ərazisindən keçən tranzit marşrutlar Türkiyənin Avropa ilə Asiya arasında körpü rolunu daha da gücləndirir. Bu isə regionda yeni iqtisadi imkanlar yaradır və Cənubi Qafqazın beynəlxalq ticarət sistemində mövqeyini möhkəmləndirir".

Mehmet Seven qeyd edib ki, müdafiə sənayesi sahəsində əməkdaşlıq əlaqələrin strateji xarakterini nümayiş etdirir.

"Birgə hərbi təlimlər, texnologiya mübadiləsi və müdafiə sənayesi sahəsində ortaq layihələr iki ölkənin təhlükəsizlik arxitekturasını daha da gücləndirir. Azərbaycan-Türkiyə münasibətləri artıq klassik ikitərəfli əməkdaşlıq çərçivəsindən çıxaraq regional sabitliyin və türk dünyasında inteqrasiyanın əsas dayaqlarından birinə çevrilib. Bu strateji tərəfdaşlıq qarşıdakı illərdə həm siyasi, həm də iqtisadi baxımdan daha da dərinləşəcək", - deyə türkiyəli ekspert fikrini tamamlayıb.

# Azərbaycanda süni intellekt əsaslı kibertəhlükəsizlik həllərinin tətbiqi genişlənir

**"Azərbaycanda dövlət və özəl sektorda süni intellekt əsaslı kibertəhlükəsizlik həllərinin tətbiqi mərhələli şəkildə genişlənir. Bir sıra qurumlar bu texnologiyalardan artıq istifadə edir, digərləri isə pilot layihələr və test mərhələləri çərçivəsində həllərin effektivliyini qiymətləndirir".**




Bu barədə AZƏRTAC-a məxsusi açıqlamasında "ESET" şirkətinin Azərbaycan üzrə ölkə direktoru Mustafa İpek deyib.

Mustafa İpek bildirib ki, "ESET" şirkəti kibertəhlükəsizlik sahəsində süni intellekt və insan təcrübəsinə əsaslanan yanaşmanı 1997-ci ildən etibarən məhsullarında tətbiq edir və bu gün də həmin yanaşma daha da təkmilləşdirilir.

Mustafa İpek qeyd edib ki, süni intellektin populyarlığının artması bazarda həllərin sayını çoxaltsa da, keyfiyyət baxımından ciddi fərqlər mövcuddur: "İstifadəçilər yalnız adında süni intellekt var deyə məhsul seçməməlidirlər. Həllərin real sınaqlardan keçməsi, etibarlı vendor tərəfindən təqdim olunması və uzunmüddətli təcrübəyə söykənməsi əsas meyardır".

Şirkət rəsmisi vurğulayıb ki, Azərbaycanda qurumlar üçün əsas çağırışlardan biri süni intellekt texnologiyalarının təhlükəsiz tətbiqidir. Onun sözlərinə görə, hazırda "ESET"in süni intellekt əsaslı sistemləri, əsasən, hadisələri analiz edir və son qərarın insan tərəfindən verilməsinə imkan yaradır: "Tam avtonom qərarvermə modellərinə keçid risklər yarada bilər. Süni intellekt bəzən yanlış nəticələr çıxara və səhv qərarlar verə bilər. Buna görə də insan nəzarəti vacibdir".

Mustafa İpek qeyd edib ki, süni intellekt əsaslı kibertəhlükəsizlik həllərinin bir qismi yüksək hesablama gücü və enerji sərfi tələb etdiyindən maliyyə baxımından da əlavə yük yaradır. Bu isə xüsusən böyük infrastruktur qurmaq istəyən təşkilatlarda ehtiyatlı yanaşma formalaşdırır. Bununla belə, o, Azərbaycanda qurumların texnoloji yeniliklərə marağının artdığını, bir çox təşkilatın artıq bu sahədə aktiv araşdırmalar apardığını və mərhələli tətbiqə başladığını bildirib.

Mustafa İpekin sözlərinə görə, ölkədə adları açıqlanmayan bir sıra qurumlar artıq "ESET"in süni intellekt əsaslı həllərindən istifadə edir və əldə olunan ilkin nəticələr kibertəhlükəsizlik səviyyəsinin gücləndirilməsinə müsbət təsir göstərir.

Milli Məclisin iclasında

# Azərbaycan geosiyasi mövqeyini daha da möhkəmləndirib

Fevralın 27-də parlamentin spikeri Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasın gündəliyi qəbul edildikdən sonra cari məsələlərin müzakirəsi aparılıb. Müzakirələr zamanı çıxış edən komitə sədrləri Hicran Hüseynova, Zahid Oruc, Siyavuş Novruzov, deputatlar Ceyhun Məmmədov, Vüqar Bayramov, Qüdrət Həsənquliyev, Tural Gəncəliyev, Hikmət Məmmədov, Əziz Ələkbərov, Pərvanə Vəliyeva, Aydın Mirzəzadə gündəmdə olan mövzular barədə fikirlərini bölüşüblər.

Deputatlar Xocalı soyqırımının 34-cü ildönümünün qeyd olunduğunu, Xocalı faciəsi qurbanlarının xatirəsinin ehtiramla yad edildiyini deyərək, 26 fevral 2026-cı ilin müasir tariximizə, eyni zamanda mənəvi qələbənin və ədalətin bərqərar edildiyi gün kimi daxil olduğunu bildiriblər. Vurğulanıb ki, həmin gün Xocalı şəhərində ucaldılmış Xocalı Soyqırımı Memorialının açılışında iştirak edən ölkə Prezidenti İlham Əliyevin nitqi dövlətimizin son 30 ildə keçdiyi uğurlu yola bir baxış və gələcək hədəflərini ehtiva edən, Azərbaycanın həm hərbi-siyasi qüdrətinin, həm də mənəvi bütövlüyünün dünyaya ünvanlanmış qətiyyətli bəyanat idi. Diqqətə çatdırılıb ki, Prezidentin çıxışında bu kompleksin məhz Xocalıda ucaldılmasının simvolik əhəmiyyət daşıdığı qeyd olunub. Bununla yanaşı, bildirilib ki, Heydər Əliyev Fondunun illərlə apardığı "Xocalıya ədalət!" kampaniyası bu gün Xocalıda ucaldılmış bu abidə vasitəsilə öz mənəvi zirvəsinə yüksəlib.

Bildirilib ki, dövlət başçısının Xocalı Soyqırımı Memorialının açılışındakı çıxışında qeyd etdiyi uğurlar, eyni zamanda Azərbaycanın iqtisadi sahədə əldə etdiyi nailiyyətlərdə öz əksini tapıb. Vurğulanıb ki, İlham Əliyevin rəhbərliyi dövründə ölkə iqtisadiyyatı 4 dəfə böyüyüb. İqtisadi islahatların dərinləşməsi, Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması, davamlı məskunlaşma prosesi Azərbaycanın gücünü bir daha təsdiq edir.

Çıxışlarda qeyd olunub ki, Azərbaycan xalqının tarix boyu məruz qaldığı qətliamlara baxmayaraq, bu cəhdlər millətimizin iradəsini qıra, haqlı yolundan döndərə bilməyib. Hazırda dünyada həll olunmamış bir çox münaqişələrin mövcud olduğu, Azərbaycanın öz əzəli torpaqlarını işğaldan azad etmiş, suverenliyini tam təmin etmiş yeganə dövlət olduğu söylənilib. Artıq hərbi cinayətkarlar məhkəmə qarşısında cavab verərək, layiqli cəzalarını alıblar. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan öz geosiyasi mövqeyini daha da möhkəmləndirib, regionun güclü dövlətinə çevrilib. Prezidentimiz Azərbaycanın maraqlarını dünyada qoruyur. Müxtəlif ölkələrin liderləri, siyasi xadimlər Azərbaycan Prezidenti, onun siyasi fəaliyyəti barədə yüksək fikirlər söyləyir, təqdir edirlər. Xalqımız dövlət başçımızın rəhbərliyi ilə qısa zamanda bütün hədəf və məqsədlərinə nail olacaq.

Sonra plenar iclasın gündəliyində olan məsələlərin müzakirəsi keçirilib.



Milli Məclisin Sədri Sahibə Qafarova ilk 6 məsələnin üçüncü oxunuşda qanun layihələri olduğunu bildirib.

Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu "Kinematoqrafiya haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair (üçüncü oxunuş) məlumat verib. Layihədə kino istehsalı sahəsində hüquqi tənzimləmənin müasir beynəlxalq təcrübəyə uyğunlaşdırılması, anlayışların dəqiqləşdirilməsi və dövlət dəstəyinin institusional mexanizmlərinin genişləndirilməsi, habelə investisiya cəlbediciliyinin artırılmasına xidmət edəcək dəyişikliklər nəzərdə tutulub.

Deputat Aqil Abbasov bəzi fikirlərini səsləndirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Qanun layihəsi cərimənin icrasında prioritet ardıcıllığın nəzərdən keçirilməsini, cərimənin ilk növbədə məhkumun əməkhaqqına və ya başqa qazancına yönəldilməsini, icra prosesinin operativliyinin artırılmasını təmin etmək məqsədilə hazırlanıb.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Mülki Məcəllədə və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Sənəddə dövlət mülkiyyətində olan hava limanlarının və aerodromların genişləndirilməsi və ya yeni hava limanlarının və aerodromların inşasının torpağın alınmasına əsas verən dövlət ehtiyacları siyahısına daxil edilməsi təklif olunur.

Parlamentin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev məsələ barədə rəhbərlik etdiyi komitənin rəyini açıqladıqdan sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" və "Əmək pensiyaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Qanun layihəsi sığortaolunanların sığortaçıda uçotunun yalnız FİN ilə aparılması ilə bağlı dəyişikliyi özündə ehtiva edir.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra üçüncü oxunuşda "Dövlət qulluğu haqqında" qanunda və digər qanunvericilik aktlarında dəyişikliklər edilməsi barədə" və "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" konstitusiya qanununun layihələri müzakirə olunub.

Müzakirələrdən sonra hər iki qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Diqqətə çatdırılıb ki, "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" konstitusiya qanununda dəyişiklik edilməsi barədə" konstitusiya qanununun layihəsi 6 aydan sonra ikinci səsverməyə çıxarılacaq.

Milli Məclisin spikeri gündəliyin növbəti 3 məsələsinin ikinci oxunuşda qanun layihələri olduğunu söyləyib.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamran Bayramov İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinin (ikinci oxunuş) mahiyyətini açıqlayıb. Qeyd edib ki, layihədə "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanunla qadağan edilmiş yerlərdə elektron siqaretlərin istifadəsi, idxalı, ixracı, istehsalı, topdan və ya pərakəndə satışı və ya satış məqsədilə saxlanılmasına görə inzibati məsuliyyətin müəyyən edilməsi təklif olunur.

Qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Layihədə su anbarlarında və ya sututarlarda toplanan çöküntülərin (qum, qum-çınqıl, gil), habelə tunellərin və ya keçidlərin tikintisi ilə əlaqədar yerin təkindən çıxarılan süxurların istifadəsinin yerin təkindən istifadənin növləri sırasına daxil edilməsi təklif olunur. Sənəddə habelə yer təkindən istifadə sahəsində bir sıra qaydaların təsdiq edilməsinin hüquqi əsasının yaradılması nəzərdə tutulur. Bununla yanaşı, qanuna yeni "Yerin təki sahələrinin rekultivasiyası" adlı 13-1-ci maddə əlavə olunur.

Təklif olunan dəyişikliklər yerin təkinin istifadəsi sahəsində hüquqi tənzimləmənin təkmilləşdirilməsinə, təbii ehtiyatlardan istifadə olunmasının səmərəliliyinin yüksəldilməsinə, ekoloji təhlükəsizliyə, ekoloji balansın qorunmasına, dağ-mədən fəaliyyəti nəticəsində yaranan tullantıların dövriyyəyə cəlb olunmasına və istismara cəlb olunan yer təki sahələrinin rekultivasiya tədbirlərinin sistemli aparılmasına xidmət edəcək.

Sənədin müzakirəsi zamanı deputat Vüqar Bayramov bəzi təkliflərini səsləndirib. Komitə sədri Sadiq Qurbanov qaldırılan məsələlərə münasibət bildirib.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov "Avtomobil nəqliyyatı haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı (ikinci oxunuş) məlumatı diqqətə çatdırıb. Qeyd edib ki, qanun layihəsi sərnişinlərin və yüklərin daşınmasında təhlükəsizlik səviyyəsinin yüksəlməsinə, keyfiyyətli xidmətin göstərilməsinə xidmət edir, müxtəlif sığorta hadisələri zamanı sığortaolunanların, xüsusilə zərərçəkən sərnişinlərin qorunmasına və onların həyatına və sağlamlığına zərər dəyməsinə görə sığorta təminatı yaradır.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin son iki məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu bildirib.

Sonra Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Qeyd olunub ki, qüvvədə olan qanunvericiliyə əsasən Mədəniyyət Nazirliyinin sisteminə daxil olan uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərində və digər bu qəbildən olan dövlət təhsil müəssisələrində çalışan təhsilverənlərin peşə yararlılığı attestasiya yolu ilə qiymətləndirilir. Mövcud təcrübədə attestasiya, əsasən şifahi formada keçirilir, nəticələr sənədləşdirilmiş protokollarla təsbit olunur, lakin qiymətləndirmə yazılı və test mexanizmləri əsasında aparılır. Qiymətləndirmə meyarlarının dəqiq olmaması subyektiv yanaşma riskini artırır, obyektivliyin və şəffaflığın tam təmin edilməsinə mane olur. Bununla yanaşı, şifahi attestasiya formasının təşkili əlavə maliyyə və inzibati yük yaradır, dövlət vəsaitindən səmərəli istifadə prinsipinə tam cavab vermir.

Bildirilib ki, təqdim olunan qanun layihəsinə əsasən, Mədəniyyət Nazirliyi sisteminə daxil olan yuxarıda qeyd edilən təhsil müəssisələrində çalışan təhsilverənlərin nəzəri bilikləri, təcrübəsi və peşə yararlılığı attestasiya yolu ilə deyil, Elm və Təhsil Nazirliyində tətbiq olunan mexanizmə uyğun olaraq, sertifikasiya imtahanı vasitəsilə qiymətləndiriləcək. Sertifikasiya imtahanının tətbiqi qiymətləndirilmə prosesinin şəffaflığını və obyektivliyini artıracaq, nəticələrin etibarlılığını təmin edəcək, həmin təhsil müəssisələrinin inkişafına və təhsilin keyfiyyət səviyyəsinin yüksəldilməsinə xidmət edəcək.

Əmək və sosial siyasət komitəsinin üzvü Nigar Məmmədova layihə barədə bu komitənin rəyini açıqlayıb. O qeyd edib ki, təklif olunan dəyişikliklər yalnız qiymətləndirmə prosedurunun yenilənməsi deyil, eyni zamanda təhsil sistemində şəffaflığın, sosial ədalətin və ictimai etimadın gücləndirilməsinə yönəlmiş mühüm addımdır. Bildirilib ki, şəffaf və ölçülə bilən sertifikatlaşdırma mexanizmi müəllimlərin fəaliyyətinin daha obyektiv qiymətləndirilməsinə imkan yaradacaq, subyektiv yanaşmanı azaldacaq, əmək münasibətlərində daha aydın və ədalətli qaydaların formalaşmasına xidmət edəcək. Deputat məsələyə təmsil etdiyi komitədə baxıldığını və müsbət rəy verildiyini diqqətə çatdırıb.

Deputatlar Fariz İsmayılzadə və Samir Vəliyev məsələ ilə bağlı fikirlərini səsləndirdikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İclasda Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair (birinci oxunuş) məlumat verib. Layihədə nəzərdə tutulan dəyişikliklərdə "mədəni və yaradıcı sənaye" anlayışı təsbit olunur və qanunun ayrı-ayrı maddələrində "mədəniyyət sənayesi" sözləri "mədəni və yaradıcı sənaye" sözləri ilə əvəz edilir.

Bununla yanaşı, qanuna yeni 45.4-cü maddənin əlavə edilməsi təklif olunur. Yeni maddədə mədəniyyət sahəsində layihələrin qrant maliyyələşdirilməsinin mədəniyyət xidmətlərinin, habelə mədəni və yaradıcı sənaye sahələrinin inkişafına və keyfiyyətinin artırılmasına yönəldilmiş innovativ fəaliyyət və tədqiqatların stimullaşdırılması, mədəniyyət müəssisələrinin infrastrukturunun inkişaf etdirilməsi, eləcə də mədəniyyət sahəsində maarifləndirmə məqsədilə "Qrant haqqında" qanuna uyğun olaraq həyata keçirilməsi təsbit edilir.

Müzakirələr zamanı parlamentin vitse-spikeri Rafael Hüseynov, komitə sədri Siyavuş Novruzov, deputatlar Erkin Qədirli, Qüdrət Həsənquliyev, Hikmət Məmmədov, Elçin Mirzəbəyli, Bəhruz Məhərrəmov çıxış edərək, dəyişikliklərin mahiyyəti və əhəmiyyəti ilə bağlı fikir və qeydlərini bölüşüblər.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisdə turizmin inkişaf perspektivlərinə dair ictimai dinləmə keçirilib



**Fevralın 27-də parlamentdə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin təşkilatçılığı ilə "Azərbaycanda turizmin mövcud vəziyyəti və inkişaf perspektivləri" mövzusunda ictimai dinləmə keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev dinləmənin keçirilməsi üçün göstərilən dəstəyə və yaradılan şəraitə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya təşəkkürünü bildirib.

Azərbaycanda turizmin müasir inkişafının Prezident İlham Əliyevin bu sahəyə qayğısı ilə bağlı olduğunu deyən Musa Quliyev ölkəmizdə turizmin inkişafı istiqamətində icra olunan infrastruktur layihələrindən, dövlət proqramlarından və qəbul olunan qanunvericilik bazasından danışıb. Qeyd olunub ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsləri ilə milli-mədəni irsin qorunması və təbliği layihələrinin həyata keçirilməsi, beynəlxalq mədəni-humanitar platformaların təşkili Azərbaycanın ölkə kimi tanıdılmasına və turizm brendinin güclənməsinə mühüm töhfələr verib.

Komitə sədri bildirib ki, Azərbaycanda turizm infrastrukturu ildən-ilə genişlənir və müasirləşir, həm daxili, həm də xarici turistlər üçün daha cəlbedici olur. Turizmin müxtəlif növləri, o cümlədən sağlamlıq, mövsümi, regional, mədəni və işgüzar turizm üzrə inkişaf müşahidə edilir. Qeyd olunub ki, Azərbaycanda hazırda turizm sektorunda 80 minə yaxın adam çalışır, lakin hesablamalar göstərir ki, turizmin inkişafı yaxın illərdə 450 mindən çox iş yerinin açılmasını dəstəkləyə bilər. O, dinləmədə aparılacaq müzakirələrin uğurlu və faydalı olacağına inamını ifadə edib.

Sonra Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev çıxış edərək, Azərbaycanda turizmin inkişafı istiqamətində həyata keçirilən dövlət siyasətindən, ölkəyə səyahətin asanlaşdırılması tədbirlərindən bəhs edib. Agentliyin sədri çıxışında son dövrlərdə ölkəmizin gəlmə turizmi üzrə statistik göstəricilərinin müsbət dinamikasını diqqətə çatdırıb. Qeyd olunub ki, 2025-ci ildə turizm sektorunun iqtisadiyyatda payı ilk dəfə 5,3 faizə yüksəlib. Sürətli böyümə dinamikası bu sahə üzrə yeni iş yerlərinin yaradılması meyillərini dəstəkləyib. Artan göstəricilər onu deməyə əsas verir ki, Azərbaycanın turizm sektoru davamlı inkişafını qoruyur və qeyri-neft iqtisadiyyatının strateji dayaqlarından birinə çevrilir. Fuad Nağıyev turizm sektorunun qarşılaşdığı bir sıra çağırışların və aktual məsələlərin həlli ilə bağlı nəzərdə tutulan tədbirləri diqqətə çatdırıb.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov Azərbaycanda turizmin, xüsusən sağlamlıq və istirahət turizminin inkişafı potensialından söz açıb. O vurğulayıb ki, ölkənin zəngin təbii resursları, iqlim müxtəlifliyi, müalicəvi suları, tarixi və mədəni irsi, eləcə də qonaqpərvərlik ənənələri bu sahənin genişlənməsi üçün möhkəm zəmin yaradır. O, son illər Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında aparılan institusional islahatlardan, idarəetmənin təkmilləşdirilməsi, infrastrukturun müasir tələblərə uyğunlaşdırılması və göstərilən xidmətlərin yüksəldilməsi ilə bağlı görülən işlərdən danışıb.

Sonra Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü Göydəniz Qəhrəmanov "Azərbaycanda turizmin müasir inkişaf mərhələsi:infrastruktur və hüquqi mexanizmlər" mövzusunda təqdimatla çıxış edib.

Göydəniz Qəhrəmanov Azərbaycanda turizm sahəsində aparılan institusional islahatlardan, həyata keçirilən infrastruktur layihələrindən söz açaraq qeyd edib ki, beynəlxalq tanıtım tədbirləri, xidmət keyfiyyətinin yüksəldilməsi və turizm məhsullarının şaxələndirilməsi Azərbaycanın bu sahədə rəqabət qabiliyyətini gücləndirsə də, qiymət, aviasiya, logistika və mövsümiliklə bağlı məsələlər əlavə diqqət tələb edir. O, turizmin davamlı inkişafı üçün aviasiya və dəmir yolu infrastrukturunun təkmilləşdirilməsi, mövsümi asılılığın azaldılması, regionlarda tematik turizm məhsullarının yaradılması, daxili turizmin stimullaşdırılması kimi məsələlərlə bağlı fikirlərini bölüşüb, təkliflərini səsləndirib.

Dinləmədə "Azərbaycanda turizmin inkişaf perspektivləri" mövzusunda təqdimatla çıxış edən Dövlət Turizm Agentliyinin şöbə müdiri Günay Bayramova slaydlar vasitəsilə ölkəmizdə turizmin inkişafına mane olan amillər və onların aradan qaldırılması yolları barədə danışıb.

Tədbirdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının hazırladığı videoçarx da nümayiş etdirilib. Tədbir iştirakçıları videoçarx vasitəsilə Azərbaycan ərazisində fəaliyyət göstərən müalicə, sağlamlıq və istirahət mərkəzlərində yaradılmış şərait və müalicə prosedurları ilə tanış olublar.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov ölkəmizdə tibbi turizmin inkişaf etdirilməsinin vacibliyini qeyd edib. Komitə sədri müasir dövrdə tibbi turizmin əhəmiyyəti barədə fikirlərini bölüşüb, Azərbaycanda bu sahənin inkişafı üçün geniş imkanların olduğunu diqqətə çatdırıb. O, ölkəmizdə tibbi turizmin inkişafı üçün tədbirlər planının hazırlanmasının vacibliyindən danışıb, həmçinin bunun üçün Azərbaycanda fəaliyyət göstərən klinikaların beynəlxalq akkreditasiyadan keçməli olduğunu qeyd edib.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu turizmi mədəniyyətin bir parçası kimi xarakterizə edib. O, turizm sahəsinin Azərbaycan üçün böyük əhəmiyyət kəsb etdiyini və torpaqlarımızın işğaldan azad olunmasından sonra həmin ərazilərdə tikilən hava limanlarının, hotellərin, yaradılan infrastrukturun da turizmin inkişafına xidmət etdiyini bildirib. Komitə sədri çıxışında ölkəmizdə mətbəx turizminin inkişaf perspektivləri barədə fikirlərini bölüşüb.

Əmək və sosial siyasət komitəsi sədrinin müavini Elşad Musayev, deputatlar Nigar Məmmədova, Əli Məsimli, Jalə Əliyeva,Vüqar Bayramov, Azər Allahverənov, Xarici İşlər Nazirliyinin Konsulluq İdarəsinin rəisi Emil Səfərov, Azərbaycan Turizm Bələdçiləri Assosiasiyası sədri Tural Musayev, Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyasının sədri Ruslan Quliyev, "Kurort" QSC baş direktoru Çingiz Hacıyev, "Luna Travel" turizm şirkətinin rəhbəri Rəhman Quliyev, Dövlət Turizm Agentliyinin sədr müavini Azadə Hüseynova ölkəmizdə turizmin inkişaf perspektivləri barədə qeyd və təkliflərini bildiriblər.

***"Azərbaycan"***

# İnsan hüquqları komitəsində ombudsmanın illik məruzəsi dinlənilib

**Fevralın 27-də Milli Məclisin İnsan hüquqları komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Zahid Oruc bildirib ki, gündəliyə bir məsələ - Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2025-ci il üzrə məruzəsi daxil edilib.**

Qeyd olunub ki, ombudsmanın müzakirəyə təqdim olunan məruzəsində bildirilir ki, 2025-ci il ölkəmiz üçün milli və beynəlxalq səviyyədə baş verən mühüm proseslərlə yadda qalıb. Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun 30-cu və Vətən müharibəsində qələbənin 5-ci ildönümü münasibətilə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi dövlətçilik ənənələrinin möhkəmləndirilməsi, hüquqi dövlət quruculuğunun yeni mərhələyə yüksəldilməsi, ölkənin beynəlxalq nüfuzunun daha da artırılması baxımından strateji əhəmiyyət kəsb edir. Bu təşəbbüsün həmçinin qanunun aliliyinin və suverenlik dəyərlərinin təbliğinə və təşviqinə xidmət etdiyi diqqətə çatdırılıb.

Ötən il dövlət başçısı tərəfindən irəli sürülmüş təşəbbüslə qəbul edilmiş və 20 mindən çox insanı əhatə edən Amnistiya qərarının humanizm prinsiplərinə əsaslanan ən mühüm addımlardan biri olduğu vurğulanıb.

Sənədin tərtibatı, strukturu və məzmunu barədə danışan komitə sədri bildirib ki, burada müvəkkilin insan hüquqlarının qorunması sahəsində fəaliyyət istiqamətlərinin və öhdəliklərinin icra dinamikasını əks etdirən məlumatlar da öz əksini tapıb.

Zahid Oruc diqqətə çatdırıb ki, sənəddə ötən il ombudsmanın ünvanına vədəndaşlardan 42685 müraciətin daxil olduğu əks olunub. O, habelə 916 çağrı mərkəzinə il ərzində 14718 müraciətin daxil olduğunu deyib.

Məruzədə mülki hüquqlara dair, o cümlədən mənzil fondu ilə bağlı məsələlər - əmlak alqı-satqısı, qeydiyyatla bağlı məqamlar yer alıb.

Ombudsman təsisatının insanların taleyinə biganə qalmayaraq, Suriyada əsir düşərgələrində girovluqda saxlanılan vətəndaşlarımızın ölkəmizə qaytarılması məsələsini diqqətdə saxladığı qeyd olunub.

Nəzərə çatdırılıb ki, sağlamlığın qorunması hüququ ilə bağlı məruzədə əsasən həssas əhali qruplarının, uşaqların və əlilliyi olan şəxslərin tibbi xidmətlərə əlçatanlığı məsələlərinə geniş yer verilib, həmçinin bölgələrdə həkim çatışmazlığı ilə bağlı vəziyyətə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin nəticələri əsasında yanaşma təqdim olunub.

Məruzədə narkomaniya və toksikomaniya xəstələrinin sayının artması ilə bağlı məsələnin yer aldığı və bununla bağlı bəzi çətinliklərin olduğu qeyd edilib.

Sənədə Qərbi Azərbaycana qayıdış məsələsinin daxil edildiyi, beynəlxalq əməkdaşlıq sahəsində insan hüquqları üzrə müvəkkilin fəaliyyəti barədə ətraflı məlumat verildiyi vurğulanıb.

Məsələ ətrafında müzakirələrdə çıxış edən komitənin sədr müavini Arzuxan Əli-zadə, üzvləri Azər Allahverənov, Hikmət Məmmədov, Razi Nurullayev, Bəhruz Məhərrəmov, Vüqar Rəhimzadə, Mübariz Qurbanlı, Naqif Həmzəyev, Elman Nəsirov, Səyyad Aran, "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova, "Bakı Qeyri-Hökümət Təşkilatlarının Resurs və Təlim Mərkəzi" İctimai Birliyinin sədri Rauf Zeyni, "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev, Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədov, Milli QHT Forumunun İdarə Heyətinin sədri Ramil İsgəndərli, "XXI Əsrin Qadınları" İctimai Birliyinin sədri Mahirə Əmirhüseynova, "Azad İstehlakçılar" İctimai Birliyinin sədri Eyyub Hüseynov, "Netftçilərin Hüquqlarını Müdafiə Təşkilatı" İctimai Birliyinin sədri Mirvari Qəhrəmanova, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev, Parlament Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin İnsan hüquqları üzrə qanunvericilik sektorunun müdiri Sarvan Sadıqov öz fikirlərini bölüşüblər.

Çıxışlarda Ombudsman institutunun əmək və məşğulluq, sosial təminat, təhsil, sağlamlığın qorunması ilə bağlı hüquqların təmin edilməsi, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi, dezinformasiyaların qarşısının alınması üçün yeni mexanizmlərin tətbiq edilməsi, ictimai iştirakçılıq, hüquqi maarifləndirmə və digər sahələrdə gördüyü işlər təqdirəlayiq hesab edilib, bir sıra təkliflər səsləndirilib.

İclasda Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı səsləndirilən fikirlərə münasibət bildirib, qaldırılan bir sıra məsələlərə aydınlıq gətirib. Bildirilib ki, məruzədə əksini tapan 94 təklifdən 67-si yeni, 27-si isə öz aktuallığını hələ də qoruyub saxlayan təkliflərdir.

Aparat rəhbəri qərbi azərbaycanlıların hüquqlarının müdafiəsi və onların qayıdış hüququnun təmin olunması məsələsinin daim diqqət mərkəzində saxlanıldığını vurğulayıb.

Nəzərə çatdırılıb ki, bölgələrdə vətəndaşlarla səyyar qəbullar keçirilir və onların bir çoxunun problemləri yerində həll olunur.

Qeyd edilib ki, illik məruzədə məhkəmə qərarlarının icrası, o cümlədən alimentlə bağlı qərarların icrasında yaranan çətinliklər, Aliment Fondunun yaradılmasının zəruriliyi, eləcə də hüquqi yardımın göstərilməsi ilə bağlı məsələlərə toxunulub.

Sonda Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2025-ci il üzrə məruzəsi qənaətbəxş hesab olunub və Milli Məclisin plenar iclasına tövsiyə edilib.

***"Azərbaycan"***

# Təxribat cəhdləri və xəyanət ssenariləri iflasa məhkumdur

**Dünya siyasətində dəyişməz qaydalar var. Əgər bir dövlət öz milli hədəflərinə nə qədər qətiyyətlə addımlayırsa, onun qarşısına çıxarılan maneə ssenariləri də bir o qədər aqressivləşir. Azərbaycanın son illərdə qazandığı tarixi zəfərlər, regionun geosiyasi arxitekturasını yenidən qurması təkcə dostlarımızı sevindirmədi, həm də illərdir regionda xaosdan qidalanan dairələri yuxudan oyatdı. Fevralın 19-da Vaşinqtonun mərkəzində, dünyanın nəzərinin sülh və əməkdaşlıq dialoquna yönəldiyi bir məqamda baş verən hadisələr sadə "etiraz aksiyası" deyildi. Bu, Azərbaycanın artan nüfuzunu həzm edə bilməyən mərkəzlərin, daxili xəyanətkar ünsürlərlə erməni şovinizminin bir qazanda qaynadıldığı növbəti hibrid hücum cəhdi idi.**





Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ rəhbəri Donald Trampın təşəbbüsü ilə keçirilən Sülh Şurasının təsis iclasında iştirak etmək üçün Vaşinqtonda səfərdə olarkən dövlətimizin başçısının qaldığı "Waldorf Astoria" hotelinin qarşısında baş verənlər anti-milli qüvvələrin əsl simasını bir daha ortaya qoydu. Bir qrup azğınlaşmış simasızların mühafizə olunan xüsusi zonaya zorla daxil olmaq cəhdi və dövlətimizin başçısına qarşı qeyri-etik şüarlar səsləndirməsi ciddi təxribat olmaqla yanaşı, beynəlxalq təhlükəsizlik normalarına da tamamilə zidd addım idi. Təhlükəsizlik qüvvələrinin çevik müdaxiləsi nəticəsində asayiş qorundu, lakin bu cəhdin arxasında dayanan məqsədlər aydındır. Antimilli ünsürlərin qayəsi böyük beynəlxalq tədbir fonunda Azərbaycanın imicinə zərbə vurmaq, ölkəmiz əleyhinə qarayaxma kampaniyalarına start vermək idi.

Bəs sülhün və yeni qlobal nizamın müzakirə olunduğu bir vaxtda bu cür ucuz şoulara nə ehtiyac var idi? Kimlər bu prosesdə Azərbaycanın milli maraqlarını erməni lobbisinin maraqlarına qurban verirlər? Bu sualların cavabı aydındır. Ölkəmizə və dövlətimizin başçısına qarşı hücumların intensivləşməsi təsadüfi deyil və Azərbaycanın son bir ayda qazandığı tarixi uğurlarla birbaşa bağlıdır. Azərbaycanın qlobal təhlükəsizlik sistemində yeni mexanizm olan Sülh Şurasının təsisçilərindən biri kimi çıxış etməsi, Cənubi Qafqazın yeni geosiyasi xəritəsinin dizaynında əsas aktor rolunu möhkəmləndirməsi, ABŞ ilə Strateji Tərəfdaşlıq Xartiyasının imzalanması və müharibə canilərinin ədalət qarşısına çıxarılması reallıqlarını qəbul etməyən qərəzli dairələri ciddi təşvişə salıb.

Çünki Azərbaycanın qlobal təhlükəsizlik arxitekturasında yeni bir mexanizm olan Sülh Şurasının təsisçi üzvü kimi çıxış etməsi Bakının təkcə regional deyil, dünya miqyaslı qərarların qəbulunda söz sahibi olduğunu təsdiqləyir.

Cənubi Qafqazın yeni sülh və əməkdaşlıq modelinin dizaynında Azərbaycanın öz mövqeyini möhkəmləndirməsi regionda onilliklərdir davam edən xaos ssenarilərini iflasa uğratdı. Üstəlik, dünyanın super gücü ABŞ ilə imzalanan Strateji Tərəfdaşlıq Xartiyası Azərbaycanın xarici siyasətində yeni bir mərhələ açmaqla bərabər, qərəzli dairələrin ölkəmizi təcrid etmək cəhdlərini boşa çıxardı. Müharibə canilərinin bir-bir ədalət qarşısına çıxarılması və hüquqi cəzalarını almaları separatizmin və işğalçılığın mənəvi-siyasi sütunlarını birdəfəlik məhv etdi. Məhz bu reallıqlar, yəni Azərbaycanın diktə edən tərəfə çevrilməsi və ədaləti bərpa etməsi müəyyən dairələri çıxılmaz vəziyyətə saldı. Onlar artıq klassik diplomatik vasitələrlə Azərbaycana təsir edə bilmədikləri üçün ən çirkin üsullara, şantaj, informasiya terroru və koordinasiyalı təxribatlara əl atırlar. Lakin unudurlar ki, Azərbaycanın milli iradəsi və dövlətçilik sütunları bu cür primitiv oyunlardan qat-qat güclüdür.

Hadisələrin gedişatı sübut edir ki, Vaşinqtondakı məlum aksiya xarici mərkəzlərdən idarə olunan sinxron fəaliyyətdir. ABŞ-dəki erməni lobbisinin əsas dayaq nöqtəsi olan Amerika Erməni Milli Komitəsinin (ANCA) bu aksiyanı dərhal "haqq səsi" kimi qələmə verməsi prosesin hansı mənbədən qidalandığını göstərir. Azərbaycanın qatı düşməni, bədnam 907-ci düzəlişin və sanksiya siyasətinin müəllifi olan Frank Pallonenin bu prosesə qoşulması da təxribatın siyasi arxa planını tamamlayır. Uzun illərdir erməni lobbisinin maraqlarını təmsil edən bu şəxsin təxribatçı tör-töküntüləri dəstəkləməsi onların eyni cəbhədə birləşdiyini təsdiqləyir.

ABŞ-dəki erməni lobbisinin ən radikal qolu sayılan ANCA illərdir Azərbaycanın regiondakı hər bir uğurunu qaralamaq üçün fürsət axtarır və həmin fürsəti tapan kimi dərhal klassik manipulyasiya texnologiyalarını işə salır. Pallone isə məlum olduğu kimi, bədnam 907-ci düzəlişin, Azərbaycanı ən ağır dövrlərində blokadaya salmaq məqsədilə qəbul edilən sənədin müəlliflərindən biridir. Vaxtilə Qarabağa qanunsuz səfərlər edərək separatizmi alqışlayan bir fiqurun "insan haqları"ndan danışması riyakarlığın zirvəsidir. Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsini həzm edə bilməyən Pallone təxribatçılar vasitəsilə ABŞ-nin rəsmi dairələrində anti-Azərbaycan rəyi formalaşdırmağa çalışır. Hədəf birbaşa Azərbaycan dövlətinin suverenliyi və beynəlxalq nüfuzudur.

Birmənalı olaraq Azərbaycan Respublikasının Prezidentinə qarşı yönəlmiş hər hansı təxribat cəhdi mahiyyət etibarilə dövlətin suverenliyinə qəsd kimi qiymətləndirilməlidir. Ölkə rəhbəri Azərbaycanın beynəlxalq simasıdır. Dövlətimizin başçısının nüfuzuna və ya fəaliyyətinə qarşı atılan hər bir aqressiv addım birbaşa vətənimizə qarşı yönəlmiş sayılır. Hadisənin ən rəzil tərəfi odur ki, bu ünsürlər dünyanın heç bir yerində əliqanlı Robert Koçaryana, Serj Sarkisyana, Azərbaycanı təhdid edən qüvvələrə qarşı etiraz səslərini qaldırmayıblar. Lakin ölkənin ali rəhbərinə qarşı ən çirkin üslubda həyasızcasına hücuma cəhd ediblər.

Bu olay bir daha nümayiş etdirdi ki, özünü "müxalifət" adlandıran bəzi dağıdıcı ünsürlər üçün milli dəyərlər və dövlət maraqları heç bir əhəmiyyət kəsb etmir. Onların ölkəmizə qarşı düşmən mövqedə dayanan dairələrlə, erməni şovinistləri ilə eyni platformadan çıxış etmələri bu fəaliyyətin "söz azadlığı" ilə deyil, birbaşa dövlətçiliyə qarşı xəyanətlə bağlı olduğunu isbatlayır. Azərbaycan əleyhinə fəaliyyət göstərən daxili ünsürlərin erməni şovinist dairələri ilə eyni cərgədə yer alması onların siyasi kimliyini tamamilə itirdiyini, milli mənsubiyyəti olmayan xəyanətkar məxluqlara çevrildiklərini göstərir. Bu, artıq siyasi mübarizə deyil, birbaşa milli maraqlara qarşı düşmən cəbhəsidir.

Sosial şəbəkələrdə yayılan görüntülərdən aydın olur ki, etirazların qayəsi yalnız hay-küy qoparmaq deyil, birbaşa dövlətimizin başçısının təhlükəsizliyini hədəf almaq, Azərbaycana qarşı aşkar qərəz nümayiş etdirməkdir. Şübhəsiz, bu ünsürlər demokratik dəyərləri, sərbəst toplaşmaq hüququnu tərənnüm etmirlər. Onlar birbaşa kənar dairələrin siyasi diktəsi ilə fəaliyyət göstərən, öz dağıdıcı mövcudluqlarını dövlətçilik əleyhinə düşmənçilik üzərində quran təxribatçı, qanları xarab, marginal qruplaşmalardır.

Diqqətçəkən məqam odur ki, bu təxribatlar Ermənistanla yekun sülh sənədinin imzalanması ərəfəsinə təsadüf edir. Regionda qalıcı sabitliyin bərqərar olmasını istəməyən revanşist dairələr gərginliyi artırmaq və konstruktiv dialoqu pozmaq üçün fəallaşıblar. Fərqindədirlər ki, Azərbaycanın sülh təşəbbüsləri onların illərdir bəhrələndiyi xaos və münaqişə mühitini darmadağın edir. Azərbaycan dövləti özünün güclü idarəçilik ənənəsi və prinsipial kursu ilə bu cür çirkin planları dəfələrlə alt-üst edib.

Azərbaycanın sülh və əməkdaşlıq naminə atdığı addımları kölgələmək istəyən bu zərərli qüvvələr növbəti dəfə iflasa məhkum oldular. Vaşinqtondakı insident zamanı qanunsuz hərəkətlərə yol verən şəxslərin ABŞ polis qüvvələri və Prezidentin təhlükəsizlik xidməti tərəfindən dərhal zərərsizləşdirilməsi hüququn və təhlükəsizlik qaydalarının hər bir demokratik cəmiyyətdə sarsılmaz olduğunu bir daha təsdiqlədi. Bu müdaxilə həm də ondan xəbər verdi ki, qondarma "siyasi fəallıq" adı altında törədilən cinayət xarakterli təxribatlara dünyanın heç bir yerində tolerantlıq nümayiş etdirilmir.

Tarixin hər mərhələsi sübut edib ki, bir dövlətin ən böyük gücü xalq ilə rəhbər arasındakı sarsılmaz bağ və etimaddır. Öz gələcəyini xarici paytaxtların siyasi dəhlizlərində axtaranlar daim bu birliyi zədələməyə çalışıblar. Ancaq xarici güclərin əlində oyuncağa çevrilən, milli maraqlarını qrantlara və siyasi sığınacaqlara dəyişən ünsürlər üçün yolun sonu hər zaman eynidir. Öz ölkəsinə və xalqına qarşı çıxanlar heç vaxt cəmiyyət tərəfindən qəbul edilmir. Bu qruplar nəinki siyasi legitimlikdən məhrum olurlar, həm də xalqın dərin nifrəti ilə üzləşirlər. Çünki milli hisslərə yad olanlar, öz dövlət başçısının nüfuzuna kölgə salmağa çalışan marginal qruplar heç vaxt xalqın etimadını qazana bilməz. Azərbaycan xalqı dövlətçilik ənənələrinə sadiqdir.

Xalqımız yaxşı anlayır ki, dövlət rəhbərini hədəf alanlar, əslində, Azərbaycanın suverenliyini və əldə etdiyi tarixi qələbələri hədəf alırlar. Buna görə də, bu cür təxribatçılar cəmiyyətdə hər zaman yad ünsür kimi qəbul edilirlər. Xarici sifarişlə öz vətəninə qarşı çıxanlar tarixin tozlu səhifələrində hər zaman satqınlıq simvolu kimi qalırlar. Dünən olduğu kimi, bu gün də xəyanət ssenariləri xalqın birliyi qarşısında darmadağın olur. Heç bir koordinasiyalı hücum, heç bir informasiya terroru Azərbaycanın sülh və inkişaf yolundakı qətiyyətini sarsıda bilməz. Çünki bu yol milli maraqlara, güclü liderliyə və xalqın sarsılmaz dəstəyinə söykənir. Dövlətçiliyə və milli bütövlüyə qarşı yönələn hər bir addım ifşaya və iflasa məhkumdur. Azərbaycan dövlətinin gücü və xalqın sarsılmaz birliyi bu cür antimilli layihələrin həmişə qarşısını alacaq. Bu uğursuz təxribat cəhdi Azərbaycanın beynəlxalq nüfuzuna xələl gətirə bilmədi, əksinə, düşmən şəbəkəsinin və onların yerli əlaltılarının acizliyini bir daha dünyaya nümayiş etdirdi.

Siyasi masada məğlub olanların fərdi müstəviyə keçərək ailə dəyərlərini hədəf alması onların mənəvi iflasının bariz sübutudur. Lakin unudurlar ki, Azərbaycan xalqı üçün ailə müqəddəsdir və bu cür iyrənc kampaniyalar cəmiyyəti sarsıtmaq əvəzinə, onu öz lideri ətrafında daha sıx və polad iradə ilə birləşdirir. Dövlətimiz xaricdən idarə olunan manqurtların şoularına qarşı siyasi immunitetə malikdir. Öz vətəninə qəsd edənlər bilməlidirlər ki, milli maraqlara xəyanətin sonu hər zaman mənəvi və siyasi intihardır. Bu cür ucuz təxribatlar və informasiya küyü bir daha təsdiqləyir ki, Azərbaycanın "dəmir yumruğ"u təkcə döyüş meydanında deyil, həm də diplomatik masada və milli iradə müstəvisində öz qüdrətini qoruyur.

Azərbaycan xalqı cənab İlham Əliyevin rəhbərliyi ilə uzaqgörən və milli mənafelərə söykənən daxili-xarici strategiyanı tam mütəşəkkilliklə dəstəkləyir. Dövlət başçısı müasir Azərbaycanın qüdrətlənməsini təmin edən, ölkəni dünya miqyasında nüfuz sahibinə çevirən lider kimi bu tarixi missiyanı qətiyyətlə yerinə yetirir. Həyata keçirilən praqmatik və strateji siyasət Azərbaycanın müstəqilliyini sarsılmaz edir. Məhz buna görə, heç bir kənar təzyiq və ya ucuz şou dövlətimizin iradəsini sındıra bilməz. Prezidentin sarsılmaz mövqeyi və xalqın sadiq dəstəyi ilə Azərbaycan sülh və inkişaf yolunda geri dönmədən irəliləməkdədir. Azərbaycan artıq regionda şərtləri diktə edən gücdür və bu reallığı dəyişmək cəhdləri mənasızdır.

*Ziyafət ƏSGƏROV,*
*Azərbaycan Respublikası*
*Milli Məclisi Sədrinin müavini*

# Xocalının dirçəlişi və ədalətin zəfəri

**Azərbaycan xalqı Xocalı faciəsinin 34-cü ildönümünü dərin hüzn ilə qeyd etdi. Bu dəhşətli faciə Azərbaycanın müasir tarixinə sadəcə bir kədərli gün kimi deyil, həm də milli qürurun, sarsılmaz iradənin və ədalətin təntənəsi kimi həkk olunan tarixdir.**



Prezident İlham Əliyevin fevralın 26-da Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının açılışında iştirakı və proqram xarakterli çıxışı, Azərbaycan xalqının işğal dövründəki ağrı-acısının necə böyük bir Zəfər enerjisinə çevrilməsinin nümayişi idi. Dövlət başçısının çıxışında diqqətçəkən məqamlardan biri memorialın tikilmə tarixi və məkanı ilə bağlı verdiyi mesaj idi. Prezident layihənin Heydər Əliyev Fondu tərəfindən çoxdan hazır olduğunu, lakin daxili bir inamın onu bu kompleksi Bakıda deyil, məhz cinayətin törədildiyi yerdə ucaltmağa sövq etdiyini bildirdi: "Məni hər dəfə nə isə bundan çəkindirirdi. Sonra başa düşdüm o nə idi. O da inam idi ki, gün gələcək və bu Memorial Kompleksi biz Xocalıda quracağıq və belə də oldu".

Bu ifadə təsadüfi bir qərarın deyil, onilliklər boyu hesablanmış, addım-addım gerçəkləşdirilmiş bir strateji xəttin nəticəsidir. Bu, Azərbaycanın "reallıqla barışın" deyən, insanlıq əleyhinə cinayətlərə göz yuman güclərə verdiyi ən kəskin cavabdır.

Memorialın memarlıq quruluşuna nəzər yetirdikdə burada həssas və təsirli elementlərin yer aldığını görmək mümkündür. Sakini qorumağa çalışan monolit əllər bugünkü Azərbaycan dövlətinin öz vətəndaşına olan sarsılmaz himayəsini simvolizə edir. Həyətdə əkilən badam ağacları isə fevralın soyuğunda çiçək açaraq ümidi və "Xocalıya ədalət!" kampaniyasının qələbəsini nümayiş etdirir. Heydər Əliyev Fondunun, xüsusilə Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanan bu hərəkat erməni təbliğat maşınının faciəni ört-basdır etmək cəhdlərinin qarşısının alınması, informasiya blokadasının yarılması baxımından mühüm əhəmiyyət kəsb edir. Məhz bu səylər nəticəsində artıq 20-yə yaxın ölkə Xocalı faciəsini soyqırımı kimi rəsmən tanıyıb və bu proses davam etdirilir.

Xocalı hadisələri beynəlxalq hüquq baxımından müasir dövlətlərarası münasibətlərdə ən ağır hadisələrdən biridir və Prezidentin çıxışındakı tezislər beynəlxalq hüququn prinsiplərinə əsaslanır. Belə ki, 1948-ci il tarixli "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" konvensiyaya istinad etsək, Xocalıda törədilənlər bu cinayətin bütün elementlərini ehtiva edir. Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən azərbaycanlıları etnik mənsubiyyətinə görə məhv etmək niyyəti (dolus specialis) Memorial Kompleksdə nümayiş olunan sənədlər və faktlarla bir daha sübuta yetirilir.

Dünya müharibə tarixində nadir hallarda rast gəlinir ki, bir dövlət həm ərazi bütövlüyünü bərpa etsin, həm də uzun illər öncə törətdikləri vəhşiliklərə görə məsuliyyət daşıyan cinayətkarları faktiki olaraq məhkəmə qarşısına çıxarsın. Prezident İlham Əliyev bunu "ədalətin tam təntənəsi" adlandırdı. Separatçı liderlərin Bakıda mühakimə olunması beynəlxalq cinayət hüququnda "cəzasızlıq sindromu"na vurulan ən ağır zərbədir.

Azərbaycan beynəlxalq birliyin onilliklər ərzində icra edə bilmədiyi qətnamələri BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, öz gücü ilə reallığa çevirdi. Bu, hüquqi dil ilə desək, suverenliyin və ərazi bütövlüyünün bərpasının "məcburi icra" (enforcement) mexanizmidir.

Müharibənin öz qaydaları var. Prezident vurğuladı ki, Azərbaycan Ordusu erməni faşistlərindən fərqli olaraq heç vaxt mülki əhaliyə qarşı müharibə aparmayıb. Bu "fərqləndirmə" (distinction) prinsipi Azərbaycanı beynəlxalq aləmin ən ləyaqətli üzvü kimi tanıtdı.

Memorialın daxili ekspozisiyası göstərir ki, Azərbaycan faciəni sadəcə statistik rəqəmlərlə deyil, insan taleləri üzərindən təqdim edir. Təqdim olunan videolar, "Bir gecənin içində səssiz qalan evlər" instalyasiyası və məhv edilmiş 8 ailənin taleyi ziyarətçidə "bu, məhv edilmiş gələcəkdir" hissini oyadır və beynəlxalq auditoriya üçün ən təsirli sənədləşdirmə üsuludur.

Prezidentin çıxışı həm də gələcəyə yönəlmiş sərt bir xəbərdarlıq idi. Həqiqətən də, heç bir xarici təzyiq Azərbaycanı öz haqq yolundan döndərə bilmədi. Qisas döyüş meydanında alındı və bu, bütün şəhid ailələri üçün ən böyük təsəllidir. Dövlət başçısının mesajı regionda sülhün zəmanətçisinin məhz güclü Azərbaycan Ordusu olduğunu bir daha təsdiqlədi.

Prezident İlham Əliyevin Xocalı sakinləri ilə görüşü zamanı səsləndirdiyi ürək sözləri uzun illər hökm sürən tarixi ədalətsizliyin sonlandığını göstərdi. Xocalı artıq Azərbaycanın suverenliyinin, zəfərinin və milli ruhunun sarsılmazlıq simvoludur.

Memorial Kompleks həmçinin gələcək nəsillər üçün bir and yeridir. Badam ağaclarının çiçək açması Xocalının qan donduran fevralından deyil, onun azad və nurlu baharından xəbər verir. Şəhidlərin qanı yerdə qalmadı, qisas alındı, Xocalı öz sahiblərinə qayıtdı.

***Zaur ŞÜKÜROV,***
***Milli Məclisin deputatı***

# Xocalıda ucaldılan memorial soyqırımı qurbanlarının xatirəsini daim yaşadacaq

**Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu gün işğaldan azad edilmiş ərazilərimizdə möhtəşəm quruculuq prosesinin həyata keçirilməsi dinamik inkişafımızın parlaq göstəricisidir.**



Milli Məclisin deputatı Sevinc Fətəliyeva qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın işğaldan azad edilmiş ərazilərə səfərləri ənənə halını alıb. Bu səfərlər zamanı dövlətimizin rəhbəri görülən işlərlə tanış olur, yeni təməllər atır, açılışlar edir və doğma yurdlarına qayıdan insanlarla görüşür. "25-26 fevral tarixlərində də dövlət başçısı və birinci xanım Qarabağda səfərdə olublar. Fevralın 25-də cənab Prezident Xocavənd şəhərində və eyniadlı kənddə görülən işlərlə tanış olub və sakinlərlə görüşüb. Azərbaycanın 2020-ci ildə qazandığı tarixi Zəfər təkcə torpaqlarımızın işğaldan azad edilməsi ilə yekunlaşmadı. Bu Zəfər Azərbaycan xalqına yeni üfüqlər açdı və Böyük qayıdış prosesini reallığa çevirdi. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Qarabağa səfəri, həyata keçirilən layihələr və görülən işlərlə tanış olmaları bu qayıdışın əhəmiyyətini bir daha göstərir. Qarabağ və Şərqi Zəngəzurun bərpası, sadəcə bir infrastruktur layihəsi deyil, bu, Azərbaycanın tarixi, mədəni və sosial inkişafı üçün strateji əhəmiyyət daşıyan bir prosesdir. Bu ərazilərdə aparılan quruculuq işlərinin böyük hədəfləri var", - deyə o deyib.

Deputat əlavə edib ki, Prezident İlham Əliyev Xocavənd şəhər və Xocavənd kənd sakinləri ilə görüşündə keçilmiş yola bir daha nəzər salaraq ağır işğal illərini xatırladıb, tarixi zəfərimizdən sonra Böyük qayıdış proqramının uğurla icra edilməsindən məmnunluğunu bildirib, həmçinin yeni strateji mərhələdə qarşıda duran vəzifələrə diqqət çəkib. Doğma yurdlarına qayıdan insanlar isə yaradılmış şəraitdən məmnunluqlarını ifadə ediblər.

Sevinc Fətəliyeva bildirib ki, dövlət başçısının və birinci xanımın Qarabağa Xocalı soyqırımının 34-cü ildönümü ərəfəsində səfər etməsi təsadüfi deyil: "Fevralın 26-da - bu qanlı faciənin növbəti ildönümündə Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının açılışında iştirak ediblər. Azərbaycan xalqına qarşı törədilmiş soyqırımının beynəlxalq səviyyədə tanıdılması və Xocalı faciəsi qurbanlarının əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Xocalı Soyqırımı Memorial Kompleksinin təməlqoyma mərasimi 2024-cü il 26 fevral tarixində olmuşdur. Layihə Heydər Əliyev Fondu tərəfindən hazırlanan konsepsiya əsasında reallaşdırılmışdır. "Xocalı Soyqırımı Memorialı memarlıq və ideya baxımından milli yaddaşın qorunmasına xidmət edən məkandır. İşğaldan azad edilmiş Xocalıda ucaldılan memorial soyqırımı qurbanlarının xatirəsini daim yaşadacaq və tarixi həqiqətləri hər bir ziyarətçiyə çatdıracaq. Hazırda Xocalı öz sakinlərinə qucaq açıb. Bundan sonra Xocalı sülh və əmin-amanlıq yurdu kimi xalqımızın əbədi yaşayış məkanı olacaq".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

I Türkoloji Qurultay - 100

# Türk dünyasının intellektual dönüş nöqtəsi

**XX əsrin əvvəllərində türk xalqları arasında ortaq terminologiyanın yaradılması, müasir təhsil üsullarının tətbiqi və əlifba islahatı zərurətə çevrilmişdi. I Türkoloji Qurultay məhz bu ehtiyaclara cavab olaraq türk dillərinin müqayisəli öyrənilməsini, tarix, etnoqrafiya və mədəniyyət məsələlərinin sistemli müzakirəsini təmin etmiş və türkoloji tədqiqatların metodoloji əsaslarını möhkəmləndirmişdir.**

Mötəbər tədbirdə 131 nümayəndə və qonaq iştirak etmişdir. Müxtəlif türk xalqları ilə yanaşı, Avropa və region ölkələrindən alimlərin iştirakı tədbirin beynəlxalq miqyasını açıq şəkildə göstərmişdir. Bu fakt I Türkoloji Qurultayın sırf regional deyil, qlobal elmi hadisə olduğunu təsdiqləyirdi.

I Türkoloji Qurultayın toxunduğu məsələlər çox idi. Burada əlifba islahatının əsas mövzulardan olması da təsadüfi deyildi. Məlum olduğu kimi, hələ XIX əsrin ortalarında Mirzə Fətəli Axundzadə ərəb əlifbasının türk dillərinin fonetik xüsusiyyətlərini tam əks etdirmədiyini göstərərək əlifbada islahat ideyasını irəli sürmüşdü. Sonrakı dövrlərdə Cəlil Məmmədquluzadə, Firidun bəy Köçərli, Üzeyir bəy Hacıbəyli, Hüseyn Cavid və digər ziyalılar bu ideyanı inkişaf etdirmiş, əlifba məsələsini geniş ictimai müzakirə mövzusuna çevirmişdilər.



Ərəb qrafikasının texniki çətinliyi və dini ənənə ilə bağlılığı savadlılıq kampaniyasına maneə sayılırdı. Latın qrafikasına keçid isə təhsili və çap işini sürətləndirməklə yanaşı, dini təsiri zəiflətmək və türk xalqları üçün vahid dünyəvi ünsiyyət mühiti yaratmaq məqsədi daşıyırdı. I Türkoloji Qurultay bu keçidi elmi müstəvidə legitimləşdirdi və əlifba islahatını siyasi yox, akademik məsələ kimi təqdim etdi.

## Əlifbadan düşüncəyə

Əlifba islahatları məsələsi qurultayın 3 günündə müzakirəyə çıxarılmış, uzun və ziddiyyətli mübahisələrdən sonra 1926-cı il martın 4-də səsverməyə qoyulmuşdur. Mövzu ətrafında müəyyən fikir ayrılıqlarına rəğmən əksəriyyət latın qrafikasına keçidi dəstəkləmiş, bununla da keçmiş ittifaq daxilindəki türk xalqlarının əlifba siyasətinin gələcək istiqaməti müəyyənləşmişdir. Qurultayda yeni əlifbanın fonetik uyğunluğu, maarifçilik funksiyası və ümumtürk yaxınlaşmasına xidmət etməsi əsas arqumentlər kimi irəli sürülmüşdür.

Əlifba ilə yanaşı, imla və orfoqrafiya, terminologiya, tədris metodikası, ədəbi dil, qohum dillərin qarşılıqlı əlaqəsi və türk dillərinin tarixi problemləri də müzakirə olunmuşdur. Qəbul edilən qərarlar türkoloji elmin institusional inkişafına, elmi şəbəkələşmənin güclənməsinə və ortaq tədqiqat gündəliyinin formalaşmasına ciddi töhfə vermişdir.

Sonrakı illərdə qurultayın qərarları əsasında yeni türk əlifbası üzrə komitələr yaradılmış və 1929-cu ildə SSRİ-də ərəb qrafikalı dillərin latın qrafikasına keçidi tam rəsmiləşdirilmişdir. Bu proses müəyyən mərhələlərdə siyasi konyunkturaya tabe olsa da, ümumilikdə əlifba islahatının türk xalqlarının mədəni inkişafında texniki dəyişiklikdən daha artıq məna daşıdığını göstərmişdir.

I Türkoloji Qurultay sübut etmişdir ki, əlifba yalnız yazı vasitəsi deyil, düşüncə tərzini, elmi ünsiyyəti və cəmiyyətin inkişaf istiqamətini müəyyən edən əsas amillərdən biridir. Bu mənada sözügedən qurultay təkcə elmi hadisə deyil, türk xalqları arasında gələcək birlik və yaxınlaşmanın intellektual əsaslarını formalaşdıran mühüm mərhələ olmuşdur. O, siyasi birlik yaratmasa da, uzunmüddətli perspektivdə ortaq düşüncə, ortaq dil siyasəti və ortaq elmi baxışların təşəkkülünə ciddi təsir göstərmişdir.

Tədqiqatçıların araşdırmalarında göstərilir ki, qurultayda ilk dəfə olaraq türk dilləri bir-biri ilə əlaqəli vahid sistem kimi qiymətləndirilmişdir. Bu müxtəlif türk xalqları arasında yazı fərqlərini azaltmış, elmi və mədəni ünsiyyəti asanlaşdırmışdır. Qurultay həm də türkologiya elminin institusionallaşmasına təkan vermişdir. Bir çox regionlardan olan alimlərin Bakıda bir araya gəlməsi elmi şəbəkələşməni gücləndirmiş, ortaq tədqiqat mövzuları və metodoloji yanaşmalar formalaşdırmışdır. Bu proses türk xalqlarının tarixinin, mədəniyyətinin və dilinin paralel şəkildə öyrənilməsinə şərait yaratmışdır.

Qurultay günlərində iştirakçılar Xalq Maarif Komissarlığının dəvəti ilə Böyük Dövlət Teatrında "Leyli və Məcnun" operasına tamaşa etmişlər. Bir qismi Bakını gəzib, bir qismi Gəncədə olublar. Neft buruqlarına, Şirvanşahlar sarayına tamaşa ediblər. Martın 6-da nümayəndələr "Qızıl Şərq" kinoteatrında "Bismillah" filminə və həmin günlərdə lentə alınmış "I Türkoloji Qurultay" sənədli filminə baxmışlar, "Qara şəhər"də olublar. Nümayəndələrin bir qismi "Yeni Avropa" hotelində, bir qismi "Şərq" mehmanxanasında, bir qismi Sovetlər Evinin mehmanxanasında yerləşdiriliblər.

## Güllələnən qurultay

Bu mötəbər tədbirdə türk dünyası sanki birləşmişdi. Türkoloji Qurultayın Azərbaycan türkoloqları ilə birgə 1926-cı ildən 1937-ci ilə qədər yol gələn vahiməli bir arxa planı da vardı. Bolşevik quruluşu üçün təhlükəli hesab edilən böyük Turan düşüncəli ziyalıların həbsi 1937-ci ilin yanvar ayından başlayaraq, kütləvi hal almışdır. Onlara verilən min bir işgəncənin, döyülmələrin, ailələrinin hədələnmələrinin nəticəsində istədikləri "şər-böhtan" dolu sənədlərə imza atdırırdılar. Tədqiqatçılar yazırlar ki, I Türkoloji Qurultayın keçirildiyi 1926-cı ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Levon Mirzoyan, ÇK sədri, yəni Fövqəladə Komissar Mircəfər Bağırov idi. Ruhulla Axundov qurultaya "Bakinskiy raboçiy" qəzetinin baş redaktoru və jurnalist olaraq nümayəndə seçilmişdi. 1926-cı ildə, yəni Türkoloji Qurultay ərəfəsində Mirzoyanın özünə rəqib görüb, MK-nın ikinci katibliyindən uzaqlaşdırdığı Ruhulla Axundov, Azərbaycana M.Bağırovun rəhbərlik etdiyi 1937-ci ildə NKVD zindanlarında işgəncələrə məruz qalaraq - gözləri çıxarılaraq, qabırğası sındırılaraq öldürülmüşdür.

SSRİ Elmlər Akademiyası Azərbaycan filialının özbəkəsilli elmi işçisi Xalid Səid Xocayev də, Bakı Darülfünunun Şərq fakültəsinin kazanəsilli professoru Əziz Qubaydullin də 1937-ci ildə güllələnib. Almatıda Baytursunovu ittiham edirdilər ki, Bakıda Bəkir Çobanzadə ilə əlaqələri var. Baytursunov da, Bəkir Çobanzadə də 1937-ci ildə saxta ittihamlarla aradan götürülüblər. 1937-ci ildə Pepinovun da, Həbib Cəbiyevin də həyatlarına son qoyublar.

"Güllələnənlər çoxdur, saymaqla qurtarmır. Amma burda həm də talelər var. Tutaq ki, Alparovla Gəldiyev - ikisi də başqırddır. Ufa mədrəsəsində bir yerdə təhsil alıblar. Sonra Türkmənistanda bir yerdə çalışıblar, bir yerdə türkmən dilinin qrammatikasını yazıblar. Sonra da Gəldiyev 1931-ci ildə 41 yaşında, Alparov isə 1936-cı ildə 47 yaşında dünyalarını qəfil dəyişiblər". Leninin dostu, milliyyətcə eston olan Artur Zifeld Ədəbiyyat İnstitutunun ilk direktoru idi. Mahmud Kaşğari Divanının tərcüməsinə imkan verdiyi üçün 8 il müddətinə sürgünə göndərilib.

Milliyyətcə çex olan Nikolay Roqdayev Leninin məsləhəti ilə Tiflisdə Qafqaz İcraiyyə Komitəsində elmi katib işləyirdi. Hansı səbəbdənsə o da Daşkəndə sürgün edilib. Artur Zifeld Kolımada sürgündə və 50 yaşında "qocalığı" və ürək çatışmazlığı səbəbilə həlak olub. Roqdayev isə 1934-cü ildə sürgündə 54 yaşında beyninə qansızma nəticəsində dünyasını dəyişib. Azər Turan "Birinci Türkoloji Qurultay - film kimi bir hadisə..." məqaləsində yazır: " İsmayıl bəy Qaspıralının Türkoloji Qurultayda iştirak edən varislərinin - krımlı nümayəndələrin aqibətinə baxın: Bəkir Çobanzadə güllələnib. Osman Akçoraklı güllələnib. Həsən Səbri Ayvazov güllələnib. Nedim Mahmut güllələnib. Ukrayna Elmlər Akademiyasının qurucularından və ilk akademiklərindən biri - Aqafanqel Krımski də, Odabaş da, Yakub Kamal da həbsxanalarda həlak olublar və b. Kazan tatarları da elə..."

Qurultayın mücahidlərindən biri də Əziz Qubaydullin idi. O, 1887-ci ilin iyununda Kazanda tacir ailəsində anadan olmuş, 1904-cü ildə Xalidiyyə mədrəsəsini bitirmişdir. 1909-cu ildə Kazan Universitetinin Hüquq fakültəsinə qəbul olunan Əziz Qubaydullin burada azərbaycanlı Soltan Məcid Əfəndiyevlə tanış olub, "Türk xalqlarının qəhrəmanlıq eposu "Seyd Battal"ın yaranması" əsərini yazıb. O, 1921-ci ildən Şərq Akademiyası və Şərq Pedaqoji İnstitutunda müəllim işləməyə başlayıb. "Xəzər xaqanlığının tarixi təcrübəsi", "Bir tatar salnaməsinin məhvi", "Puqaçev üsyanında tatarların iştirakı" və "Puqaçev üsyanı və tatarlar" mövzusunda apardığı araşdırmalar ona böyük hörmət qazandırıb.

1925-ci ildə Bakıya gəlib və Bakı Dövlət Universitetinin dosenti seçilib. Yaradılan şəraitdən səmərəli istifadə edərək 1927-ci ildə "Xəzərlərin mənşəyi məsələsi", "Tatar burjuaziyasının tarixindən" və "Azərbaycan bəyləri və onların tabeliliyində olan kəndlilər", 1928-ci ildə "Teymur imperiyasının tənəzzülü və özbəklər mərhələsi", 1929-cu ildə "Tatarların mənşəyi məsələsi", "XVI-XVII əsrlərdə tatarların kəndli hərəkatlarında iştirakı", 1930-cu ildə "İsmayıl Qaspıralının ideologiyasına bir nəzər" əsərlərini yazıb.

Əziz Qubaydullin I Türkoloji Qurultayın ən fəal iştirakçılarından və məruzəçilərindən biri olmuşdur. O, qurultayda türk xalqlarının tarixi və ədəbi inkişafı ilə bağlı mühüm mərizə ilə çıxış etmişdir. Xüsusilə sovet ittifaqı tərkibində yaşayan türk xalqlarının elmi və mədəni birliyi məsələlərinə toxunmuşdur. Professor bu mötəbər məclisdə türk dillərinin ortaq tarixi, kökləri və onların gələcək inkişaf perspektivlərini elmi cəhətdən əsaslandırmağa çalışmışdır. O, həm Tatarıstanı, həm də o dövrdə fəaliyyət göstərdiyi Bakı elmi mühitini təmsil edən əsas simalardan biri olmuşdur.

1928-ci ildə o, Şərq tarixi kafedrasının, 1930-cu ildə isə Moskva Universitetinin professoru seçilmişdir. 1937-ci ilin martında həbs olunmuşdur. Martın 22-də aparılan ilk istintaqda etiraf etmişdir ki, həbs olunana qədər "əks-inqilabi pantürkist mövqedə durmuşdur". İkinci istintaq isə fasiləsiz 12 gün çəkmişdir. Üçüncü istintaqda müttəhim demişdir ki, "SSRİ-də pantürkist ƏİMT-nin rəhbər özəyi 1925-ci ildə Səmərqənddə təşkil olunmuşdur". Dördüncü istintaqda müttəhim Türkiyə və Almaniya mühacirləri ilə olan əks-inqilabi əlaqələrdən danışmışdır. Nəhayət, 1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası səyyar sessiyasının bağlı məhkəmə iclası olmuş, Əziz Qubaydullinə ölüm hökmü verilmişdir. Oktyabrın 13-də hökm icra edilmişdir.

## Ulu Öndər Azərbaycanı yenidən türkçülüyün mərkəzinə çevirdi

I Türkoloji Qurultayın daha bir mühüm təsiri türk birliyi ideyasının siyasi şüardan elmi müzakirə müstəvisinə keçirilməsi idi. Qurultay türk xalqları arasındakı yaxınlığı ideoloji çağırışlar üzərindən deyil, akademik, dilçilik və mədəni əsaslar üzərindən izah etdi, bu isə birliyin romantik və emosional deyil, rasional və davamlı zəmin üzərində qurulmasına şərait yaratdı.

Sovet dövründəki siyasi şərtlər milli zəmində inteqrasiya proseslərini məhdudlaşdırsa da, qurultayda formalaşan ideyalar tamamilə yox olmadı. Aradan onilliklər keçməsinə baxmayaraq, həmin tədbirin ideyaları elmi düşüncədə yaşayır və müxtəlif formalarda davam etdirilirdi. Bu davamlılığın ən mühüm nümunələrindən biri 1970-ci ildə Bakıda Ümummilli Lider Heydər Əliyevin dəstəyi ilə "Sovetskaya Türkologiya" jurnalının nəşrə başlaması oldu.

Belə bir jurnalın nəşri ilə Azərbaycan yenə də türkologiyanın əsas mərkəzi missiyasını öz üzərinə götürdü. Sovet dövrünün ideoloji məhdudiyyətlərinə baxmayaraq, "Sovetskaya Türkologiya" jurnalının yaradılması Heydər Əliyev kimi müdrik siyasət adamının türkoloji elmin institusional inkişafına verdiyi strateji dəstək idi. Jurnal türk dillərinin müqayisəli tədqiqi, tarixi-mədəni irsin elmi araşdırılması və metodoloji yanaşmaların sistemləşdirilməsi baxımından I Türkoloji Qurultayın qoyduğu elmi xətti davam etdirirdi. Əgər 1926-cı il qurultayı türkoloji fikrin ümumtürk miqyasında formalaşdığı platforma idisə, "Sovetskaya Türkologiya" jurnalı bu fikrin ardıcıl, davamlı və elmi nəşr müstəvisində yaşadılmasını təmin edirdi.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə jurnalın Bakıda nəşrə başlaması təsadüfi deyildi. Bu addım Bakının türkoloji elmin mərkəzlərindən biri kimi mövqeyini möhkəmləndirdi və Azərbaycanı türk dünyasının elmi-intellektual xəritəsində yenidən ön plana çıxardı. Jurnal vasitəsilə Birinci Türkoloji Qurultayda müzakirə olunan dil birliyi, elmi əməkdaşlıq və mədəni yaxınlaşma ideyaları yeni nəsil alimlər üçün aktual elmi gündəliyə çevrildi.

Nəticə etibarilə, I Türkoloji Qurultay türk xalqlarının birliyini birbaşa təmin etməsə də, bu birliyin zehni, elmi və mədəni əsaslarını formalaşdırdı. Qurultay göstərdi ki, davamlı birlik ilk növbədə ortaq düşüncə, ortaq dil və ortaq elmi baxış üzərində qurulur. Aradan bir əsr keçməsinə baxmayaraq, həmin ideyalar bu gün də türk dünyasının inteqrasiya proseslərində mühüm rol oynamaqdadır.

XX əsrin sonlarında müstəqil türk dövlətlərinin yaranması ilə bu ideyalar yenidən aktuallaşdı. Ortaq dil layihələri, əlifba yaxınlaşmaları, akademik əməkdaşlıqlar və beynəlxalq türk təşkilatlarının fəaliyyəti məhz 1926-cı ildə atılan intellektual təməlin davamı kimi qiymətləndirilə bilər.

Aradan bir əsr keçməsinə baxmayaraq, qurultayın ideyaları bu gün də türk dünyasında dil siyasəti və mədəni modernləşmə müzakirələrinin mühüm elmi istinad nöqtəsi olaraq qalmaqdadır. Azərbaycanın fəal rolu ilə bu gün addım-addım inkişaf etdirilən, güclənən, çağdaş dünya düzənində yeni siyasi-iqtisadi, mədəni güc mərkəzi kimi irəli çıxmaqda olan Türk Dövlətləri Təşkilatı I Türkoloji Qurultayda iştirak edən düşüncə adamlarının mənəvi irsinə, gələcəyə strateji baxışına əsaslanaraq bu ideyaları reallığa çevirməkdədir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

"2026-Şəhərsalma və Memarlıq İli"

# Memarlığın bənzərsiz nümunəsi



**Bakı şəhərinin mədəni həyatında özünəməxsus yer tutan Azərbaycan Dövlət Musiqili Komediya Teatrının binası yalnız mədəniyyətimizin və incəsənətimizin inkişafına xidmət göstərən əvəzolunmaz sənət ocağı deyil, həm də tarixlərin şahididir.**

Azərbaycan peşəkar teatrı yaranandan, 1873-cü ildən Bakıda tamaşalara maraq göstərənlərin sayı artmağa başlayıb. Ancaq şəhərdə müasir və əsl teatr binasının olmaması millətpərvər, xeyriyyəçi, milyonçu Hacı Zeynalabdin Tağıyevi mühüm bir qərar verməyə sövq edib. O, 1882-ci ildə Bakı şəhərinin mərkəzində, Qorçakovskaya və Merkuryevskaya küçələrinin tinində yerləşən öz iri taxıl anbarını məkan olaraq seçib. Hazırlanmış 35 vərəqlik layihəni müvafiq idarəyə göndərib. Tikintiyə Azərbaycanda fəaliyyət göstərən, milliyyətcə alman olan mühəndis texnoloq, memar Ferdinand Lemkul rəhbərlik edib. Teatr binası onun nəzarəti altında inşa olunub və 1883-cü ilin sonunda başa çatıb.

Həmin il noyabrın 23-də binanın təhvil-təslimi üzrə xüsusi komissiya tərəfindən tərtib olunan aktda planlaşdırma, konstruktiv və yanğından mühafizə kimi xeyli qüsurlar qeyd olunub və onların aradan qaldılması tələb edilib.

Çoxsaylı nöqsanlara yol verilməklə inşa olunması belə, Azərbaycanın ilk teatr binasının əhəmiyyətinə kölgə sala bilməyib. Doğrudur, cəmiyyətdə səhnə sənətinə, teatra rəğbət bəsləyənlərin sayı yetərincə deyildi. Amma zəngin təbii sərvətləri ilə diqqət mərkəzinə çevrilməkdə olduğu, müasirləşməyə üz tutduğu bir zamanda - XIX əsrin sonlarında, Bakıda belə bir binaya böyük ehtiyac var idi. Azərbaycanın qabaqcıl övladları söydaşlarının da başqa xalqların nümayəndələri kimi dövrün tələbləri ilə ayaqlaşmaları üçün təhsilin, səhiyyənin, mətbuatın, eləcə də teatrın tərəqqisinin vacibliyini önə çəkərək bu istiqamətdə fəaliyyət göstərirdilər. Tağıyev teatrının binası da məhz belə bir vaxtda tikilib.

XIX əsrin axırlarında binanın fasadları, interyeri dəyişdirilməklə yenidən qurulması zərurəti meydana çıxıb. Bundan başqa, qazla və ya elektriklə işıqlanma əlavə olunması vacib idi. Amma teatrın bu problemi yalnız 1890-cı ildə həll olunub.

Teatrın populyarlığının azalmadığını, ildən-ilə aksiyalarının düşdüyünü görəndə Hacı Zeynalabdin Tağıyev yeni qərarlar verməli olub. Milyonçu binadan qurtulmaq fikrinə düşüb. Belə bir vaxtda - Tağıyev Teatrı binasının uçulma məsələsi ortaya çıxıb. Bununla Bakı şəhərinin tamamilə teatr binasız qalacağı müzakirəyə çevrilib.

O zaman teatra gəlir mənbəyi kimi maraq göstərən Bakının bəzi işgüzar adamları işə başlayıblar. Onlardan biri Bakıda Teatr meydanında "Nümunəvi teatr binasının inşası üzrə ortaqlıq" adlı səhmdar cəmiyyəti qurub. Cəmiyyətin təsisçiləri 1897-ci il oktyabrın 6-da Şəhər Dumasına Teatr meydanında sahə ayrılması ilə bağlı müraciət ünvanlayıblar. Teatr binasının "Avropadakı nümunəvi teatr binalarının planı üzrə fasadın üzü əsas küçəyə istiqamətləndirilərək" tikilməsi, işıqlandırılmanın texnikanın ən son nailiyyətlərindən yararlanaraq qurulması nəzərdə tutulub.

Şəhərdə yeni teatr binasının tikintisi barədə söz-söhbətlər dolaşmağa başlayıb. Onda Hacı Zeynalabdin Tağıyev öz teatrını yeniləmək qərarına gəlib və bu işlə ciddi məşğul olub. O, 1898-ci ildə teatrın rekonstruksiya layihəsinin tərtibi və bütün memarlıq-tikinti işlərinə nəzarəti mülki mühəndis P.İ.Koqnovitskiyə tapşırıb.

Koqnovitskinin niyyəti memarlıq-planlaşdırılma strukturuna əhəmiyyətli dəyişiklik etmək deyildi. Odur ki, cüzi dəyişikliklərlə kifayətlənib. Koqnovitskinin tərtib etdiyi layihə xeyriyyəçi, səxavətli milyonçunun arzularına uyğun olmayıb. Çünki Hacı Zeynalabdin Tağıyevin niyyəti, Bakıya, çox dəbdəbəli gələcək teatr binaları ilə rəqabət apara biləcək teatr binası bəxş etmək idi. Hacı Zeynalabdinin dəvəti ilə teatrın rekonstruksiyasına Koqnovitski ilə bərabər, istedadlı memar Qoslovski də qatılıb.

Teatr binasının gözoxşayan olması üçün imkan daxilində bütün vasitələrdən istifadə olunub. Binanın layihələşdirilməsi və tikintisi istiqamətində mühüm işlər həyata keçirilib. Zalların dekorasiyası yenilənib. Demək olar ki, tamaşaçı zalında yerlərin sayı iki dəfə artırılaraq 1200-ə çatdırılıb, orkestrin yeri yeni tərzdə qurulub. Eyni zamanda teatrın binası texniki cəhətdən təkmilləşdirilib, elektrik işıqlandırma ilə təchiz edilib.

Bakı şəhərinin ilk teatrı - Tağıyev Teatrı Azərbaycan teatrının inkişafında əhəmiyyətli yer tutub. 1890-cı il martın 10-da bu teatrda təqdim edilən tamaşa ən böyük teatr hadisələrindən birinə çevrilib. Tamaşadan gələn gəlirin yoxsul şagirdlərə xərclənəcəyi barədə qabaqcadan elanlar vurulub.

1901-ci il yanvarın 10-da teatrda orucluq bayramı münasibətilə Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" tamaşası nümayiş olunub. Martın 17-də isə Tağıyev teatrının səhnəsində Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" ("Hacı Qənbər") komediyası göstərilib.

Daha bir tarixi hadisə də bu binada baş verib. Belə ki, 1908-ci il yanvarın 25-də müsəlman Şərqində opera janrının əsasının qoyan Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun" əsərinin ilk tamaşası Tağıyev Teatrında təqdim edilib.

Dövrün mətbu orqanlarında Tağıyev teatrında keçirilən tədbirlər, tamaşalar barədə tez-tez məlumatlar dərc olunub.

Ancaq qədim Bakıya yeni ab-hava gətirən bu binanın qayğıları bitmək bilməyib. Dönə-dönə yanğınlara məruz qalıb. Yenidən bərpa olunub. Hər dəfə də memarlıq-planlaşdırma kompozisiyasında, interyer bəzəklərində, fasad dekorunun keyfiyyətində müəyyən dəyişikliklər olub və daha da yaxşılaşdırılıb.

Teatrın binası 1909-cu ildə yandırılıb. Binanı yenidən inşa etməli olublar. Əvvəlki ikimərtəbəli teatr binasının yerinə üçmərtəbəli bina tikilib. Əsas fasadın eni də genişləndirilib, divarların hündürlüyü isə 6,75 metr artırılıb.

1918-ci ildə bolşevik-daşnak birləşmələri Bakıda soyırımı həyata keçirib, şəhərin nadir memarlıq nümunələri olan binaları dağıdılıb, yandırılıb. Tağıyev teatrının binası da ermənilər tərəfindən vəhşicəsinə yandırılıb. Binanın yalnız daş və dəmir-beton karkası qalıb.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra, 1921-1922-ci illərdə teatrın binası bərpa olunub. Layihəsini bu dəfə Bakının baş memarı, mülki mühəndis Zivər bəy Əhmədbəyov tərtib edib.

Tağıyev teatrının adı da dönə-dönə dəyişdirilib. 1922-ci ildə teatra Dadaş Bünyadzadənin adı verilib. Səksən dörd yaşlı Hacı Zeynalabdin Tağıyevi də açılış mərasiminə dəvət ediblər. Millət atası - Hacı Zeynalabidin Tağıyev hər zaman əyləşdiyi yerdə - lojada görünəndə bütün zal ayağa qalxıb. Hətta yeni hökumət nümayəndələri də onu alqışlayıblar.

Həmin ildən - 1922-ci ildən binada Akademik Milli Dram Teatrı, 1960-cı ildən isə Azərbaycan Dövlət Musiqili Teatrı fəaliyyət göstərib. Uçmaq təhlükəsi olduğuna görə 1988-ci ildə sökülən binanın yerində yenisi tikilib. 1998-ci ilin oktyabrında teatr binasının rəsmi açılışı olub.

2013-cü il aprelin 18-də binanın əsaslı bərpa və yenidənqurma işlərindən sonra rəsmi açılışı keçirilib. 2019-cu il martın 5-də Azərbaycan Dövlət Musiqili Teatrına "akademik" statusu verilməsi barədə sərəncam imzalanıb.

Tağıyev teatrı (hazırda Azərbaycan Dövlət Akademik Musiqili Teatrı) XIX əsrin sonlarından bu günədək Azərbaycan teatrının inkişafına xidmət göstərir. Teatrın binası isə füsunkar görünüşü ilə Azərbaycan memarlığının ən gözəl nümunələrindən sayılır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*




# Xocalıdan verilən mesajlar

## Sülhün təminatçısı güclü Azərbaycan və qüdrətli liderimizdir

**Azərbaycanın yazdığı yeni tarix təkcə hərbi qələbələrlə deyil, onilliklər boyu səbirlə yanaşılan strateji ədalətin bərpası ilə xarakterizə olunur. Otuz dörd il əvvəl bəşəriyyətin yaddaşına ən qanlı qətliamlardan birinin yaşandığı məkan kimi həkk olunan Xocalı bu gün həm də xalqımızın sarsılmaz iradəsinin və döyüş meydanında bərpaolunan milli qürurumuzun rəmzidir. O səbəbdən, işğal dövrü ərzində Azərbaycanı "reallıqla barışmağa" çağıranlara ən kəskin cavab Xocalıdan gəldi.**

Prezident İlham Əliyevin fevralın 26-da Xocalı Soyqırımı Memorialının açılışındakı çıxışı Azərbaycanın məruz qaldığı tarixi ədalətsizliyi öz gücü ilə necə dəyişdiyinin və hərbi cinayətkarların Bakıda məhkəmə qarşısına çıxarılmasının beynəlxalq hüquq müstəvisindəki əhəmiyyətinin dərin təhlili idi. Dövlətimizin başçısı Azərbaycanın 30 illik səbrinin necə böyük bir Zəfərə çevrilməsinin mühüm məqamlarına işıq saldı. Vurğulandı ki, beynəlxalq təzyiqlərə rəğmən, geri addım atmayan, iqtisadi müstəqilliyini hərbi qüdrəti ilə birləşdirən Azərbaycan bu gün regionda yeni reallıqları tək diktə edən tərəfdir.

Dövlətimizin başçısı tarixi ədalətin bərpası prosesini bir neçə mühüm mərhələyə ayırdı və hər bir addımın məntiqi sonluqla - cəza mexanizmi ilə bitdiyini qeyd etdi. İlk addım cinayətin dünya tərəfindən qəbul edilməsi idi. 20-yə yaxın ölkənin Xocalıda törədilən qətliamı soyqırımı kimi tanıması Ermənistanın ört-basdır etmək cəhdlərinə qarşı ən böyük diplomatik zərbə oldu. Xocalı şəhərinin azad edilməsi isə simvolik olaraq faciə qurbanlarının ruhunun dinclik tapması, Azərbaycanın öz suverenliyini tam bərpa etməsi demək idi.

Hərbi cinayətkarların, separatçı rejimin tör-töküntülərinin Bakıda məhkəmə qarşısına çıxarılması beynəlxalq humanitar hüququn tətbiqi və Azərbaycanın qətiyyətinin göstəricisi oldu. Torpaqlarımızın azad edilməsi prosesin başlanğıcı idisə, cinayətkarların hüquqi müstəvidə cavab verməsi bu yolun məntiqi və ədalətli yekunudur. Bu, qurbanların ailələri üçün mənəvi təsəlli, həmçinin dünya birliyinə "cəzasızlıq dövrü bitdi" mesajının verilməsi idi. Bununla dövlət başçısı öz çıxışı ilə beynəlxalq aləmə çox ciddi ismarışlar verdi.

Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycanın qazandığı qələbə dünya hərb və siyasət tarixində unikal hadisədir. Çünki bir dövlətin hərbi yolla tam suverenliyini bərpa etməsi, müharibə cinayətkarlarını mühakimə edərək cəzalandırması nadir hallarda eyni anda baş verir. Bu, Azərbaycanın hərbi güclə yanaşı, yüksək siyasi legitimlik qazanmasının da göstəricisidir: "Dünyada nadir halda ölkələr tapılar ki, həm ədalətli müharibədə tam və mütləq qələbə qazansın, həm öz ərazi bütövlüyünü və suverenliyini hər qarış torpağı azad edərək özü təmin etsin və müharibə cinayətkarlarını məhkəmə qarşısına gətirsin. Bunu biz etdik - Azərbaycan dövləti".

Düzgün qurulmuş dövlət strategiyası və xalq-iqtidar birliyi istənilən beynəlxalq maneəni aşmağa qadirdir. Prezident İlham Əliyev Azərbaycanın qələbəsinin təsadüfi deyil, onilliklər boyu hesablanmış zərgər dəqiqliyi ilə atılan addımların nəticəsi olduğunu vurğuladı. Dövlətimizin başçısı bəyan etdi ki, hərbi gücdən əvvəl hüquqi zəmin hazırlanmalı idi: "Birinci dəfə Prezident vəzifəsinə seçiləndən sonra andiçmə mərasimindəki çıxışımda da bildirmişdim ki, bu, bizim üçün əsas məsələdir və ərazi bütövlüyümüz tam bərpa edilməlidir. Hazırlıq dövrü çox çəkdi, bu da təbiidir. Çünki güc yığmalı idik, güc toplamalı idik. Öz haqq işimizi beynəlxalq müstəvidə təsdiqləməli idik, o cümlədən Ermənistan dövlətinin hərbi cinayətləri haqqında məlumatı çatdırmalı idik. Xocalı soyqırımı ilə bağlı həqiqətləri çatdırmalı idik və çatdırmışıq. Son illər ərzində bir çox beynəlxalq təşkilatlar məcburiyyət qarşısında bizim mövqeyimizi, ədalətli mövqeyimizi dəstəkləyən qərar və qətnamələr qəbul etmişdir. Bu, Ermənistan-Azərbaycan münaqişəsinin həllinin hüquqi əsasını təşkil etmişdir".

Azərbaycan liderinin diqqət çəkdiyi kimi məhz Xocalı soyqırımı və Ermənistanın digər cinayətləri barədə dünya ictimaiyyətinin məlumatlandırılması ermənilərin "məzlum xalq" obrazını dağıtdı. Beynəlxalq təşkilatların Azərbaycanın xeyrinə qəbul etdiyi sənədlər, qətnamələr müharibə zamanı kənar müdaxilələrin qarşısını alan hüquqi qalxan rolunu oynadı. İkitərəfli əlaqələr vasitəsilə Azərbaycan özünə real müttəfiqlər qazandı. İqtisadi azadlıq Azərbaycana imkan verdi ki, ölkəmiz silah-sursat alışında və siyasi qərarlarda xarici təzyiqləri neytrallaşdırsın.

Dövlət başçısı Azərbaycanın son illərdə əldə etdiyi nailiyyətlərin dünya hərb və siyasət tarixindəki yerini faktoloji müstəvidə qiymətləndirdi və vurğuladı ki, dünyada son 80 il ərzində bizim qədər tam və mütləq qələbə qazanmış ikinci dövlət olmayıb: "Bu gün biz sülh içində yaşayırıq və bunun təminatçısı Azərbaycan dövlətidir, bizim siyasətimizdir". İkinci Dünya müharibəsindən bu yana dünyada çoxsaylı müharibələr baş verib. Lakin Azərbaycanın qələbəsini unikal edən cəhət odur ki, bir çox münaqişələr dondurulmuş və ya yarımçıq qələbə ilə bitdiyi halda Azərbaycan işğal altındakı torpaqlarını azad edərək öz ərazisindəki separatçılığın kökünü tamamilə kəsdi. Ən önəmlisi budur ki, böyük güclərin fasiləsiz təzyiqlərinə rəğmən, Azərbaycan möhtəşəm qələbəni kənar hərbi dəstək almadan, öz ordusunun və xalqının gücü ilə qazandı. Ölkəmizin hər qarışında suverenliyimiz bərpa edildi, üçrəngli bayrağımız dalğalandı. Əvvəllər regionda sülhü hansısa beynəlxalq təşkilatların, "vasitəçi" dövlətlərin təmin edəcəyi düşünülürdüsə, indi dayanıqlı sülhün qarantı Azərbaycanın iqtisadi gücü, şanlı ordumuzun peşəkarlığı, dövlətimizin qətiyyətli siyasəti və təbii ki, qüdrətli liderimizin dönməz iradəsidir. Bakı sülh tərəfdarıdır, lakin bu sülh istəyi bizim zəifliyimizdən yox, əksinə, gücümüzdən qaynaqlanır.

Dövlət başçısının çıxışında diqqətçəkən fikirlərindən biri sülhün necə qorunması ilə bağlıdır. Prezident İlham Əliyev tam doğru olaraq bəyan etdi ki, Xocalı soyqırımı və Ermənistanın vəhşilikləri sadəcə keçmişin ağrısı deyil, həm də gələcəyin dərsləridir. Tarixi unutmaq milli sayıqlığı itirməyə yol aça bilər. Buna görə də, faciənin xatirəsi həm də xalqın birliyini qoruyan mənəvi faktor rolunu oynayır: "Biz Xocalı soyqırımını heç vaxt unutmamalıyıq. Ermənistan dövlətinin vəhşiliklərini heç vaxt unutmamalıyıq. Öz tariximizi heç vaxt unutmamalıyıq, ayıq olmalıyıq, həmişə güclü olmalıyıq, həmişə düşmən bizdən qorxmalıdır, necə ki, bu gün qorxur. Məhz bu qorxu nəticəsində bu gün Azərbaycan xalqı sülh içində yaşayır". Prezidentin fikirləri Azərbaycanın gələcək milli təhlükəsizlik strategiyasının və milli yaddaş siyasətinin mənəvi-siyasi sütunlarını təşkil edir. Dövlət başçısı Zəfərdən sonrakı dövr üçün bir növ milli hərəkət planı cızır.

Prezidentimizin "həmişə güclü olmalıyıq" çağırışı göstərir ki, qələbə qazanılsa da, proses bitməyib. Geosiyasi mühit dəyişkəndir və Azərbaycan hər an öz maraqlarını qorumağa hazır olmalıdır. Bu, iqtisadi, hərbi və ideoloji sahələrdə daimi inkişafı nəzərdə tutur. Dövlətimizin başçısı xatırladır ki, bugünkü dinc həyat təsadüfi deyil, keçilən ağır yolun, verilən şəhidlərin və nümayiş etdirilən gücün nəticəsidir.

Müzəffər ordumuz ən gərgin döyüşlər zamanı belə mülki əhalini hədəf almayıb. Bu, dövlətimizin beynəlxalq humanitar hüquqa sadiqliyinin və xalqımızın mənəvi ucalığının göstəricisidir. Ermənistan Gəncə, Bərdə və Tərtərdə mülki insanları bombaladığı halda, Azərbaycan tərəfi yalnız hərbi hədəfləri məhv edib. Bu davranış beynəlxalq arenada Azərbaycana olan hörməti və etimadı daha da artırıb. Dövlət başçısı bu məqama belə diqqət yönəldib: "Mən hələ Vətən müharibəsi dövründə bizim şəhərlərimiz, kəndlərimiz Ermənistan dövləti tərəfindən bombalananda demişdim ki, biz azərbaycanlıyıq, biz müharibəni də müharibənin qaydaları əsasında aparırıq və aparacağıq. Ermənilərdən fərqli olaraq günahsız, əliyalın mülki əhaliyə qarşı heç vaxt müharibə aparmamışıq və bu, bizim xalqımızı daha da ucaltdı".

Azərbaycan lideri "hər zaman güclü olmalıyıq" çağırışını edərkən gücü sadəcə hücum vasitəsi deyil, həm də mütləq qoruyucu faktor kimi diqqətə çatdırır. Tarixi unutmaq xəyanətdir, lakin güclü olmamaq faciəyə dəvətdir. Azərbaycanın bugünkü və gələcək gücü, hərbi qüdrəti xalqımıza qarşı yeni qətliamların baş verməməsi üçün ən böyük sığortadır.

Nəticə etibarilə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan həm döyüş meydanında, həm də hüquq müstəvisində mütləq qələbəsini təmin edərək tarixin ən ağır sınağından alnıaçıq çıxdı. İndi Xocalı bərpaolunan milli ləyaqətin, sarsılmaz birliyin və "dəmir yumruq"la qorunan əbədi sülhün rəmzidir. Bu reallıq keçmişin qisasının alındığının, gələcəyin etibarlı əllərdə olduğunun ən böyük təminatıdır.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***



**SUMQAYIT TƏXRİBATI**
*- erməni millətçilərinin çirkin əməli*



# Erməni məkrinin şantajı

**"Sumqayıt hadisələri erməni millətçilərinin təxribatı idi. Biz bunu açıq deməliyik. Çünki artıq neçə ildir ki, erməni millətçiləri Sumqayıt şəhərinə qara yaxmaq, ləkə vurmaq istəyirlər. Tamamilə əsassızdır və cəfəngdir. Tam məsuliyyətlə deyirəm ki, Sumqayıt hadisələrini törədən erməni millətçiləridir və erməni dəstələridir. Biz hamımız yaxşı bilirik ki, on nəfərə yaxın ermənini öldürən milliyyətcə erməni Qriqoryan və onun quldur dəstəsi idi".**

2019-cu il noyabrın 21-də Prezident İlham Əliyevin Sumqayıtın 70 illiyinə həsr olunmuş tədbirdəki çıxışında qeyd etdiyi kimi, Sumqayıt hadisələri Azərbaycanı ləkələmək və keçmiş Dağlıq Qarabağda separatçılığa haqq qazandırmaq üçün xalqımıza qarşı törədilmiş dövlət səviyyəli təxribat idi. Ancaq 2020-ci il 44 günlük Vətən müharibəsi və 2023-cü ildə həyata keçirilən lokal xarakterli antiterror tədbirləri sayəsində öz ərazi bütövlüyünü və suverenliyini bərpa edən Azərbaycan həm də bu qanlı ssenarilərin qarşısını birdəfəlik almış oldu.

### Hər şey planlaşdırılmış ssenari üzrə baş verib

1980-ci illərin sonu Cənubi Qafqazda erməni separatizminin yenidən alovlandığı dövr oldu. Erməni şovinistləri XIX əsrin sonlarından etibarən formalaşdırdıqları qanlı planlarını - azərbaycanlıları öz tarixi yurdlarından qovmaq və Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağı Ermənistana birləşdirmək niyyətlərini həyata keçirmək üçün fürsət gözləyirdilər. 1988-ci ilin fevralında hadisələr kritik həddə çatdı. Fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) İcraiyyə Komitəsinin azərbaycanlı deputatların iştirakı olmadan qəbul etdiyi qanunsuz "ayrılma" qərarı və fevralın 22-də Əsgəranda iki azərbaycanlı gəncin - Əli Hacıyev və Bəxtiyar Quliyevin qətlə yetirilməsi münaqişənin ilk qığılcımları oldu. Həmin vaxt erməni ideoloqlarına Azərbaycanı dünya ictimaiyyəti qarşısında "təcavüzkar" kimi qələmə vermək üçün daha böyük bir təxribat lazım idi. Məhz bu məqsədlə 27-29 fevral 1988-ci ildə Sumqayıt şəhərində SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin (DTK) himayəsi və erməni ekstremistlərinin birbaşa iştirakı ilə ssenariləşdirilmiş iğtişaşlar törədildi.

Hadisələr öz-özünə deyil, dəqiqliklə hazırlanmış bir plan üzrə cərəyan edirdi. Şahid ifadələri və arxiv sənədləri göstərir ki, Sumqayıtda baş verənlər kortəbii kütləvi iğtişaş deyil, hədəfləri öncədən müəyyən edilmiş bir əməliyyat idi. Təxribatçılar əllərində ermənilərin yaşadıqları ünvanların dəqiq siyahısı ilə hərəkət edirdilər. Hücuma məruz qalanlar yalnız erməni millətçi təşkilatı olan "Krunk" cəmiyyətinə üzvlük haqqı və ya "könüllü" ianə verməkdən imtina edənlər idi.

Şahidlərin ifadələri ilə müəyyən edilib ki, "Krunk" cəmiyyətinə pul köçürən ermənilərin heç birinin evi hücuma məruz qalmayıb, onlar himayə olunub.

Bu, həm də digər ermənilərə bir qorxu mesajı idi.

Sumqayıt hadisələrinin erməni ekstremistləri tərəfindən planlı şəkildə həyata keçirilməsi ilə bağlı çoxsaylı dəlillərdən biri də hadisələrdən bir müddət əvvəl kütləvi şəkildə ermənilərin əmanət kassalarında olan pullarını çıxara bilmələri idi. Belə ki, 1988-ci ilin yanvar ayından etibarən Sumqayıtda yaşayan 1000-dən çox erməni əmanət kassalarındakı vəsaitlərini kütləvi şəkildə çıxarmış və şəhəri tərk etməyə başlamışdı. Bu, onların qarşıdan gələn hadisələrdən xəbərdar olduqlarını sübut edən ən ciddi dəlillərdən biridir.

Həmçinin aparılan istintaqla müəyyənləşdirilib ki, Sumqayıtda bir çox erməni mal-mülklərini öncədən çıxardıqdan sonra kompensasiya almaq məqsədilə öz evlərini yandırıblar.

Bütün bunlar Sumqayıtda planlaşdırılan "faciə ssenarisi"nin proloqu idi.

### Eduard Qriqoryan - öz millətindən olanları qıran erməni cəlladı

Sumqayıt hadisələrinə başçılıq edən şəxs milliyyətcə erməni olan, əvvəllər dəfələrlə cinayət törətmiş Eduard Qriqoryan idi.

Onun başçılığı ilə edilən basqınlar zamanı Sumqayıtda müxtəlif millətlərdən olan 32 nəfər (onlardan 26-sı erməni olub) öldürülmüşdü. Baş verən ixtişaşlarda əsas təşkilatçı və icraçı olan və bir neçə dəfə məhkum edilmiş Eduard Qriqoryan ermənilərin "Krunk" cəmiyyətinin üzvüymüş.

İstintaq materialları ilə təsdiq olunub ki, o, iğtişaşçı dəstələrə rəhbərlik edib və özü 6 ermənini qətlə yetirib. Erməni qadınlarına qarşı zorakılıq hallarında birbaşa iştirak edib. Məhkəmədə zərərçəkən ermənilər



məhz Qriqoryanı öz cəlladları kimi tanımışdılar.

Qriqoryan Azərbaycan məhkəməsi tərəfindən 12 il müddətinə azadlıqdan məhrum edilsə də, cəzasını çəkmək üçün Ermənistana göndərildikdən dərhal sonra "naməlum səbəblər"dən azadlığa buraxılıb. Bu fakt Sumqayıt hadisələrinin kimin maraqlarına xidmət etdiyini bir daha sübut edir.

Sumqayıtın 70 illiyi ilə bağlı tədbirdəki çıxışında Prezident İlham Əliyev də deyib ki, biz hamımız yaxşı bilirik ki, on nəfərə yaxın ermənini öldürən milliyyətcə erməni Qriqoryan və onun quldur dəstəsi idi: "Sonra nə baş verdi? İstintaqı Moskvadan gəlmiş qrup aparırdı, yəni tam ədalətli aparırdı. Verilmiş bütün ifadələr, şahidlərin ifadələri, üzləşmələr sübut etmişdi ki, həmin o Qriqoryan erməni xalqının nümayəndələrini qətlə yetirmişdir".

Dövlətimizin başçısı onu da əlavə edib ki, Qriqoryan həbs edilir, bütün sübutlar təsdiq olunur. Ondan sonra o, cəza çəkmək üçün Ermənistana göndərilir və ancaq orada sərbəst buraxılır: "Bax sual yaranır. On nəfərə yaxın ermənini öldürən bir qatili Ermənistan niyə sərbəst buraxır? Ona görə buraxır ki, o, onların tapşırıqlarını icra edirdi. Sumqayıt hadisələrindən istifadə edib Azərbaycana qarşı qarayaxma kampaniyası daha geniş vüsət almışdır və nəticə etibarilə Dağlıq Qarabağda münaqişə baş vermişdir".

### Yüzlərlə erməni xilas oldu

Erməni təbliğat maşınının yaratmaq istədiyi mənzərənin əksinə olaraq, Sumqayıtdakı iğtişaşlar zamanı sadə azərbaycanlı ailələr böyük cəsarət göstərərək erməni qonşularını öz evlərində gizlətmiş, onları qəzəbli kütlədən və Qriqoryanın dəstəsindən qorumuşdular. Baxmayaraq ki, həmin vaxtlarda indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar ermənilər tərəfindən silah zoruna deportasiya edilir, əmlakları talanır, özlərinə qaşı zorakılıqlar törədilirdi. Həmçinin separatçı qüvvələr DQMV İcraiyyə Komitəsinin sessiyasını çağıraraq Qarabağın Ermənistana birləşdirilməsi kimi qeyri-qanuni qərar qəbul etmiş, azərbaycanlı əhaliyə qarşı təzyiqlərə başlamış, iki gəncimizin qanını tökmüşdülər. Ancaq məhz Azərbaycan xalqının sərgilədiyi humanist münasibət sayəsində təxribatçıların planlaşdırdığı "kütləvi qırğın" ssenarisi baş tutmadı və itkilərin sayı az oldu.

Buna baxmayaraq, ermənilər lobbilərinin köməyi ilə Sumqayıt hadisələrini şişirdərək dünyaya yalan formada çatdırmağa, bu təxribatları guya azərbaycanlıların törətməsi kimi tirajlamağa başladılar. İndiyə qədər də Ermənistan Sumqayıt hadisələrini saxtalaşdıraraq, tarixi faktları təhrif edərək təqdim edir, bəyanatlar verir.

Ötən il Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistan tərəfinin bu hadisələrlə bağlı əsassız bəyanatını şərh edərkən bildirib ki, bu, 1980-ci illərin sonlarından başlayaraq, Ermənistanın Azərbaycana qarşı əsassız və qeyri-qanuni ərazi iddialarını həyata keçirmək məqsədilə zorakılıq əməllərini, Ermənistan ərazisində yaşayan azərbaycanlı əhalinin kütləvi qovulmasını, Azərbaycan xalqına qarşı terroru, etnik zəmində təxribatları və hərbi gücdən istifadəni ört-basdır etmək cəhdləridir. Həmçinin bildirilir ki, Sumqayıtda etnik zəmində törədilən iğtişaş SSRİ və Ermənistan rəhbərliyinin, erməni şovinist ideoloqların və ekstremist təşkilatların öncədən düşünülmüş və planlaşdırılmış məqsədyönlü təxribatlarının tərkib hissəsi idi: "27-29 fevral 1988-ci il tarixli Sumqayıt hadisələri ilə əlaqədar məhkəmə prosesinin nəticələri ilə bağlı təqsirkar bilinən 92 nəfər barəsində həbs cəzası verilib, həmçinin bir nəfər ölüm cəzası alıb.

Müqayisə üçün onu da qeyd etmək istərdik ki, 1980-ci illərin sonlarında Ermənistan SSRİ-də azərbaycanlıların tarix boyu sıx yaşadıqları rayonlardan 300 minə yaxın əhalinin zorla qovulması zamanı 200-dən çox azərbaycanlının ölümündə təqsirli olanlar barəsində heç bir tədbir görülməyib".

### Erməni separatçılığının tabutuna vurulmuş son mismar

Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyan sonradan etiraf edirdi ki, bu proseslər Ermənistanı digər xalqlardan təmizləmək və monoetnik dövlət yaratmaq üçün strateji addım idi. O, 1993-cü il iyulun 23-də "Yerkrapa" terrorçu birliyinin toplantısında erməni şovinistlərinin əsrlərdir həyata keçirdikləri planlarını, xalqımızı deportasiya, işğal, soyqırımı, terror və təxribatlarla necə üz-üzə qoymalarını açıq şəkildə dilə gətirib. Son dövrlər yayılan həmin çıxışında Petrosyan deyib: "Bizim hərəkat hesabına Ermənistan və Dağlıq Qarabağ erməni xalqının 600 il həll edə bilmədiyi problemin öhdəsindən gələ biliblər - Ermənistan və "Artsax" digər xalqlardan tamamilə təmizlənib.

...Təsəvvür edirsinizmi, bu gün 1988-ci elədək burada yaşayan 170 min nəfər digər millətlərin nümayəndələri olsaydı, indi bizim dövlətçiliyimiz yox idi".

Ermənistanı necə monoetnik ölkəyə çevirdiklərini deyən Petrosyan daha sonra açıq şəkildə bildirir ki, Azərbaycanda yaşayan ermənilərin köçünü də məhz özləri təşkil edib: "Əgər biz vaxtında başlamasaydıq, ən yaxşı halda 500 min erməni əsirlikdə olacaqdı (ovaxtadək onlar fiziki cəhətdən məhv edilməsəydilər). Bu, Ermənistanı dizi üstə qoymaq üçün güclü rıçaq ola bilərdi. Bir daha təkrarlayıram ki, onların böyük qismi əzab çəksələr də, bu ermənilər istənilən halda xilas oldular və 300 min nəfərdən çoxu Ermənistanda özlərinə sığınacaq tapdılar. 10-20 ildən sonra həmin 300 min insan bir milyon, yaxud milyon yarım olacaqlar. Milli miqyasda olan daha bir problem bizim hərəkatımızla həllini tapdı".

Faşist Levon Ter-Petrosyanın Ağdamın işğalından sonra etdiyi çıxışı da təkzibolunmaz şəkildə ortaya qoyur ki, Sumqayıt hadisələri məhz erməni şovinistləri tərəfindən həyata keçirilib.

Bəli, Sumqayıt hadisələri erməni məkrinin siyasi şantajı idi. Bu faciənin əsas məqsədi qurbanların sayı deyil, o qurbanlar üzərindən Azərbaycana vurulacaq ləkə, "təcavüzkar" adı idi. Bu sayədə Qarabağın işğalına dünya birliyi qarşısında mənəvi "haqq" qazandırmaq niyyəti güdülürdü.

Ancaq bu gün Qarabağda dalğalanan üçrəngli bayraq ikiəsrlik sərsəm "böyük Ermənistan" planlarının darmadağın edilməsini özündə simvolizə edir.

Fevralın 26-da Prezident İlham Əliyevin Xocalı Soyqırımı Memorialının açılışında bəyan etdiyi kimi: "2023-cü ildə cəmi bir neçə saat davam edən antiterror əməliyyatı nəticəsində qanunsuz xunta rejimi məhv edildi, işğalçılar torpaqlarımızdan qovuldu, ərazilərimizdə qanunsuz məskunlaşmış 15 minlik erməni ordusu tərk-silah edildi və təslim oldu. Bu da erməni separatçılığına, onların tabutuna vurulmuş son mismar idi".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***




# Kəlbəcər və Xocavənd şəhərlərinə, həmçinin Cəbrayılın Horovlu kəndinə növbəti köç









Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam etdirilir.

Bu mərhələdə Kəlbəcər şəhərinə 27 ailə - 118 nəfər, Xocavənd şəhərinə 41 ailə - 138 nəfər, Cəbrayıl rayonunun Horovlu kəndinə isə 40 ailə - 196 nəfər köçürülüb.

Köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

* * *

Fevralın 27-də "Böyük qayıdış" proqramı çərçivəsində yenidən qurulan Kəlbəcər şəhərinə sayca 5-ci köç olub.

Kəlbəcər şəhərinin birinci yaşayış məhəlləsinə sakinlərin köçürülməsi ilə bağlı təşkil olunan mərasimdə Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin və Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər. Ailə başçılarına mənzillərin açarları təqdim olunub. Ailələr sevinc hissi ilə yeni mənzillərində yerləşiblər. Həmin mənzillər fasiləsiz su, elektrik enerjisi, istilik, yüksəksürətli internet xətləri ilə təmin edilib.

Kəlbəcər şəhərinə növbəti köç karvanı ilə 27 ailə, ümumilikdə 118 nəfər köçürülüb. Onların arasında şəhid ailəsi üzvü, müharibə əlili və müharibə veteranları da yer alır. Bununla da şəhərin I yaşayış məhəlləsində birinci mərhələ üzrə ümumilikdə 135 ailənin qayıdışı təmin edilib.

Köçürülən əhali müxtəlif yaş kateqoriyalarını əhatə edir. Əmək qabiliyyətli şəxslər əsasən dövlət və özəl sektorda müxtəlif istiqamətlər üzrə əmək fəaliyyəti ilə məşğul olur, bir sıra dövlət qurumlarında, xidmət, infrastruktur və istehsal sahələrində çalışırlar.

Kəlbəcər şəhərinə qayıdış prosesi mərhələli şəkildə davam etdirilir. Dayanıqlı məskunlaşmanın təmin olunması və sosial infrastrukturun inkişafı istiqamətində tədbirlər ardıcıl olaraq həyata keçirilir.

* * *

Növbəti köç karvanı ilə Xocavənd şəhərinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

Yeni köçən ailələr qarşılandıqdan sonra ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumatlandırılıblar. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr açarları sevinclə qəbul edərək evlərində məskunlaşıblar.

Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını ifadə ediblər. Sakinlər bu tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına azad edən qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla anıb, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və cansağlığı arzulayan sakinlər azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu vurğulayıblar. Bildirilib ki, işğaldan azad olunmuş ərazilərdə bu gün başlayan yeni həyat həm də şəhid və qazilərimizin bizə əmanət etdiyi Zəfərin bəhrəsidir.

* * *

Horovlu kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

Cəbrayıl rayonunun Horovlu kəndinə köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr sevinclə açarları qəbul edərək evlərində məskunlaşıblar.

*AZƏRTAC*

# Ermənistan seçim qarşısındadır

**Ermənistan hazırda mürəkkəb və gərgin seçkiqabağı mərhələyə daxil olub. Həm hakim partiya, həm də müxalifət qüvvələri gizli məsləhətləşmələrdən aktiv siyasi fəaliyyətə keçiblər. Mövcud hakimiyyət sülh gündəliyini təbliğ edir. Müxalif düşərgə isə bu xətti təslim olmaq və milli maraqlardan imtina kimi qələmə verir.**

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi Fuad Abdullayev qəzetimizə açıqlamasında bildirib ki, xüsusilə sülh sazişi konstitusiya dəyişikliyi və mümkün referendum mövzusu siyasi kampaniyanın əsas ideya xəttinə çervilib. Ölkədə bəzi partiyalar qurultaylar keçirir, seçki siyahılarını hazırlayır, elektoratın səfərbər olmasına yönəlmiş addımlar atır, regionlara səfərlər edir, yeni ofislər açılır. "Hətta bu dövrdə yeni bir sıra siyasi partiyalar da təsis edilir, digərlərinin yaradılacağı ilə bağlı açıqlamalar verilir. İri siyasi blokların formalaşdırılması istiqamətində isə intensiv fəaliyyət müşahidə olunur. Hazırkı real daxili ictimai-siyasi vəziyyətə gəlincə isə müxalifət qanadında üç iri siyasi blokun formalaşdığını müşahidə etmək olar. Bunlar Robert Köçəryan, Samvel Karapetyan, Gagik Tsarukyanın ətrafında birləşən siyasi partiyalardır. Bu üç qüvvə hakim partiyaya qarşı ciddi təhlükə yarada biləcək qüvvələr kimi qiymətləndirilirlər. Belə ki, onların seçkinin nəticəsinə görə koalisiyaya gedərək "Gümrü-2" ssenarisini təkrarlayacaqları ehtimalı irəli sürülür", - deyə o bildirib.



Siyasi şərhçi qeyd edib ki, buna paralel olaraq digər müxalif partiyalar da seçkilərdə koalisiya şəklində iştirak etmək üçün danışıqlar aparırlar. Bu, müxalifət düşərgəsində aktiv siyasi hərəkətliliyin və strukturlaşma prosesinin getdiyini bir daha göstərir. Ümumilikdə hadisələrin təhlili müxalif qanadında hazırkı hakimiyyətin dəyişməsinin zəruriliyində konsensus formalaşdığını və bunun ideoloji yaxınlıqdan çox, Paşinyan hakimiyyətinə qarşı ümumi narazılıq üzərində qurulduğunu deməyə əsas verir. Bu amil müxalifətin əsas mobilizasiya resursuna çevrilib.

Ekspert qeyd eidb ki, digər mühüm məqam isə hakimiyyətlə kilsə arasında qarşıdurmadır: "Kilsə Ermənistan cəmiyyətində çox ciddi təsirə malikdir. Son bir-iki aydır bu mübarizədə baş nazir Nikol Paşinyanın müəyyən qədər geri çəkildiyini müşahidə edirik. Həm diaspor strukturlarından, həm də ölkə daxilində hakimiyyətin Apostol kilsəsinin rəhbərinə qarşı fəaliyyətinin dayandırılması ilə bağlı ciddi təzyiqlər var. Ermənistan mətbuatında kilsə islahatlarını dəstəkləmiş bir neçə yepiskopun artıq peşman olduğuna və II Qaregini yenidən dəstəklədiklərinə dair məlumatlar var. Bu isə onu deməyə əsas verir ki, bu mübarizədə Paşinyan ciddi nəticə əldə edə bilmir".

F.Abdullayev bildirib ki, Apostol kilsəsinin də seçkilərdə üç iri siyasi bloka dəstək verəcəyi ehtimalı yüksəkdir. Bütün bu faktorlar hazırda Ermənistanda seçkiqabağı mərhələnin qeyri-müəyyənlik fonunda formalaşdığını göstərir. Seçki prosesi təkcə siyasi rəqabət deyil, dövlətin gələcək ideoloji və geosiyasi xəttinin müəyyənləşməsi mərhələsi kimi çıxış edir.

Seçkilərin nəticələri barədə mövcud qeyri-müəyyənlik fonunda proqnoz verməyin çətin olduğunu deyən siyasi şərhçi əlavə edib ki, seçkinin nəticəsi Ermənistanın sülh prosesinə real münasibətini müəyyən edəcək və əsas siyasi filtr rolunu oynayacaq. Əgər Ermənistan cəmiyyəti sülhü seçsə, seçkinin nəticəsində mövcud hakimiyyət qalib gəlsə, bu, təbii ki, Azərbaycanla sülh sazişinin imzalanması ehtimalını xeyli artıracaq. "Lakin müxalif revanşist xəttin güclənməsi sülh gündəliyini ciddi şəkildə zəiflədə, hətta onu dayandıra bilər. Çünki hazırkı müxalif blokların nümayəndələrinin açıqlamaları göstərir ki, onların siyasi xətti daha çox revanşist ritorika üzərində qurulub və sülhə skeptik yanaşırlar. Bu ssenaridə konstitusiyaya dəyişiklik və referendum ehtimalı formal prosedura çevrilə bilər və ya bu məsələdən, ümumiyyətlə, imtina edilə bilər. Ümumilikdə hazırkı şəraitdə hadisələrin necə inkişaf edəcəyini demək çətindir. Lakin bu seçkilərin Ermənistan üçün təkcə hakimiyyət bölgüsü deyil, sülh və qarşıdurma arasında strateji seçim mərhələsi olduğunu dəqiq qeyd etmək olar".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Xocalı bizim ümumi yaddaşımızın canlı rəmzidir

**"Hazırkı mərhələdə Xocalı soyqırımının aparıcı beynəlxalq təşkilatlar tərəfindən hüquqi baxımdan tanınması son dərəcə mürəkkəb və uzunmüddətli proses olaraq qalır".**




Bunu israilli politoloq, İsrail-Azərbaycan "Azİz" Beynəlxalq Assosiasiyasının III prezidenti Lev Spivak Xocalı faciəsinin beynəlxalq səviyyədə tanınması istiqamətində mövcud çətinliklər və İsraildə həyata keçirilən maarifləndirmə təşəbbüsləri barədə AZƏRTAC-a açıqlamasında bildirib.

Onun sözlərinə görə, Azərbaycan-Ermənistan münaqişəsi kontekstində baş verən hadisələr beynəlxalq müstəvidə tez-tez qeyri-birmənalı şəkildə şərh olunur, Avropa siyasi dairələrində və mediada isə hələ də ikili standartlar öz təsirini saxlayır: "Bu maneələri aşmaq, mövcud yanaşmaları dəyişmək üçün illər, bəlkə də onilliklər tələb oluna bilər. Lakin bu, bizim geri çəkilməli olduğumuz anlamına gəlmir".

Lev Spivak vurğulayıb ki, əsas vəzifə Xocalı faciəsinin unudulmasına imkan verməməkdir. Bu ağrını yaddaşdan silməmək bizim borcumuzdur. Yalnız kollektiv yaddaş bu cür faciələrin bir daha təkrarlanmamasına təminat verə bilər.

İsrailli politoloq bildirib ki, İsraildə Xocalı qurbanlarının xatirəsinə həsr olunmuş anım tədbirləri hər il mütəmadi şəkildə keçirilir. Biz bu tədbirləri hər dəfə fərqli şəhərlərdə və müxtəlif formatlarda təşkil etməyə çalışırıq ki, təkcə Azərbaycan icması və azərbaycanlılar deyil, Xocalı haqqında əvvəllər heç nə eşitməmiş israillilər də bu faciə ilə tanış olsunlar. Anım tədbirlərində İsrail hökumət üzvləri, Knessetin deputatları, Azərbaycan siyasətçiləri, Milli Məclisin deputatları, şəhər merləri və onların müavinləri iştirak edirlər. Tədbirlərin formatı isə elmi konfranslardan və fotosərgilərdən tutmuş xeyriyyə məqsədli klassik musiqi konsertlərinədək geniş spektri əhatə edir. Bu çərçivədə sənədli filmlər nümayiş etdirilir, Xocalı həqiqətləri barədə dolğun məlumatlar təqdim olunur.

İsraildə salınmış "Xocalı 613" xatirə meşəsinin əhəmiyyətini xüsusi olaraq vurğulayan Lev Spivak deyib: "Bu meşə Prezident meşəsində, İsrailin ilk prezidenti Xaim Veytsmanın adını daşıyan ərazidə salınıb və Xocalıda həlak olmuş 613 nəfərin hər birinin xatirəsinə həsr olunub. Bu, bizim ümumi yaddaşımızın canlı rəmzidir. Yerli sakinlər bəzən bu mövzunun gündəmdə saxlanılmasının səbəbini soruşurlar. Biz onlara deyirik ki, ətrafınıza baxın. Bu cür faciələr bu gün də dünyanın müxtəlif yerlərində baş verir. Yaxınlığınızda yaşayan bir insan üçün Xocalı, sadəcə, tarix deyil, şəxsi ağrıdır".

Lev Spivak qeyd edib ki, fotosərgilərdə tez-tez Xocalı faciəsini əks etdirən məşhur bir foto nümayiş olunur. Həmin fotodakı şəxs bu gün İsraildə, Netaniya şəhərində yaşayır və tədbirlərə qatılaraq deyir: "Mən buradayam, İsrail vətəndaşıyam və bu, mənim ağrımdır. Canlı şahidlər danışanda insanlar bu tarixə daha dərindən anlayış və hörmətlə yanaşmağa başlayırlar".

Politoloq sonda vurğulayıb ki, Xocalı faciəsinin beynəlxalq miqyasda tanıdılması üçün bu cür təşəbbüslər dünyanın müxtəlif ölkələrində davam etdirilməlidir.

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2026-cı ilin mart ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Daxili işlər naziri** Vilayət Eyvazov | Yevlax | Yevlax, Mingəçevir, Ağdaş, Ucar, Kürdəmir | 02 |
| 2. | **Baş prokuror** Kamran Əliyev | Kürdəmir | Kürdəmir, Ucar, Ağdaş, Göyçay, Zərdab, Ağcabədi | 04 |
| 3. | **Gənclər və idman naziri** Fərid Qayıbov | Şirvan | Şirvan, Hacıqabul | 04 |
| 4. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | Şuşa | Şuşa, Xankəndi, Xocalı | 04 |
| 5. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | Neftçala | Neftçala, Salyan | 05 |
| 6. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | Saatlı | Saatlı, İmişli, Sabirabad, Şirvan | 05 |
| 7. | **Ədliyyə naziri** Fərid Əhmədov | Qobustan | Qobustan, Sumqayıt, Abşeron, Xızı, Qubadlı, Zəngilan | 06 |
| 8. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | Xankəndi | Xankəndi, Ağdərə, Xocalı | 06 |
| 9. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | Lənkəran | Lənkəran, Astara, Lerik | 06 |
| 10. | **Elm və təhsil naziri** Emin Əmrullayev | Şuşa | Şuşa | 11 |
| 11. | **Ekologiya və təbii sərvətlər naziri** Rəşad İsmayılov | Şabran | Şabran, Xaçmaz, Siyəzən, Xızı | 12 |
| 12. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | Şirvan | Şirvan, Hacıqabul, Salyan, Neftçala, Biləsuvar | 12 |
| 13. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | Laçın | Laçın | 13 |
| 14. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | Qəbələ | Qəbələ, Oğuz, İsmayıllı, Ağdaş | 13 |
| 15. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | Ağdam | Ağdam, Füzuli, Xocavənd | 13 |
| 16. | **Mədəniyyət naziri** Adil Kərimli | Hacıqabul | Hacıqabul, Şirvan, Salyan, Neftçala, Biləsuvar | 13 |
| 17. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | Qobustan | Qobustan, Şamaxı | 13 |
| 18. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | Bərdə | Bərdə, Tərtər, Ağcabədi, Ağdam, Füzuli, Laçın, Xocalı | 13 |
| 19. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | Abşeron | Abşeron, Zəngilan | 13 |
| 20. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | Kəlbəcər | Kəlbəcər | 13 |
| 21. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | Salyan | Salyan, Şirvan, Hacıqabul, Neftçala, Biləsuvar | 16 |
| 22. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | Cəbrayıl | Cəbrayıl, Qubadlı, Zəngilan | 16 |
| 23. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | Göygöl | Göygöl, Daşkəsən | 17 |
| 24. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Vüsal Nəsirli | Naftalan | Naftalan, Goranboy | 18 |
| 25. | **Energetika naziri** Pərviz Şahbazov | Ağsu | Ağsu, Şamaxı, Göyçay, İsmayıllı, Kürdəmir | 19 |
| 26. | **"Azəristiliktəchizat" ASC-nin sədri** İlham Mirzəliyev | İmişli | İmişli, Saatlı, Sabirabad | 19 |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# "Xocalıda baş verənlər dinc əhaliyə qarşı törədilmiş açıq soyqırımıdır"

**"Xocalı soyqırımı bütün Azərbaycan xalqının ümummilli faciəsidir. Amma təəssüf ki, beynəlxalq aləm bu faciəyə lazımi diqqət göstərməyib".**



Bunu ukraynalı politoloq Aleksandr Oxrimenko AZƏRTAC-a açıqlamasında bildirib.

Onun sözlərinə görə, Ermənistan silahlı birləşmələri tərəfindən dinc əhaliyə qarşı törədilmiş qətliamın beynəlxalq ictimaiyyət tərəfindən görməzdən gəlinməsi açıq-aşkar ikili standartların təzahürüdür: "Ermənistanın Azərbaycana qarşı apardığı müharibə zamanı baş vermiş real cinayətlərə beynəlxalq siyasətdə göz yumulur. Bu isə çox təhlükəli yanaşmadır".

Aleksandr Oxrimenko qeyd edib ki, bəzi beynəlxalq səviyyəli siyasətçilər müharibəni və erməni silahlı dəstələrinin törətdiyi ağır cinayətləri ört-basdır etməyə, onlara haqq qazandırmağa çalışırlar. Bu, bir çox siyasətçilərin ciddi problemidir. Onlar soyqırımı faktlarını görmək istəmir, həqiqəti qəbul etməkdən yayınırlar.

Politoloqun fikrincə, Xocalı soyqırımının beynəlxalq siyasətdə lazımi qiymət almaması bir daha göstərir ki, bəzi dairələr reallığı deyil, özlərinə sərf edən yalanı üstün tuturlar: "Xocalıda baş verənlər təsadüfi hadisə və ya xırda insident deyil, dinc əhaliyə qarşı törədilmiş açıq soyqırımıdır. Qadınların, uşaqların, qocaların öldürülməsi faktı mövcuddur və bunu inkar etmək mümkün deyil".

Aleksandr Oxrimenko vurğulayıb ki, bu cür yanaşma yalnız Azərbaycanla bağlı deyil, beynəlxalq siyasətdə ümumi tendensiyadır: "Təəssüf ki, oxşar vəziyyət bu gün Ukrayna ilə bağlı məsələlərdə də müşahidə olunur. Rusiya hərbi birləşmələrinin törətdiyi real cinayətlər ya susdurulur, ya da sanki baş verməmiş kimi təqdim edilir. Bu isə beynəlxalq siyasətdə həqiqətə deyil, maraqlara söykənən yanaşmanın bariz nümunəsidir".

Ukraynalı politoloq hesab edir ki, Xocalı soyqırımı kimi ağır cinayətlərə obyektiv və ədalətli münasibət göstərilmədən beynəlxalq hüququn etibarı və bəşəri dəyərləri qoruna bilməz.

# Azərbaycan-ABŞ münasibətləri: strateji tərəfdaşlıqdan qlobal əməkdaşlığa

**Azərbaycanın yerləşdiyi regionda baş verən prosesləri artıq qlobal geosiyasət kontekstində nəzərdən keçirmək zərurəti yaranıb. Onu şərtləndirən bir neçə faktor mövcuddur. Hər şeydən öncə, Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı tarixi qələbənin regional miqyasda yeni geosiyasi mənzərə və dinamika yaratdığının birmənalı şəkildə qəbul edilməsini vurğulamaq lazımdır. Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə fikir bildirmişdir. Dövlət başçısı çox müxtəlif beynəlxalq tədbirlərdə 44 günlük Vətən müharibəsi və 23 saatlıq antiterror əməliyyatlarının əsrlərlə regionda davam edən geosiyasi pozuculuq prosesinə öldürücü və həlledici zərbə vurduğunu ayrıca ifadə etmişdir.**



Ancaq ölkə rəhbəri İlham Əliyev o qədər əsaslı, ədalətli və qətiyyətli siyasət yeridir ki, indi bütün opponentlər nəinki Azərbaycan Prezidentinin irəli sürdüyü tezisi qəbul edir, hətta Bakı ilə əməkdaşlığın yeni formatları ilə bağlı təkliflər irəli sürürlər. ABŞ-dən sonra Fransa rəhbərliyinin bu istiqamətə yönəlməsi bunun bariz göstəricisidir.

Digər mühüm faktor Azərbaycanın davamlı olaraq regional miqyasda böyük əhəmiyyəti olan siyasi, sosial, iqtisadi, enerji, mədəniyyət və təhlükəsizlik addımlarını atması nəticəsində Cənubi Qafqazın infrastruktur sistem kimi Mərkəzi Asiya, Yaxın Şərq və Avropa ilə əlaqələrinin konkret cizgilər alması ilə bağlıdır. Hazırda bizim region vurğulanan istiqamətlərdə vahid sistem olaraq fəaliyyət göstərməyə başlamışdır. Cəmi 3-4 il əvvəl bunu hətta böyük dövlətlər belə təsəvvür edə bilmirdilər. Günümüzdə isə "C5+1"-dən danışırlar, Azərbaycan Prezidentini Yaxın Şərqdə sülhün və təhlükəsizliyin təmin edilməsi prosesinə dəvət edirlər, ölkəmizi qlobal miqyasda alternativ sülh mexanizmi kimi irəli sürülmüş Sülh Şurasının üzv dövlətlərindən biri kimi tanıyırlar, Azərbaycanı Türk Dövlətləri Təşkilatının (TDT) fəal üzvü olaraq qəbul edirlər və sairə.

Nəhayət, Cənubi Qafqazın müasir geosiyasətin mühüm altsistemi kimi qəbul olunmasının Azərbaycanla bağlı başqa bir faktoru Zəngəzur dəhlizinin Orta dəhliz kontekstində dünya siyasətinin gündəmində xüsusi yer tutmasına nail olunması ilə əlaqəlidir.

ABŞ-nin vitse-prezidenti Cey.Di.Vensin Azərbaycana səfərinə və Bakıda imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın geosiyasi qiymətləndirilməsinə yuxarıda vurğuladığımız məqamlar müstəvisində yanaşmaq daha adekvat olardı.

## Cey. Di. Vensin səfəri

Beyin mərkəzləri və ekspert dairələri Cey. Di. Vensin səfərini "strateji tərəfdaşlıqdan qlobal əməkdaşlığa" istiqamətlənmiş addım kimi qiymətləndirirlər. Bu kontekstdə bir neçə əhəmiyyətli geosiyasi faktor önə çəkilir. Məsələn, yeni mərhələdə Azərbaycan-ABŞ münasibətlərində təhlükəsizlik, enerji və sülh gündəliyinin formalaşdığı, təhlükəsizlik sahəsində əməkdaşlığın strateji dayaqlarının daha da möhkəmləndiyi, enerji təhlükəsizliyi məsələsində Bakının qlobal və regional sabitləşdirici faktor kimi rolunun yeni məzmun çaları əldə etdiyi, ümumiyyətlə, yeni siyasi mərhələnin başladığı, ABŞ-nin vitse-prezidentinin Azərbaycana səfərinin regional sabitlik, iqtisadi əməkdaşlıq və inteqrasiya baxımından əhəmiyyəti xüsusi vurğulanır, "Cənubi Qafqaz üçün inkişaf "resepti": iqtisadi diplomatiya və TRIPP təşəbbüsü" tezisi irəli sürülür və bütün bunlar regional miqyasda "yeni konturlar" kateqoriyasının elementləri kimi təqdim olunur.

Başqa bir yanaşmada isə vurğulanır: "Yeni dünya düzəninin qurulması prosesi qlobal güclərin Cənubi Qafqaz regionuna olan marağını artırıb. Xüsusən Ermənistanla Azərbaycan arasında müharibənin başa çatması, aparılan sülh danışıqları bölgəmizi geniş əməkdaşlıq platformasına çevirib".

Ekspertlər sırasında Cey. Di. Vensin Bakıya səfərini ABŞ-nin Azərbaycanı müstəqil güc kimi qəbul etməsinin başlıca əlaməti kimi qiymətləndirənlər də vardır. Bu fonda ABŞ vitse-prezidentinin səfəri hətta 2026-cı ilin başlanğıcının "açar hadisəsi" kimi xarakterizə olunur.

Bir sıra ekspertlər Cey. Di. Vensin səfərinə regional bağlantılar, iqtisadi sərmayələr və təhlükəsizlik sahəsində əməkdaşlıq aspektlərində yanaşaraq, onu ABŞ-Azərbaycan münasibətlərində "qarşılıqlı anlaşma və perspektivlər" dönəmi kimi dəyərləndirirlər.

Səfərə maraqlı reaksiyalardan biri də Cey.Di.Vensin öz bəyanatı olmuşdur. ABŞ-nin vitse-prezidenti Azərbaycan Prezidenti İlham Əliyev ilə mətbuata birgə bəyanatında bildirmişdir ki, "Hazırda sülh sazişi baxımından düşünürəm ki, Prezident Əliyev həqiqətən böyük təşəkkürə layiqdir. ...gələcəkdə bir vaxtlar yalnız mübarizə və münaqişə olan yerdə əmin-amanlıq yaranacaq. Bu, Prezident Əliyevin liderliyinin və rəhbərliyinin bariz nümunəsidir... Bir halda ki, biz ticarətlə məşğul ola, tərəfdaşlıq qura biləriksə, nəyə görə biz bir-birimizlə vuruşmalıyıq?!"

Göründüyü kimi, ABŞ rəsmisi tezisini ABŞ-Azərbaycan münasibətləri, region və qlobal miqyas kontesktində əsaslandırmışdır. Cey.Di.Vensin Azərbaycana səfərinə siyasi və ekspert dairələri səviyyəsində verilən reaksiyalarda da milli, regional və qlobal kontekstlər bir-biri ilə sıx əlaqədə özünü göstərir. Bu, həm ABŞ-nin Cənubi Qafqazda proseslərə, əsasən, "Azərbaycan prizmasından" baxdığını, həm də geniş geosiyasi məkanda regionlararası əlaqələrin təkamülündə Bakıya xüsusi önəm verdiyini göstərir.

Bu ümumi geosiyasi mənzərənin fonunda Azərbaycanla ABŞ arasında imzalanan mühüm sənədin siyasi və geosiyasi məzmunu xüsusi maraq doğurur.

## Strateji Tərəfdaşlıq haqqında Xartiya

Prezident İlham Əliyev ABŞ-nin vitse-prezidentinin ölkəmizə səfəri çərçivəsində imzalanmış Strateji Tərəfdaşlıq haqqında Xartiyanı "tarixi sənəd" adlandırmışdır. Həmin sənəd, sözün həqiqi mənasında, Azərbaycanın xarici siyasətinin prioritetləri kontekstində tarixi mahiyyət daşıyır. Birincisi, Strateji Tərəfdaşlıq haqqında Xartiya yalnız Azərbaycanın siyasi və geosiyasi müstəqilliyinin etirafının hüquqi təsbiti deyil. "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə dövlətimizin başçısı qeyd etmişdir ki, sözügedən xartiya "data mərkəzləri, rəqəmsallaşma, süni intellekt və bu sahədəki Amerika şirkətləri ilə sıx əməkdaşlığı" əhatə edir. Və "bu, bizim üstünlüyümüzdür". Yəni, strateji mahiyyətli sənəddə Azərbaycanın ən yeni texnologiyalara yiyələnməsi mexanizmi də dəqiqliklə nəzərə alınmışdır. İqtisadi, enerji və nəqliyyat-kommunikasiya sferalarına qoyulacaq sərmayələri də nəzərə alsaq, söhbətin, faktiki olaraq, əhatəli inkişaf strategiyasından getdiyini görərik.

Xartiyanın preambulasında bu məqam konkret bənddə aşağıdakı kimi ifadə edilmişdir: Tərəflər "regional bağlantılar, iqtisadi sərmayə və təhlükəsizlik əməkdaşlığı da daxil olmaqla, qarşılıqlı maraq və ortaq fayda doğuran sahələrdə strateji tərəfdaşlıqlarının əhəmiyyətini təsdiqləyirlər".

5-ci bənddə isə bu prosesin dövlət sektoru ilə yanaşı, özəl sektoru da əhatə edəcəyi xüsusi vurğulanır. Bu isə təsadüfi deyil, çünki hər iki dövlət qarşıya qoyulan məqsədlərə bütün mövcud imkanlar daxilində nail olmağı hədəfləyir.

5-ci bəndin məzmunu aşağıdakı kimidir: Tərəflər "strateji tərəfdaşlığın və genişləndirilmiş əməkdaşlığın planlaşdırılması və həyata keçirilməsinə yalnız dövlət qurumlarının deyil, həm də hər iki ölkənin özəl sektorlarının cəlb edilməsinin mühüm əhəmiyyətini təsdiqləyirlər".

Bundan əvvəlki bənddə isə maraqlı bir məqsəd xüsusi qeyd edilmişdir. Tərəflər qarşılıqlı maraq doğuran bütün məsələlər üzrə getdikcə daha güclü əməkdaşlıq etmək niyyətlərini açıq ifadə etmişlər. Bu, əməkdaşlığın və qarşılıqlı dəstəyin davamlı, əhatəli və getdikcə daha da güclənən dinamik bir proses olaraq qəbul edilməsi anlamına gəlir.

4-cü bənddə göstərilir: tərəflər "diplomatik, iqtisadi, enerji, texnoloji və təhlükəsizlik sahələri də daxil olmaqla, qarşılıqlı maraq doğuran məsələlərdə münasibətləri gücləndirmək üçün birgə niyyətlərini vurğulayırlar".

Bütün bunlar fəaliyyət istiqamətlərinin konkret mexanizmi, məzmunu və məqsədləri ilə bağlıdır. Sənəddə qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün siyasi, geosiyasi və hüquqi iradə də dəqiq ifadə edilmişdir. Bu, 1-ci və 2-ci bəndlərdə öz əksini tapmışdır. Həmin bəndlərdə yazılmışdır: Tərəflər "1. İkitərəfli münasibətlərinin əsası kimi bir-birinin suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını dəstəklədiklərini bir daha təsdiqləyirlər; 2. 8 avqust 2025-ci il tarixində Vaşinqton şəhərində imzalanmış Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumundan çıxış edirlər".

Buradan aydın görünür ki, Azərbaycan hər bir strateji sənədin əvvəlində özü üçün prinsipial əhəmiyyət daşıyan müddəanı şərt kimi müəyyən edir. Türkiyə və Rusiya ilə imzalanmış strateji müttəfiqlik sənədlərində də həmin qayda mövcuddur. O, tərəflərin "bir-birinin suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını dəstəklədikləri" ilə bağlıdır.

Bu xüsusiyyət göstərir ki, Azərbaycan imzaladığı hər bir sənədə xarici siyasətin prioritetləri sırasında ilk yerdə dayanan suverenlik, müstəqillik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və bir-birinin daxili işlərinə qarışmamağı öncə nəzərə almaqla yanaşır.

ABŞ və Rusiya dünyanın böyük dövlətləridirlər, Türkiyə isə siyasi, geosiyasi, etnik, mədəni, strateji məqsəd baxımından qardaş dövlətdir. Ancaq dövlətlərarası münasibətlər Azərbaycan üçün bərabərhüquqluluq prinsipi əsasında qurulur.

Buna görə də ABŞ ilə imzalanan Strateji Tərəfdaşlıq Xartiyası yeni tarixi mərhələdə Prezident İlham Əliyevin müəyyən etdiyi xarici siyasətin prioritetlərinə tam uyğundur. Həmin sənəd Azərbaycan dövlətinin xarici siyasət kursunun strateji məqsədlərinə xidmət edir. Əlbəttə, bu, yalnız Azərbaycan üçün deyil, həm də bütövlükdə Cənubi Qafqaz regionu üçün böyük tarixi hadisədir.

İkincisi, imzalanan strateji tərəfdaşlıq sənədində yer almış bölmələr kompleks halda vahid məzmun və məqsədə malik sistemi xatırladır. Həmin bölmələr aşağıdakı kimi müəyyən olunmuşdur: regional bağlantılar; iqtisadi sərmayələr; təhlükəsizlik əməkdaşlığı; institusional çərçivə və tətbiq.

Bu bölmələrin hər birinin əsas tərkib hissələri də müəyyən edilmişdir. Belə ki, birinci bölmə üçün enerji, ticarət və tranzit, ikinci bölmə üçün süni intellekt (AI) və rəqəmsal infrastruktur, üçüncü bölmə üçün müdafiə və təhlükəsizlik əməkdaşlığı, terrorizm təhdidinə qarşı birgə mübarizə, kibertəhlükəsizlik və mühüm infrastrukturun mühafizəsi, "humanitar ekologiya" mühitinin (məsələn, minatəmizləmə sferasında) yaradılması, dördüncü bölmə üçün isə əməkdaşlığın bütün sferalarını əhatə edən istiqamətlərin institutlaşmasını nəzərdə tutan xüsusi işçi qruplarının yaradılması əsas sayılır.

## Müxtəlif sahələrdə fəaliyyətin sinxronlaşdırılması

Xartiyanın bölmələrinin əsas tərkib hissələrinin məzmunu və məqsədi mütləq surətdə Azərbaycanla ABŞ-nin sinxron fəaliyyətini tələb edir. Burada maraqlı iyerarxik mənzərə yaranır. Birinci bölmədə nəqliyyat və ticarət faktorları enerji ilə vahid kontekstdə götürülür.

İkinci bölmə müasir ən yeni texnologiyalar və elmi nəticələrdən qarşıya qoyulan məqsədlərə varmaq üçün maksimum istifadəni diqqət mərkəzinə gətirir. Bu zaman süni intellekt və rəqəmsal infrastrukturun ön plana çıxarılması strategiyada iki ölkə arasında əməkdaşlığın elm, təhsil, informasiya, idarəetmə və mədəniyyət aspektlərində aparıcı rol oynayacağına əsas yaradır.

Bu kimi məqsədlərə nail olmaq üçün tərəflər təhlükəsizliyin bütün istiqamətlərdə təmin edilməsinə ciddi önəm verirlər. Həmin məqam üçüncü bölmənin başlıca məzmun və məqsədlərində ifadəsini tapmışdır. Bu, çox əhəmiyyətli və lazımlı yanaşmadır. Çünki sabitlik, təhlükəsizlik olmayan mühitdə praktiki nəticə əldə etmək mümkün deyil. Müdafiə gücünün artırılması (müdafiə sənayesinin inkişafı da daxil olmaqla), kibertəhlükəsizlik və terrorla mübarizənin bir sistem-strukturda cəmləşməsi tarixi mahiyyət kəsb edir. Bu prosesdə Türkiyənin müsbət rolunu və imkanlarını nəzərə alsaq, Azərbaycanın şansının xeyli çox olduğu qənaətinə gəlmək olar.

Burada bizim "humanitar ekologiya" adlandırdığımız faktor strateji vacibliyi böyük olan məsələ kimi qəbul edilməlidir. Sənəddə həmin özəllik minatəmizləmə sferası ilə bağlı təqdim edilmişdir. Bu, mülki bir prosesdir. Yəni dinc insanların həyatlarının qorunması istiqamətində atılmış mühüm humanitar addımdır.

Müasir dövr üçün "humanitar ekologiya" ön sıraya çıxan strateji məsələdir. Çünki təhdidlər, risklər və ciddi ekoloji problemlərin üstünlük təşkil etdiyi bir dönəmdə insanın həyatının qorunmasından qiymətli başqa dəyər ola bilməz.

Nəhayət, sənədin dördüncü bölməsi sinxron fəaliyyətin təmin edilməsi baxımından çox mühümdür. Burada söhbət institutlaşmadan gedir. Bunun üçün səmərəli işləyən işçi qrupları yaradılmalıdır. Bu o deməkdir ki, işin təşkili və onun müsbət nəticələrinin əldə olunması öncədən planlaşdırılmış fəaliyyət mexanizmi əsasında həyata keçiriləcəkdir. Bu da tərəflərin münasibətlərə dərin, əhatəli və tam əsaslı yanaşmaq niyyətində olduqlarını göstərir. Həmin kontekstdə Xartiyada yer almış aşağıdakı fikilər çox əhəmiyyətlidir: "Müvafiq işçi qrupları hazırkı xartiyanın imzalanmasından sonrakı üç ay ərzində layihələrin siyahısını və onların həyata keçirilməsi üçün yol xəritələrini razılaşdırmaq niyyətindədirlər.

Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları hazırkı xartiya çərçivəsində ildə ən azı bir dəfə müntəzəm olaraq görüş təşkil etmək niyyətindədirlər və tərəfdaşlıqlarının həyata keçirilməsi üçün zəruri olan və qarşılıqlı surətdə müəyyən edilmiş digər dialoq platformaları yarada bilərlər".

## Azərbaycan-ABŞ münasibətləri və qlobal güc balansı

Bir sıra ekspertlər hesab edirlər ki, Azərbaycanla ABŞ-nin imzaladığı Strateji Tərəfdaşlıq Xartiyası bütövlükdə qlobal güc balansını dəyişir. Bu, maraqlı qiymətləndirmədir, çünki XXI əsrin gəlişi ilə tədqiqatçılar dünyada güc balansının xarakterinin dəyişdiyi qənaətindədirlər. Onun başlıca əlaməti kimi çoxqütblülüyü deyil, çoxtərəfliliyi vurğulayırlar. "Çoxtərəflilik" geosiyasi kontekstdə iki əlaməti özündə ehtiva edir. Birincisi, dünya sərt fərqli mövqeləri olan bloklara və ya qütblərə bölünmür. İkincisi, əsas qərarlar bir dövlət tərəfindən deyil, qlobal geosiyasətin fəal aktoru olan dövlətlər qrupu tərəfindən qəbul edilir. Bu isə dünya miqyasında mütəhərrik çoxtərəfli əməkdaşlıq və tənzimləmə mexanizmlərinin yaradılmasını tələb edir.

Eyni zamanda həmin mexanizmlər dünya səviyyəsində gücləri balanslaşdırmalıdır. Məhz vurğulanan anlamda ABŞ-Azərbaycan Strateji Tərəfdaşlıq Xartiyasının qlobal güc balansını dəyişməklə əlaqəli qiymətləndirilməsi vacib bir qənaətdir. Məsələ həm də onunla bağlıdır ki, Azərbaycan ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə təşkil edilmiş Sülh Şurasının qurucu dövlətlərindən biri kimi qəbul edilmişdir. Deməli, xartiya dövlətlər qrupu olan Sülh Şurasında Azərbaycanın aktiv iştirakı baxımından da vacib siyasi-hüquqi sənəddir.

Xarici siyasət kursu nöqteyi-nəzərindən vurğulanan yeni məqam onu göstərir ki, ölkənin xarici siyasət prioritetləri kompleks şəkildə Azərbaycan dövlətinin dünya miqyasında geosiyasi yeri və rolunun yeni səviyyəyə yüksəldilməsinə xidmət etməlidir. Bu da öz növbəsində Azərbaycanın dövlət identikliyinin XXI əsrin tələbləri aspektində yeni məna çaları almağa başladığını göstərir. Təbii ki, bu proses Azərbaycanın başqa istiqamətlərdə də fəaliyyətində yeni məqamları meydana gətirəcəkdir. Həmin kontekstdə Sülh Şurasının təsisçilərindən biri kimi Azərbaycan beynəlxalq platformalarda fəal iştirak etməklə, sülh gündəliyinin formalaşmasına və qlobal etimadın güclənməsinə töhfə verəcəkdir.

***Kamal ADIGÖZƏLOV,***
***beynəlxalq münasibətlər üzrə ekspert***

# Keçən il yeni açılmış iş yerlərinin 90 faizindən çoxu qeyri-dövlət sektorunun payına düşür

**Azərbaycanda əhalinin məşğulluğunun təmin edilməsi prioritetlər sırasında olan, bu səbəbdən də gündəmdən düşməyən məsələdir. Bu, Prezident İlham Əliyevin yürütdüyü sosial siyasətin, eləcə də həyata keçirilən sosial islahatların ayrılmaz hissəsini təşkil edir.**

21 ildən çoxdur ki, regionların tarazlı inkişafı bölgələrdə çoxsaylı və müxtəliftəyinatlı müəssisələrin açılmasına imkan verib. Bu da istər rayon mərkəzlərində, istərsə də kəndlərdə yaşayan insanların öz məşğulluq problemini həll etməsi ilə nəticələnib. 2004-cü ildə regionların sosial-iqtisadi inkişafına yönəldilən I Dövlət Proqramının icrasına start veriləndən üzübəri bu sahədə ardıcıl tədbirlər həyata keçirilir. Qeyri-neft-qaz sektorunun getdikcə irəliləməsi, iqtisadiyyatın diversifikasiyası və prioritet sahələrə irihəcmli investisiyaların yatırılması qarşıya qoyulan vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsinə, istehsal və emal müəssisələrinin fəaliyyətə başlamasına zəmin yaradır.

Statistik rəqəmlərə müraciət edək. Bu il fevralın 1-i vəziyyətinə ilkin məlumatlara əsasən, ölkədə iqtisadi fəal əhalinin sayı 5 milyon 384,9 min nəfər olub, onlardan 5 milyon 105,6 min nəfərini məşğul əhali təşkil edib. Yanvarın 1-i vəziyyətinə muzdla çalışan işçilərin sayı 1 milyon 808 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 865,8 min nəfər, qeyri-dövlət sektorunda isə 942,2 min nəfər olub. İqtisadiyyatın neft-qaz sektorunda 30,5 min, qeyri-neft-qaz sektorunda isə 1 milyon 777,5 min nəfər çalışıb.

Təkcə keçən il ölkədə 102,5 min yeni iş yeri açılıb. Bunların böyük bir hissəsi yeni yaradılan müəssisələri əhatə edir. Yeni müəssisələrin də bir çoxu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında açılıb. İşğaldan azad olunmuş ərazilərimizə hər səfəri zamanı Prezident İlham Əliyev yeni müəssisələrin açılışını edir və təməlini qoyur. Belə ki, keçən il sözügedən ərazilərdə "Xankəndi-1" elektrik yarımstansiyası, Ağdam rayonunda Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim Tədris Kompleksi, tütün məmulatlarının istehsalı müəssisəsi, Dəmir Yolu və Avtovağzal Kompleksi, metal elektrik dirəklərinin istehsalı müəssisəsi, Cəbrayıl rayonunda "Şəfəq" Günəş-Elektrik Stansiyasına gedən avtomobil yolu, Xocalı rayonunda "Xocalı" yarımstansiyası, heyvandarlıq kompleksi, kərpic zavodu, ofis mebelləri və mebel aksesuarlarının istehsalı müəssisəsi, Kəlbəcər rayonunda üç kiçik suelektrik stansiyası və bir sıra digər müəssisə, sosial və infrastruktur obyektləri istifadəyə verilib.

Lakin yeni müəssisələr yalnız işğaldan azad olunmuş ərazilərimizi deyil, digər şəhər və kəndlərimizi də əhatə edir. 2025-ci ildə dövlətimizin başçısının iştirakı ilə Mingəçevirdə açılan "8 Noyabr" Elektrik Stansiyasının tikinti-quraşdırma işlərində 2500-dən çox yerli və xarici mütəxəssis çalışıb. Stansiya fəaliyyətə başlayandan sonra da burada onlarla yerli sakin daimi iş yeri ilə təmin olunub.

Keçən il Prezident İlham Əliyevin Sumqayıtda açılışını etdiyi tikinti kimyəvilərinin istehsalı zavodunun onlarla işçisi var. Növbəti mərhələdə onların sayı daha da artacaq. Sumqayıtda açılan yük və xüsusi təyinatlı avtomobil istehsalı zavodunda da bir çox yerli sakinlər öz məşğulluq problemini həll edib.

Ötən il dövlət başçısının İsmayıllı rayonuna səfəri çərçivəsində açılan "Coca-cola" istehsalı müəssisəsinin də 100-dən çox işçisi var. Bu siyahını əlbəttə uzatmaq da mümkündür. Fikrimizi Dövlət Statistika Komitəsinin keçən il yaradılan yeni iş yerlərinə aid açıqladığı digər rəqəmlərlə tamamlayaq.

Bu dövrdə yaradılmış iş yerlərinin 91,1 faizi qeyri-dövlət sektorundadır. Yeni açılmış iş yerlərinin 76,5 faizi Bakı şəhərinin, 0,7 faizi Naxçıvan Muxtar Respublikasının, 22,8 faizi digər regionların, o cümlədən 6,6 faizi Abşeron-Xızı, 2,7 faizi Şəki-Zaqatala, 2,5 faizi Quba-Xaçmaz, 2,3 faizi Qarabağ, 2,1 faizi Gəncə-Daşkəsən, 1,7 faizi Şirvan-Salyan, 1 faizi Lənkəran-Astara, 1 faizi Mərkəzi Aran, 0,8 faizi Qazax-Tovuz, 0,8 faizi Şərqi Zəngəzur, 0,7 faizi Dağlıq Şirvan və 0,6 faizi isə Mil-Muğan iqtisadi rayonlarının payına düşüb.

Yeni iş yerlərinin 9,3 faizi yeni açılmış, 89,7 faizi mövcud, 0,3 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 0,7 faizi digər tədbirlər üzrə yaradılıb.

Bununla yanaşı, 2025-ci il ərzində ölkədə 13 min iş yeri bağlanıb. Bu dövrdə bağlanmış iş yerlərinin 44,5 faizi qeyri-dövlət sektorunun payına düşüb. İş yerlərinin 21,6 faizi müəssisə və təşkilatların fəaliyyətlərinin dayandırılması, 78,4 faizi isə fəaliyyət göstərən müəssisə və təşkilatlarda aparılan ixtisarlarla əlaqədar bağlanıb.

Əlavə edək ki, əhalinin işlə təmin olunması sahəsində özünüməşğulluq da özünə geniş yer alır. Özünüməşğulluq vətəndaşlar üçün əlverişli qazanc formasıdır. Belə ki, hər ailənin öz büdcəsi olur, bunun sayəsində də insanlar müəyyən iş qura bilirlər. Əlbəttə, dövlətin köməyi ilə. Bu proqram insanların dolanışığını yaxşılaşdırmaqla yanaşı, iqtisadi inkişafa təkan verir. Əhalinin məşğulluğunun təmin olunması istiqamətində atılan uğurlu addımlardan biri də ictimai iş yerlərinin yaradılmasıdır. Prezidentin tapşırığı ilə bu proqramların icrası zamanı şəhid ailələrinə və qazilərə üstünlük verilir.

Keçən ilin 11 ayında 530 mindən çox şəxs aktiv məşğulluq proqramlarına cəlb edilib ki, bunlardan da 16,5 min nəfəri üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə biznesi yaradılıb. Ümumilikdə ötən dövrdə 111 min şəxs özünüməşğulluq proqramına cəlb edilib, proqramın dəstəyi ilə onlar üçün kiçik ailə təsərrüfatlarının qurulması təmin olunub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa dəstək layihəsi" özünüməşğulluq proqramının genişlənməsinə, həssas əhali qruplarının kiçik biznesə çıxışına mühüm dəstəkdir. Bu layihəyə cəlb olunanların sayı I faza üzrə (2020-2025-ci illər) 26,7 min nəfər təşkil edib. Layihənin 2026-2029-cu illər II fazası üzrə daha 30 min şəxs üçün istehsal və xidmət sahələri üzrə kiçik bizneslər yaradılacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# İqtisadiyyat və sosial həyat

## Daha bir azərbaycanlı BP-yə vitse-prezident təyin olundu



**Bu il aprelin 1-dən BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə (AGT) regionu üçün maliyyə məsələləri üzrə vitse-prezidenti vəzifəsində Nadir İmanov çalışacaq. Bu barədə BP şirkətindən məlumat verilib.**

Nadir İmanov hazırda şirkətin Yaxın Şərq və Şimali Afrikada maliyyə üzrə vitse-prezidentidir. Yeni vəzifəsində isə BP-nin AGT regionu üzrə maliyyə məsələlərinin idarə edilməsinə cavabdeh olacaq. O, BP-nin London ofisindəki hasilat və əməliyyatlar sahəsində maliyyə məsələləri üzrə baş vitse-prezidentinin rəhbərliyi altında çalışacaq.

Nadir İmanov bu vəzifədə AGT regionunda maliyyə məsələləri üzrə hazırkı vitse-prezident Kolin Allanı əvəz edəcək. Kolin isə aprelin 1-dən Birləşmiş Krallığa qayıdacaq.

Bu vəzifədə N.İmanov BP-nin Azərbaycanda yerli vətəndaş olan yeddinci vitse-prezidenti kimi AGT üzrə regional rəhbər heyətin üzvü olacaq. Onun 30 ildən artıq planlaşdırma və kommersiya sahəsində təcrübəsi var və əsasən də BP əməkdaşı kimi Azərbaycan, Türkiyə, Misir və Omanda çalışmaqla həmin ölkələrdə böyük komandalara və iri biznes sahələrinə rəhbərlik edib.

*"Azərbaycan"*

## Azərbaycan nefti bahalaşıb



**AZƏRTAC xəbər verir ki, dünya bazarında Azərbaycan nefti bahalaşıb.**

"Azeri Light" markalı neftin bir barelinin qiyməti 1,32 dollar və ya 1,85 faiz artaraq 72,78 dollar olub. Xatırladaq ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

# Müasir qlobal geosiyasətdə yeni güc mərkəzi

### **Prezident İlham ƏLİYEV:** "Azərbaycan türk dünyasının birliyinin gücləndirilməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcək"

**Dünya sürətlə dəyişir, yeni ittifaqlar və güc mərkəzləri formalaşır. Bir zamanlar sürətlə inkişaf edən ölkələrdə iqtisadi artım azalır, bunun əksinə olaraq bəzi dövlətlərdə bu rəqəm dinamik yüksəlməkdədir. Əvvəllər yoxsullar ölkəsi kimi tanınan Hindistan indi yüksək iqtisadi artım tempinə görə dünyada lider dövlətlərdəndir.**

İkinci Dünya savaşından sonra formalaşmış birləşmiş Qərb anlayışı da demək olar ki, aradan qalxır. İndi bu bloka məxsus olan ABŞ ilə Avropa arasında dərin fikir və mövqe ayrılığı mövcuddur. Yeni dünya düzənində onların əvvəlki kimi müttəfiq olacağı sual altındadır.

Dünyanın nüfuzlu politoloqlarının fikirlərinə görə, ABŞ-Rusiya qarşıdurması Çinin yüksəlişinə imkan verib. Bir zamanlar SSRİ-yə qarşı gücləndirilən Çin indi ABŞ-nin ən böyük rəqibinə çevrilib. Hazırda okeanın o tayındakı ABŞ Çini cilovlamaq üçün hətta Rusiya ilə müəyyən razılaşmalar əldə etməyə hazır kimi görünür.

Bütün bu geosiyasi proseslər fonunda dünyanın siyasi səhnəsinə Azərbaycanın da daxil olduğu yeni güc mərkəzi - türk dünyası daxil olur. Türk güc mərkəzinin özünəməxsus üstünlükləri var. Məsələn, yeni güc mərkəzi olan Hindistan tək bir ölkədir və o özünə müttəfiqlər axtarışındadır. Ancaq türk dünyasının belə bir problemi yoxdur. Bu ittifaq eyni dilə, tarixi keçmişə və qohumluq əlaqələrinə görə bir çox dövlətləri birləşdirən geniş coğrafiyaya sahibdir. Türk Dövlətləri Təşkilatına (TDT) Türkiyə, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan üzv ölkə statusunda, Macarıstan, Türkmənistan müşahidəçi, Şimali Kipr Türk Dövləti isə qeyri-rəsmi müşahidəçi kimi daxildir. Bununla yanaşı, Pakistan və Rusiyanın da hansısa bir formada həmin təşkilata qoşulmaq barədə rəsmi və ya politoloqlar səviyyəsində fikirlər səsləndirilir.

TDT-nin qarşıdakı illərdə qlobal siyasətin formalaşmasında əsas söz sahiblərindən biri olacağı şübhəsizdir. İkinci Dünya müharibəsindən sonra formalaşmış Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq qurumların fəaliyyətinin yenidən dizayn edilməsi fonunda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "dünya 5-dən böyükdür" ifadəsi sadəcə olaraq pafosla söylənən bir şüar deyil, yeni dünya düzənində türk dünyasının söz sahibi olacağı barədə etdiyi ciddi xəbərdarlığıdır. Çünki qeyd etdiyimiz kimi, TDT-nin yeni güc mərkəzi kimi bir çox üstünlükləri var. Dünyanın ən işlək ticarət marşrutu türk dövlətlərinin ərazisindən keçir. Qlobal ticarətin sabitliyi və təhlükəsizliyində bu region ölkələri vacib rol oynayır. Üstəlik, dünya bazarının enerji resursları ilə təminatında təşkilata daxil olan ölkələrin xüsusi payı var. Təşkilata daxil olan Qazaxıstan, Azərbaycan, Türkmənistan və Özbəkistan kifayət qədər zəngin enerji resurslarına sahibdir. Bundan başqa, Qazaxıstanla Özbəkistan dünyanın ən zəngin uran yataqlarına malikdir. Müasir dövrdə isə texnologiyaların inkişafı atom elektrik stansiyalarına olan marağı artırıb. Onu da vurğulayaq ki, atom enerjisi "yaşıl enerji" sayılır, üstəlik, maya dəyəri aşağı olan enerji növü hesab edilir. Bunlardan



əlavə, Qazaxıstan zəngin neft, qaz, kömür yataqlarına, həmçinin böyük həcmdə mis, sink, xrom mədənlərinə də sahibdir. Azərbaycan isə zəngin neft və qaz ehtiyatları ilə yanaşı, enerji daşıyıcılarını dünya bazarına çıxaran BTC, TANAP kimi magistral tranzit layihələrində əsas mövqeyə malik ölkədir. Hələ onu demirik ki, Mərkəzi Asiyada əhalinin sayına görə birinci olan Özbəkistan qızıl istehsalına görə dünyada ön sıradadır, zəngin qaz, uran və mis yataqlarına sahibdir. Bu ölkənin qonşusu olan Qırğızıstan da dünyanın zəngin qızıl yataqlarına sahib olan ölkələr sırasındadır. Türkiyə müəyyən səbəblər üzündən özünün zəngin təbii sərvətlərindən istifadə edə bilməsə də, indi ölkədə təbii sərvətlərdən istifadə və yeni yataqların kəşf edilməsi istiqamətində mühüm işlər görülür. Qardaş ölkə müasir dünyada ən çox ehtiyac duyulan zəngin bor mineralı ehtiyatına, xrom, maqnezium yataqlarına malikdir. Türkiyədə əhalinin rifahında, sənayenin inkişafında ən böyük problem neft və qazın idxalından asılıdır. Bu gün qardaş ölkə Qara dənizdən qaz, qurudan isə neft hasilatına başlayıb. Bu da ölkəyə ixracdan asılılığı müəyyən qədər aradan qaldırmağa imkan verir.

175 milyondan artıq əhalisi olan TDT-də ötən il 1 trilyonluqdan çox ümumi daxili məhsul istehsal olunub. Onu da vurğulayaq ki, bu quruma daxil olan ölkələrdə iqtisadi artım tempi ortalama 5,4 faizdir.

Türk dünyasının formalaşmasında, onu qlobal geosiyasətdə mühüm güc mərkəzi kimi formalaşmasında Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət önəmli rol oynayır. Dövlətimizin başçısı dəfələrlə bəyan etmişdir ki, türk dünyası müstəqil güc olması üçün daha sıx inteqrasiya olunmalıdır. İlham Əliyev bu təşkilatın qardaş xalqların bir araya toplamasındakı xidmətləri yüksək qiymətləndirərək demişdir: "Türk Dövlətləri Təşkilatı ölkələrimiz arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın gücləndirilməsinə, türk xalqları arasında həmrəyliyin daha da möhkəmlənməsinə böyük töhfə vermişdir. Azərbaycan türk dünyasının birliyinin gücləndirilməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcək. Qardaşlığımız əbədidir".

***Rüstəm KAMAL,***
*"Azərbaycan"*

**● Jurnalist araşdırması**

# Şəhərə axan xəyallar, kənddə qalan imkanlar

## Urbanizasiya: Hüqonun Parisindən müasir dünyaya

**Urbanizasiya anlayışı ilə ilk dəfə fransız yazıçısı Viktor Hüqonun "Səfillər" romanında qarşılaşmışdım. Ötən əsrin 70-ci illəri idi, o zaman 16 yaşım vardı. Həmin söz termin kimi deyil, bir tale toqquşması, bir şəhər dramı kimi yaddaşıma həkk olundu. Hüqonun Fransasında şəhər sadəcə binalar və küçələrdən ibarət deyildi, Paris insanı formalaşdıran, onu ya yüksəldən, ya da əzən bir canlı orqanizm idi.**

Viktor Hüqo "Səfillər" romanında urbanizasiyanı birbaşa termin kimi izah etmir. Kənddən şəhərə axın, yoxsulluğun mərkəzlərdə cəmlənməsi, sosial bərabərsizliyin dərinləşməsi, şəhərin zəngin insanlarla kasıblar arasında sərhəd çəkməsi Hüqonun təsvir etdiyi Parisin əsas mövzularıdır. Jan Valjan, Fantina, Tenardye, Qavroş kimi obrazlar urbanizasiyanın yaratdığı sosial ziddiyyətlərin canlı təcəssümüdür.

Urbanizasiya, yəni insanların kütləvi şəkildə kəndlərdən şəhərlərə köçməsi sənaye inqilabı ilə sürətlənib. XIX əsrdə Avropada fabriklərin yaranması, nəticədə iş yerlərinin əsasən şəhərlərdə cəmlənməsi milyonlarla insanı doğma torpaqlarını tərk etməsi ilə müşayiət olunub. Hüqonun yaşadığı və təsvir etdiyi dövr də məhz həmin keçid mərhələsinə təsadüf edib. Amma bu hesaba Paris böyüsə də, əlavə "insan yük"ünü götürə bilmirdi.

Dünyada urbanizasiya prosesi müxtəlif mərhələlərdən keçib. Əvvəlcə Avropa və Şimali Amerikada, daha sonra - XX əsrin ortalarından etibarən Asiya, Afrika və Latın Amerikasında geniş vüsət alıb. Əgər XIX əsrdə şəhər "ümid məkanı" kimi görünürdüsə, XX əsrdə urbanizasiya artıq yeni problemlər yaratmağa başlayıb: gecəqondular, işsizlik, ekoloji çirklənmə, sosial təcrid və s.

XXI əsrdə isə proses təkcə problemlərin artması ilə deyil, həm də şəhərin funksiya və strukturunun dəyişməsi ilə xarakterizə olunur. Rəqəmsallaşma, qloballaşma və sürətli texnoloji inkişaf şəhəri həm fiziki, həm də virtual məkana çevirib. Doğrudur, "ağıllı şəhər" modeli, dayanıqlı inkişaf konsepsiyaları və "yaşıl enerji" təşəbbüsləri urbanizasiya prosesinə yeni istiqamət verib, amma sosial bərabərsizlik, mənzil böhranı, iqlim dəyişikliyinin təsirləri və miqrasiya axınları şəhərləri daha mürəkkəb sistem halına gətirib. O üzdən XXI əsrin şəhəri sadəcə "ümid məkanı" və ya "problem məkanı" deyil, həm də risk, innovasiya və imkanların toqquşduğu qlobal platformadır. Bugünkü şəhər insanın sosial kimliyini, iqtisadi fəaliyyətini və mədəni təcrübəsini formalaşdıran canlı sistemdir.

Viktor Hüqonun əsərində kanalizasiya tunellərinin xüsusi təsviri təsadüfi deyil. O, Parisin yeraltı dünyasını göstərməklə şəhərin gizlətdiyi həqiqətləri açıb. Eyni hal indi də davam edir. Urbanizasiya çox vaxt parlaq göydələnlər, müasir infrastrukturlar fonunda təqdim olunur, lakin onun kölgəsində sosial ədalətsizlik, yoxsulluq və mənəvi tənhalıq var. İnsanlar şəhərlərdə imkan tapsalar, firəvan həyat sürsələr də bəzən tənhalaşırlar. Kənd icmasının itməsi, ailə bağlarının zəifləməsi urbanizasiyanın ağrılı nəticələrindəndir.

Bu gün sayı 8 milyardı keçən dünya əhalisinin yarıdan çoxu, daha doğrusu, 51 faizi şəhərlərdə yaşayır. Proqnozlara görə, rəqəm artmaqda davam edəcək. Bu baxımdan urbanizasiya artıq qaçılmaz proses olmaqdan çox idarə edilməli bir məsuliyyətdir. Əsas məsələ şəhərlərin dayanıqlı, inklüziv və yaşana bilən mühitə çevrilməsidir. Əks halda plansız urbanizasiya sosial bərabərsizliyi, ekoloji böhranı və infrastruktur çatışmazlığını daha çox genişləndirə bilər. Təsadüfi deyil ki, Viktor Hüqonun XIX əsr Parisində təsvir etdiyi sosial uçurumlar XXI əsrin meqa şəhərlərində daha kəskin formada üzə çıxır, zənginlə kasıb arasındakı sərhədləri daha da sərtləndirir. Göydələnlərin kölgəsində sıxışıb qalan məhəllələr, bahalı mərkəzlərlə kənar ərazilər arasındakı görünməz divarlar cəmiyyət daxilində parçalanmanı dərinləşdirir. Şəhər bir tərəfdə imkan və parıltı məkanı kimi yüksələrkən, digər tərəfdə sosial bərabərsizliyin səssiz səhnəsinə çevrilir.



XX əsr Azərbaycanın ictimai-iqtisadi həyatında köklü dönüş mərhələsi kimi yadda qaldı. Məhz bu dövrdə şəhərləşmə prosesi yeni nəfəs aldı, ölkənin siması dəyişməyə başladı. Xüsusən neft sənayesinin güclü yüksəlişi Bakını regionun ən iri və dinamik mərkəzlərindən biri kimi formalaşdırdı. "Qara qızıl"ın yaratdığı fürsətlər paytaxtı cazibə nöqtəsinə döndərdi. Kəndlərdə məhdud imkanlarla üz-üzə qalan minlərlə insan üçün Bakı ümid, çörək və yeni həyat demək idi. Beləliklə, urbanizasiya təkcə statistik göstərici deyil, minlərlə taleyin istiqamətini dəyişən böyük ictimai prosesə çevrildi. Sovetlər zamanı isə urbanizasiya planlı şəkildə aparılırdı. Yeni şəhərlər, zavodlar, yaşayış massivləri salınırdı. Kənddən şəhərə köç təkcə iqtisadi deyil, həm də mədəni dəyişikliklərə yol açırdı.

Müstəqillik dövründə urbanizasiya Bakının mərkəzindən çox Abşeron yarımadası üzərində cəmlənib. Paytaxt və ətraf qəsəbələr ölkə üzrə iqtisadi fəallığın və investisiyaların böyük qismini birləşdirib. Nəticədə Abşeron ərazisində sürətli və çox vaxt plansız tikinti gedib, mühəndis-kommunikasiya xətlərinə çıxışı məhdud olan kortəbii yaşayış massivləri salınıb. Nizamsız məskunlaşma nəqliyyat sıxlığı, ekoloji yüklənmə, sosial infrastruktur çatışmazlığı (məktəb, uşaq bağçası, tibb müəssisələri) kimi problemləri də kəskinləşdirib.

Əhalinin məskunlaşma dinamikası və investisiya bölgüsü ilə bağlı statistik göstəricilər bu prosesin miqyasını təsdiqləyir: Dövlət Statistika Komitəsinin məlumatına görə, hazırda ölkə əhalisinin 54,3 faizi şəhərlərdə, 47,5 faizi kəndlərdə yaşayır. Amma şəhərlərdə yaşayan bu 54,3 faiz əhalinin 23 faizi Bakı və ətraf ərazilərdə məskunlaşıb. Özü də bu, rəsmi statistikadır. Əslində isə paytaxt və onun ətraf ərazilərində kənddə qeydiyyatda olan yüz minlərlə əhali yaşayır. İndi paytaxt elə bir cazibə mərkəzinə çevrilib ki, sanki bütün ölkə əhalisinin nicat yeridir. Amma bu, ilğımdırmı? Təbii ki, yox! Bu gün insanları paytaxta çəkən əsas səbəb iş, təhsil və sosial xidmət imkanlarının Bakıda mərkəzləşməsidir. Məsələn, ötən il ölkə üzrə yeni açılan iş yerlərinin nə az, nə çox - düz 76,5 faizi Bakının payına düşüb. Təbii ki, bu da fəsadsız ötüşmür. Məhdud iş imkanları və çox da böyük olmayan mövsümi gəlirlər kəndlini özlüyündə daha güvənli sabah naminə şəhərə köçməyə məcbur edir. Şəhərdə isə yel əsib, qoz tökülməyib. İş yerləri və imkanları daha çox xidmət və ticarət sektorlarındadır, o da əlində ilkin kapitalın, yəni mayan olsa. Paytaxtdan savayı digər şəhərlərdə, o cümlədən rayon mərkəzlərində ali və orta ixtisas təhsil müəssisələrinin az olması isə gənclərin karyera ardınca şəhərə axınını şərtləndirir.

Urbanizasiyanın, nə qədər qəribə də olsa, bir səbəbi də azərbaycanlıların şəhərə meyilli olmalarıdır. Burada söhbət kəndi sevməməkdən getmir, sadəcə kənd həyatının zəhməti, çətin iş şəraiti və fiziki yükü kəndlini şəhərin ilk baxışdan rahat və gözqamaşdıran mühitinə çəkir. Nəticədə kəndlər tədricən boşalır, həyətlərdə toyuq-cücə, mal-qara azalır, məktəblərdə şagird sayı seyrəlir, torpaqlar əkin-biçinsiz qalır. Gənclərin şəhərlərə kütləvi köçü isə ölkədə demoqrafik tarazlığı dəyişir. Kəndlərdə əsasən yaşlı nəslin qalması sosial və iqtisadi dinamikanı zəiflədir. Yerli istehsal zəifləyir, ən əsası, nəsillər boyu formalaşmış həyat tərzi və ənənələr sıradan çıxır. Çünki kəndlərin boşalması təkcə coğrafi məkanın deyil, həm də soyun, kökün, təbii dəyərlərin, yaddaşın itirilməsi deməkdir.

Məsələnin daha bir xoşagəlməyən tərəfi odur ki, kəndli özünə haqq qazandırdığı obyektiv və subyektiv səbəblər üzündən paytaxta köçsə belə, burada arzuladığı həyatı tapa bilmir. Kənd təsərrüfatı ilə məşğul olmuş, müəyyən peşə və bacarıqlara yiyələnmiş insan şəhər həyatına uyğunlaşmaqda çətinlik çəkir. Çox vaxt iş tapmaq mümkünsüz olur, evsiz-eşiksizlik də bir yandan. Odur ki, kirayə pulunu çıxarmaq işgəncəyə dönür. Səhər tezdən "qul bazarı" adlanan ərazilərdə "klient" gözləyir, kiminsə onlara birgünlük və ya bir neçə saatlıq iş verəcəyinə ümid edir. Əlacsızlar isə şəhərətrafı bağ evlərində, tikintilərdə, təmir və təsərrüfat işlərində müvəqqəti və aşağı maaşla işləməyə məcbur qalırlar. Amma bu vaxt onun kənddə qalıb təsərrüfat işlərinin çətinliklərindən qorxmayan qonşusu, əmisi, yaxud xalası oğlu dolanışıq, güzəran sarıdan heç bir problem yaşamır, üstəlik, yurdu, evi sahibsiz qalmır, işığı, ocağı sönmür.

Buna baxmayaraq, kənddən şəhərə kütləvi axın dayanmır və həm kəndlər, həm də şəhərlər üçün müxtəlif problem yaratmaqda davam edir. Şəhərlərdə əhalinin sürətlə artması işsizlik, evsizlik, təhsil və səhiyyə xidmətlərinə əlçatmazlıq, nəqliyyat sıxlığı və ekoloji çətinliklərə yol açır. Kəndlərdə isə əhali azalır, kənd təsərrüfatı zəifləyir və ənənəvi həyat tərzi tədricən yox olur. Halbuki ölkəmizdə bu gün infrastrukturuna görə qəsəbələrdən, rayon mərkəzlərindən heç də geridə qalmayan kəndlər kifayət qədərdir. Odur ki, indi kənddə yaşamaq 30 il əvvəlki kimi çətin deyil. Bununla belə, şəhərlər, xüsusən Bakı daha çox gənclər üçün cazibədar olaraq qalır.

Görünür, urbanizasiya qaçılmazdır, amma onun doğurduğu problemləri minimuma endirmək və urbanizasiyanı düzgün idarə etmək mümkündür. Düzgün idarəetmə dövlətin və əlaqədar qurumların şəhərlərin baş planlarına uyğun inkişafının təmin olunması, eyni zamanda kəndlərdə infrastrukturun daha da yaxşılaşdırılması, ən əsası örüş yerləri və su çatışmazlığı problemlərinin həlli deməkdir. Ona görə də kəndlərin və şəhərlərin inkişafında balansı gözləmək vacibdir. Unudulmamalıdır ki, urbanizasiya yalnız şəhərlərin böyüməsi ilə deyil, kəndlərin müasirləşdirilməsi ilə də müşayiət olunmalıdır.

***Züleyxa ƏLİYEVA,***
*"Azərbaycan"*

«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 24 iyun (Çərşənbə axşamı günü) tarixli 210-cu nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Səşənbə, 25 ramazanül-mübarək sənə 1337.
24 həziran 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 30 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## ELAN

Azərbaycan Dəmiryol İdarəsi elan edir ki, Türüq və Məabir Nəzarətinin binagüzarlığına binaən [Nəqliyyat və Rabitə Nazirliyinin sərəncamına əsasən], Batumda dərya kənarında 8 nömrəli evdə Azərbaycan Dəmiryolunun Ticarət acentəliyi açılır. Acentəlik su və dəmiryol ilə hər növ yüklərin komisyon, skladoçnı və tamojna müamilatı işlərini öhdəsinə götürür. Bazar qiyməti barəsində təfsilat məlumat verir. "Ceyms Moosen və kompaniyası"nın Liverpula, "Vestkon və Lorens" Londona, "Elerman Layn" Liverpula, "Makley və Makentaer" Qlazqoya, "Amerika-Livantiysk" yoluyla Londona olan yük kirayələri şəraiti [daşınması şərtləri] barəsində məlumat verir. Bakıda Mirbabayevin evində Olqinski və Merkuryevski küçələrin küncündə baqi [yerləşən] Bakı şəhər stansiyasının (telefon nömrə 29-97) dəxi eyni müamilatda bulunur. Bu stansiyanın Çornıqorodda skladı dəxi var (telefon nömrə 14-57): Merkuryevski küçə ev nömrə 16, Mariinskinin küncündə. Həmin iyulun 12-sindən etibarən zeyldəki [aşağıdakı] qərar ilə komisyon vergisi alınır:

1-ci sinif biletdən 3 rublə;
2-ci sinif biletdən 2 rublə 25 qəpik;
3-cü sinif biletdən 1 rublə 50 qəpik.

Plaskart üçün dəxi bu qərar ilə vergi alınır.

Bundan əlavə, Bakı şəhər stansiyası barəsində olan qanun[un] 14[-cü] maddəsi təbəddülünə binaən [dəyişikliyinə əsasən], hər surətlə olursa-olsun baqaj, yük baqajının bu qərar ilə komisyon vergisi artırılır:

Hər bir kiftansiya mövcibiylə [qəbzə əsasən] göndərilən malların 10 putuna [qədər] 5 manat; 10 putdan yuxarı olarsa hər putuna 50 qəpik komisyon vergisi alınır və malları da əsl qiymətlə yerlərinə göndərir.

*T-153*

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

**Posta və Teleqraf nazirinin əmrnamələri**

*Əmrnamə 69*

21 həziran 1919

Bu fövqdəki [yuxarıdakı] tarixdən etibarən mən Posta və Teleqraf Nəzarətinin müvəqqəti olaraq idarələnməsinə iqdam etdim [başladım].

*Əslində imza etdi*
*Ədliyyə və Məsai naziri*
*və Dəftərxana baş müdiri*
*Əslinə mütabiqdir.*
*Kargüzar: R[əsul] Rəhimli*

## QARABAĞ HADİSATI

Naxçıvanın səssiz-küysüz, qeylü-qalsız, dava və münaziəsiz [mübahisəsiz] olaraq erməni hökuməti tərəfindən işğalından sonra – ki bu işğal Azarbaycan Cümhuriyyətinin mənafeyi-həyatiyyəsini xələldar etmək [həyati mənafeyinə ziyan vurmaq] idi – zənn olunurdu ki, ermənilər daha Qarabağ məsələsində inadlıq etməyib hirslərini soyumuş və iştahalarının şiddətini azalmış hesab edərlər. Lakin böylə deyilmiş.

Nə adi və nə də siyasi nəzakəti başa düşməyən erməni başçıları Qarabağ adlı torpağımızda sükunət edən [yaşayan] erməni əhalisini bu əhalinin xahişinə rəğmən Azərbaycan Hökumətinə tabe etməmək yolunda daha böyük inadlıq göstərib, İngiltərə Baş Komandanlığının təklifini də rədd etməkdən çəkinmədilər.

Azərbaycan Hökumətinin səbir kasası doldu. Köçəri mövsümünün hülulu [çatması] isə əhalini dəxi böyük müşkülat qarşısında qoyub arada bir acıq və əsəbiyyət törətməyinə səbəb oldu. Ermənilərin inadlığı və hökumətimizin hövsələsi bu acığı və əsəbiyyəti getdikcə artırıb, Qarabağda bu gün-sabah bir qeyz və qəzəb partlanğıcı zühur edəcəyini naçar qoymuşdu.

İşin bu yerə gəldiyini və bunun nəticəsi nə ola biləcəyini haqqı ilə anlamış olan general-qubernator Xosrov bəy Sultanov həzrətləri bunun qabağını almaq və qırğına mane olmaq üçün Qarabağ erməni başçılarının inadını sındırmaq və məsələni camaatın qatışmasına məhəl qoymamaq [imkan verməmək] üçün hökumət əli ilə, yəni qanuni bir yol ilə həll etmək əmrinə mübaşir oldu [işinə girişdi] və olub da erməniləri itaətə məcbur etdi. Daha doğrusu, erməni camaatını xudsər [özbaşına] və qeyri-məsul "komitetlər" qurğusundan xilas edib camaatın öz meyil və arzularını hüsula gətirdi.

İndi ümumi qırğına mane olan erməni "komitetlərinin" şərini ümum Qarabağ əhalisi üzərindən dəf edən, hökumət əmrini layiqincə yerinə yetirən Xosrov bəyi alqışlamaq, ona mütəşəkkir olmaq, ondan razılıq etmək əvəzində, onun əleyhinə danışılan sözlər və hərəkatını fəna bir surətdə göstərən qeybətlər eşidirik. Hətta onun geri çağırılması məsələsi dəxi meydanda söylənilməkdədir.

Biz bu növ fikirə mailik ki, Sultanov Xosrov bəyin əleyhində danışanlar, onun layiqsiz bir hakim olduğundan deyil, biləks [əksinə], fəzləsi ilə ləyaqət sahibi, bacarıqlı və iş görən bir Azərbaycan məmuru olmasından qorxuya düşən və gözləri götürməyənlərdir.

Əgər Qarabağ müsəlmanları arasında böyük və layiqli bir nüfuza malik olan və erməni camaatı tərəfindən dəxi möhtərəm sayılan Xosrov bəy Qarabağın hökuməti başında olmasa idi, burası – Azərbaycanın cənnəti hesab olunan bu yer çoxdan bəri cəhənnəmə dönüb qətlüqital [qətl və qırğın] ocağı olmuşdu. Bu həqiqəti Qarabağın müsəlmanları da, erməniləri də, Qarabağ hadisəsini təhqiq üçün məhəlli-məzkura [deyilən yerə] getmiş olan xüsusi komissiya dəxi iqrar [qəbul] və təsdiq etdiyi bir halda, Xosrov bəyin əleyhinə danışmağın mənası nədir? Qarabağı ixtilal və iğtişaşa sövq etmək niyyəti deyilmi?

Şimal təhlükəsinin vücudu meydanda olduğu bir halda bizim başımızı Qarabağ şuluqluğuna qatışdırmaq istəyənlər, Qarabağın iğtişaşından mənfəət aparanlar, əlbəttə, səy edəcəkdirlər ki, Sultanov kimi layiqli bir hakim Qarabağdan kənar edilib, bu yerdə hər bir macəraculuq [avantüra] üçün meydan hazırlansın.

Lakin biz əminik ki, Sultanov Xosrov bəyin xidmətlərini layiqincə təqdir edən və bu məsələnin ətrafında dolandırılmaqda olan intriqalardan kamalınca xəbərdar olan hökumətimiz, əvvəla, öz daxili işlərinə qatışmaq istəyənlərə yol verməz və saniyən [ikincisi], Azərbaycanın mühüm bir cüzü [hissəsi] olan Qarabağı şuriş [qarışıqlıq] və iğtişaş atəşinə ilqa etməz [atmaz] və Qafqazda nizam və asayiş mühafizəsi əmrinə [işinə] mükəlləf olan Müttəfiqlər Komandanı dəxi bir taqım müzirr [zərərli] adamların ilhah [təkid] və israrına məhəlgüzar olmayıb [fikir verməyib], bu yolda hökumətimizin tərəfini iltizam etməyi səlah görər [düzgün hesab edər].

*Hacıbəyli Üzeyir*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Royter acentəliyindən)*

**Yaponların övdəti [qayıtması]**

Maltadan xəbər verirlər ki, Bəhri-Səfiddə [Aralıq dənizində] olan Yaponiya donanması Yaponiyaya azim olacaqdır [yola düşəcək].

**Yaponiya və Kolçak**

Teleqrafların verdikləri xəbərlərə görə, Yaponiya Kolçak hökumətini təsdiq etmişdir. Parisdə olan Kolçak dostları deyirlər ki, Sibiriya hökuməti ilə dostanə münasibat saxlamaq Yaponiya üçün mənfəətlidir. Ələlümdə [başlıca olaraq] o səbəbə ki, Yaponiya dəmiri Sibiriyadan alır.

**Gəmi qərq olmuşdur**

Stokholmdan xəbər verirlər ki, "Lake Plaşid" paroxodu Baltimor yanında minaya toxunub beş dəqiqədə qərq olmuşdur. 37 nəfərdən ibarət gəmi tayfası salamat qurtarmışdır.

**Petroqrad üzərinə hücum**

Londondan xəbər verirlər ki, estonların şimali dəstəsi Petroqrad üzərinə hücum etmişdir. Petroqrad-Narva dəmiryolunda Yamburq və Peypus gölü cənubunda Qdov zəbt edilmişdir. İki min əsir və bir çox mühimmati-hərbiyyə [hərbi ləvazimat] alınmışdır. Bolşeviklər nizamsız bir surətdə geri çəkilirlər. Şimali Rusiyada heç bir təbəddülat [dəyişiklik] yoxdur.

* * *

Verilən xəbərlərə görə, estonlar Narva ilə Qdov arasında 100 km məsafəsində hücumu davam etdirirlər. Petroqradın 120 kilometrliyində Luqa nəhrinə çatmışlardır. Estonların təhtikomandasında [komandanlığı altında] olan rus dəstəsi 2500 əsir və bir çox mühimmati-hərbiyyə almışdır.

**Şimal cəbhəsində**

Londondan xəbər verirlər ki, rus rəsmi xəbərlərinə görə bolşeviklər Fin xəlicində [körfəzində] Olonets şəhərini işğal etmişlər. Düşmən hərbi gəmiləri atəş altında Luqa nəhri mənsəbi yaxınlığında Kaybolovo kəndinə əsgər çıxarmışlardır.

**Kronştadt altında dəniz müharibəsi**

Helsinqforsdan [Helsinkidən] xəbər verirlər ki, Kronştadtda olan bolşevik donanması 1 zirehli, 2 böyük minanoska və 3 mina düzən nəqliyyat gəmisindən ibarətdir. 3-4 hərbi gəmidən ibarət olan İngiltərə donanması bolşevik donanmasının dənizə çıxıb Fin sahilini bombardman etməsindən xəbərdar olub dənizə çıxmışdır. Fin xəlicinin şərqi hissəsində səhər saat 10-da müharibə başlanmışdır. Bolşevik gəmilərindən atılan top güllələrindən heç biri nişanəyə dəyməmişdir. Bolşeviklər Kronştadt topları atəşi altında qaçmışlardır. Bolşevik gəmilərindən birinin qərq olub, digərinin sahilə atılması haqqındakı xəbərlər hələ təsdiq edilməmişdir.

Kiyev - 18 yaşdan 25 yaşadək kişilərə Kiyevdən çıxmağa bu gündən etibarən müsaidə [icazə] verilməyir. Dubensk qəzasında kəndçilər alay təşkil edib Polşa bandalarını qovmuşlardır. Polyaklarla mübarizə etməkdən ötrü kəndçilər ciddi surətdə çalışırlar. Bunlar kəndçilərdən batalyon hazırlayırlar.

Odessa - İstanbuldan Romaniya qəzetələrinə xəbər verilir ki, Türkiyə ordusunun tərk-silahı qurtarmışdır. İngiltərə ilə Fransa arasında olan müqaviləyə görə, bütün ləvazimati-hərbiyyə Fransaya göndəriləcəkdir.

Yekaterinodar - Buraya verilən xəbərlərə görə, bolşeviklər Xarkov şəhərini təxliyə etmişlərdir.

**Fransa və Həbəşistan**

Paris - Bu gün Fransa rəisi-cümhuru Puankare Həbəşistan heyətini hüzuruna qəbul eyləmişdir. Heyət həbəş imperatriçəsi və vəliəhdi tərəfindən Puankareyə məktub vermişdir ki, heyətin rəisi nitq söylərkən özləri ilə Fransa arasında olan dostluğa işarə edib Puankareni Müttəfiqlərin qələbəsi ilə təbrik eyləmişdir. Puankare cavabında həbəş padşahlığından və xüsusi olaraq Menelikdən razılıq edərək, həmişə Həbəşistanın müstəqil yaşamasını arzu etdiyini əlavə eyləmişdir.

**Nyu-Yorkda bolşevik nümayəndəsi**

Liondan xəbər verirlər ki, Paris qəzetələri Nyu-Yorkda rus Şura Hökuməti nümayəndəsinin həbs edildiyini bildirirlər. Təfsilat məlum deyildir.

**Fransada fəhlə hərəkatı**

Liondan verilən xəbərlərə görə, Klemanso fransız fəhlələrə izhar etmişdir ki, sülh imza edildikdən sonra istefa verəcəkdir. Bu axır aylar müddətində hökumət gözlənməkdə olan tətil münasibətilə, Palatada müzakirə əsnasında artmaqda olan müxalif tərəflə bir çox mübarizədə bulunmuşdur. Hökumət 21 rəyin əksəriyyəti ilə etimad qazanaraq tətilin təxirə salınmasına da müvəffəq olmuşdur.

Mədən əmələlərinin tətili sabah başlanacaqdır. Bu qərar üzrə, bu həftə Sülh Konfransı işləri fəhlə böhranı arasında başlanacaqdır.

**Vyanada kommunistlər üsyanı**

İyunun 17-də Nauendən xəbər verirlər ki, bazar günü Vyanada müsəlləh [silahlı] kommunistlərin üsyanı qalxmışdır. Başçıların hamısı həbs edilmişdir. Üsyan edən kommunistlər həbs edilənləri azad etməyə çalışmışlar. Həbsxana mühafizləri ilə vaqe olan toqquşmada 11 nəfər ölüb, 70 nəfərdən ziyadəsi yaralanmışdır.

**İtaliyada nizamsızlıq**

İyunun 16-da Luqanodan xəbər verirlər ki, Neapolda böyük nizamsızlıq başlamışdır. Genuyada olan matroslar Dabravol ordusundan ötrü Rusiyaya mühimmat aparan paroxodların əzimətinə [gedişinə] mümaniət [maneçilik] göstərmişlərdir.

**İtaliya Sosialist firqəsində**

İyunun 10-da Berlindən xəbər verirlər ki, "Kosovo qəzetə"nin Luqanodan aldığı məlumata görə, İtaliya Sosialist firqəsi bir dəvətnamə buraxıb deyir ki, Fransa, İngiltərə və İtaliya sosialist firqələri nümayəndələri arasında bir etilafnamə əqd edilmişdir [razılaşma imzalanmışdır]. Bu etilafnamə mövcibincə [bu razılaşmaya görə], Rusiya və Macarıstanın sosialist cümhuriyyətlərini yıxmağa mümaniət [maneçilik] və məğlub məmləkət füqərayi-kasibəsinə [proletariatına] müavinət göstərmək qəsdi ilə bütün üç hökumət füqərayi-kasibəsi müttəhid [birgə] siyasət yürütməlidir. Beynəlmiləl füqərayi-kasibə hazır olmalıdır.

**Petroqrad altında**

İyunun 16-da Petroqraddan xəbər verirlər ki, iyunun 13-də xırda bir ağ qvardiya dəstəsi qəflətən Krasnaya Qorkanı işğal etmişdir. Gündüz saat 3-də oradan Kronştadt şəhəri atəşə tutulmuşdur. Topla düşmənə cavab verildikdə, düşmən sakit olmuşdur. Bolşevik əsgərləri Krasnaya Qorkaya hücum etmişlərdir. Düşmənə böyük tələfat verilmişdir. Şəhər komendantına ultimatum verilmişdir ki, fəhlə və kəndli hökumətinə tabe olsun. İyunun 16-da gecə saat 12-də Krasnaya Qorka geri alınmışdır.

**Polşada**

İyunun 10-da Kiyevdən xəbər verirlər ki, general Haller alayının əsgərləri Rusiya cəbhəsinə getməkdən imtina edirlər. Polşadan əsgər cəm edildiyinə görə, fəhlələr və kəndlilər arasında narazılıq vardır.

**Polyakların Ukraynaya hücumu**

- İyunun 4-də Kiyevdən xəbər verirlər ki, Kiyevdə alınan Petlyura qəzetəsi polyakların hücumu münasibətilə yazır ki:

*"Əski tarixli düşmənimiz quldurlarla mübarizə şüarı ilə üzərimizə hücum edir. Onlar bizim arxamızca gəlib ləvazimat anbarlarını, ərzaq şeyləri, libasları və dəmiryol qatarlarını tuturlar. Polyaklarla bərabər getman Skoropadskinin tərəfdarları da gəlirlər. Polyaklarla və təzə getmanla müharibə üçün kəndlilər və fəhlələr ayağa qalxmalıdırlar."*

- Jitomirdən verilən xəbərə görə, Polşa və Romaniya əsgərlərinin Volın şəhərinə hücumu münasibətilə kəndlilər dəstələrlə gəlib özlərini Qırmızı orduya yazdırırlar.

**Amerika əsgərləri Rusiyadan gedir**

İyunun 17-də Liondan xəbər verilir ki, dəmiryol əsgərlərindən başqa, qalan Amerika əsgərləri Rusiyadan çıxarılmışdır. Dəmiryol əsgərləri də bu yaxınlarda evlərinə övdət edəcəklər [qayıdacaqlar].

**Sürixdə üsyan**

Sürixdən xəbər verirlər ki, orada böyük nizamsızlıq başlanmışdır. Tərtib edilən mitinqdə xəbər verilmişdir ki, Fəhlə İttifaqı katibi İsveçrə sərhədini keçməyə hazırlandığı zaman həbs edilmişdir. Təşviqat yapmaq üçün yanında bir çox inti-bahnamə [vərəqə] var imiş. Katib Sürix həbsxanalarından birində həbsə salınmışdır.

**Ukrayna ilə Romaniya münasibatı pozulmuşdur**

Ukraynadan verilən xəbərlərdə denilir ki, Ukrayna ilə Romaniya arasında münasibat iyunun 4-dən rəsmi surətdə qət edilmişdir [kəsilmişdir].

**Polşa ilə Almaniya müsadiməsi**

Polşa əsgərləri tərəfindən mütarikə şəraiti [atəşkəs şərtləri] pozulduğuna görə, Polşa ilə Almaniya sərhədində müsadimə [toqquşma] vaqe olmuşdur. Almaniya Komandanlığı bu işi təhqiq etdikdən sonra məlum olmuşdur ki, 200 nəfərdən ibarət polyak dəstəsi Tanqofenin cənub-şərqi sərhədində hücuma keçmişdir. Almanların əks-hücumu ilə polyaklar geri atılmışlardır. Eyni zamanda 80 nəfər polyak Kleyn-Varderhauzenə hücum edib kəndə daxil olmuşlardır. Bunlar da Almanların əks-hücumu ilə oradan çıxarılmışlardır. Almanlardan 5 nəfər ölüb 6 nəfəri yaralanmışdır. Polyaklar boğucu qaz buraxırmışlar.

7 iyun tarixli Poznan qəzetəsinin verdiyi məlumata görə, arxada münasibatı mühafizə etməkdən ötrü 20 km məsafəsində cəbhə boyu idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi fövqəladə vəziyyət] elan edilmişdir. Verilən xəbərlərə görə, fransızlar Polşada təşkilat yapmaqdadırlar. Polşada fransız məmurları təyin edilir.

*(Bolşevik xəbərləri)*

**Ufada**

İyunun 17-də xəbər verilir ki, Samara komissarının verdiyi məlumata görə, Kolçak əsgərləri təcili surətdə Ufadan çıxıb bütün qiymətli şeyləri özləri ilə aparmışlar. Apara bilmədikləri şeyləri xarab etmişlərdir. Ufa mövqifi [stansiyası] qarət edilmişdir. Xəstəxanalar dərmansız qalmışdır. Əməliyyati-cərrahiyyə alətləri aparılmışdır. Qalan parovozlardan üçü təmir edilmişdir.

## SÜLH ƏTRAFINDA

**Türkiyə və Bolqariya müahidənamələri**

Təsəvvür edildiyinə görə, Türkiyə ilə Bolqariyaya veriləcək sülh müahidənamələri [sazişləri] – ki hazırlanmasında Amerika hökuməti müharibə elan etmədiyinə [görə] iştirak etməyir – Almaniya ilə Avstriya sülh müahidənaməsini imza etməyənə qədər müzakirə edilməyəcəkdir. Bu müahidənamələr ola bilər ki, İstanbulda, Səlanikdə və ya başqa bir şəhərdə imza ediləcəkdir.

**Fiume məsələsi**

Havas acentəliyi xəbər verir ki, Fiume məsələsi hələ həll edilməmişdir. Fransada böylə bir rəy hökmfərmadır [hökm sürməkdədir] ki, Fiume Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] komissiyası ilə azad şəhər elan ediləcəkdir.

- Berlindən "Tayms" qəzetəsinə verilən xəbərlərə görə, Noske demişdir ki:

"Heç bir hökumət ola bilməz ki, camaatını bu cür sülh müahidənaməsini qəbul etməyə məcbur etsin. Çünki bu cür sülh xarabazarlıqdan başqa bir şey deyildir. Tək bir çarə Cəmiyyəti-Əqvam vücuda gətirməkdən ibarətdir ki, onun işi mabeyn mənafeyi əsas[ı] [ortaq mənafe prinsipi] üzərində olsun."

Bu əhvalatı yazan müxbir hökumət böhranı olacağını xəbər verir.

**Berlindən protesto**

İyunun 12-də Berlindən xəbər verirlər ki, məmalikiəcnəbiyyədən [xarici ölkələrdən] gələn almanlar Vilhelmştrasse küçəsinə cəm olub sülh müahidənaməsi əleyhinə olaraq Şeydemana və Ebertə protesto etmişlərdir. Ebert nitq irad etdiyi [nitq söylədiyi] zaman demişdir ki:

*"Biz, tarixi bir qisasdan ibarət olan bu cür sülh müahidənaməsini imza etmərik. Almaniyanın sənaət [sənaye] və sədaqətinə bələd olan əcnəbi hökumətlər məmaliki-əcnəbiyyədə olan almanların qovulmalarına imkan verməzlər."*

Şeydeman imperiya kançleri [sarayı] qarşısında cəm olan Almaniya-avstriyalılara müraciətən demişdir ki:

*"Müttəfiqlərin avstriyalılarla məskun olan Almaniyanın Almaniyaya birləşməyinə mümaniət [maneçilik] göstərmələri müvəffəqiyyətsiz olacaqdır. Çünki qan səsi xeyli yüksəkdir. Tirol imperiyanın köhnə bir oblastı olmağa görə – ki onu indi təhlükə təhdid edir – Almaniya üçün əzizdir."*

**Almaniya fəhlələri**

Hökumət katibi doktor Deytç "F. P." qəzetəsində yazdığı məqaləsində bir çox aylar işsiz və ərzaqsız qalan fəhlələr arasında xeyli narazılıq olduğunu göstərir. Qəbulu qeyri-mümkün olan Versal sülh müahidənaməsi işləri fəna bir yerə müncər edəcəkdir [gətirib çıxaracaqdır]. Kommunistlər şura diktatoriyası vücuda gətirib, Macarıstan Şura Cümhuriyyətinə müavinət göstərməkdən ötrü fəhlələrin bu halından məmnuniyyətlə istifadəyə çalışırlar.

## TÜRKİYƏDƏ

**İzmir türklərdə qalır**

Batum xüsusi müxbirimizin yazdığına görə, İstanbulda böylə bir rəsmi elan nəşr edilmişdir:

Yunanlıların 16 həziran sabahı İzmirdəki qaraqolları təxliyə edərək gecə ikən qüvvətlərini qisim-qisim vapora irkab ilə [gəmiyə mindirərək] çəkilmək hazırlığında bulunduqları və yerli rumlar tərəfindən qəflət əsəri olaraq kəşidə olunan yunan bandıraları [qaldırılan yunan bayraqları] ortadan qaldırılmaqda olduğu və təxliyə edilən qaraqollara Osmanlı qüvvətləri iqamə edildiyi [yerləşdirildiyi] və əhaliyi-islamiyyənin pək böyük və mütəntən [təntənəli] və milli bayram yapmaq üçün hazırlıqda bulunduqları Üçüncü ordu qitəatı [hissələri] müfəttişi Mustafa Kamal paşadan şimdi alınan teleqrafnamədə anlaşılmaqla məəlməsarr [sevinclə] təbliğ olunur. Məqami-vilayətdən 16 həziran tarixli və 202 nömrəli teleqrafnaməsi ilə təbşir edildiyi [müjdə verildiyi] elan olunur.

*Qaimməqam vəkili qazı (imza)*

## QƏZETƏLƏRDƏN

**Kolçak və Denikin**

Bolşevik teleqrafları xəbər verir ki, iyunun 19-da Moskvadan xəbər verirlər ki, Ufa şəhərini almaq üçün axırıncı müharibələr əsnasında tutulan əsirlərdən bolşevik ordusu üçün hazırlanmış saxta intibahnamələr [vərəqələr] tapılmışdır. İntibahnamə xeyli namərbut [namünasib] bir surətdə yazılmışdır. Bu intibahnamənin bolşevik əsgərləri arasında müvəffəqiyyəti olmamışdır.

Dabravol ordusundan qaçıb gələnlərin dediyinə görə, Stavropol quberniyasında düşmən cəm edilmiş dabravolları siyahı etməkdədir.

Zəhmətkeş xalq dabravol əsgərliyindən qaçır. Əsgərlikdən qaçanları asırlar. Kazaklar qarət edilən libasları geyirlər. Çest verməyənlərə yüz taziyanə [qırmanc] vururlar. Jurov kəndində əsgərlikdən qaçanlar kənd yüzbaşısını öldürmüşlər. Əhali[nin] Denikini görməyə gözü yoxdur. Kazaklar çörək alıb qəbz verirlər. Denikin əhalini aldadıb tezlikdə Kolçakla birləşəcəyi haqqında yalan şayiələr buraxır. Tutulan əsirləri alıb güllələyirlər. Kəndxudalara əmr verilmişdir ki, mühakiməsiz assınlar. Əhali bolşevik əsgərlərini bilaaram gözləməkdədir.

Zlatoustda, Petropavlovskda, Korxanda böyük üsyan qalxmışdır. Bu üsyanı yatırmaq üçün cəbhədən kazak dəstələri gətirilmişdir. Qaçıb gələnlərin rəvayətinə görə, bolşevik əsgərlərinin bu axır vaxtda olan müvəffəqiyyətlərinə görə Belı qvardiya [Ağ qvardiya] əsgərlərinin ruhu düşkündür.

Rusiya vahidçilər qəzetəsi isə yazır ki:

*"Dağıstan ziyalıları, zabitləri və zəhmətkeşləri Dabravol ordu ilə dostanə rəftar edir. Bunlar Dabravol ordusunu təzə Rusiyanın müsəlləh [silahlı] qüvvəsi hesab edirlər."*

Hətta guya Cənubi Rusiyadakı bütün millətlər, xüsusən füqərayi-kasibə guya Kolçak və Denikin ordusunu bir naci [xilaskar] kimi gözləyirlərmiş və hər yerdə onları şadlıqla qarşılayırlarmış. Görəsən bu xəbərlərin hankisi doğrudur?

**Lenin Petroqrad haqqında**

Lenin Macarıstan Şura Hökumətinə müraciət etdiyi intibahnamədə [bəyanatda] etiraf edir ki, Petroqrad qəti surətdə mühasirə edilib, süqutu yəqindir [şübhəsizdir].

**Rakovskinin təklifi**

Ukrayna Xalq Komissarları Şurasının sədri Rakovski Müttəfiq dövlətlərə bir nota göndərib Cənubi Rusiya limanlarının bitərəf elan edilməsi təklifində bulunmuşdur.

**İtaliyalılar və bolşeviklər**

Yekaterinodardan xəbər verirlər ki, İtaliya Cümhuri firqəsinin Mərkəzi Komitəsi İtaliya Sosialist İttifaqı Direktoriyası ilə bolşevizm əleyhinə manifest elan etmişdir.

**General Franşeyə sui-qəsd**

İyunun 4-də Odessadan verilən bolşevik xəbərlərinə görə, fransız saldatları general Franşe D'Esperiyə suiqəsd etmişlərdir. General qolundan yaralanmışdır.

**Müttəfiqlər və Dabravollar Volqa boyunda**

Petrovskdan gəlmiş paroxod tayfalarının [gəmi işçilərinin] məlumatına görə, orada rəsmi surətdə məlumat alınmışdır ki, Hacı-Tərxana [Həştərxana] desant çıxarmaq üçün Dabravol qoşunu ilə Hacı-Tərxana əzimət etmiş [getmiş] olan gəmi Volqaya daxil olub, orada düşmən gəmilərinə təsadüf etməmişlərdir. Bu da təsdiq edir ki, bolşevik gəmiləri Volqanın yuxarı hissələrinə çəkilmişlərdir.

**Odessada**

Odessadan İstanbula gəlmiş olan şəxslərin rəvayətinə görə, rəsmi dairəyə mənsub olan bir nəfər əcnəbi xəbər verir ki, Cənubi Rusiyada bolşevizm gün-gündən düşür və şimdi oralarda anarşiya əmələ gəlməkdədir. Odessa dairəsində bolşevizm müxtəsər bir qüvvənin qarşısında da dayana bilməyəcəkdir. Odessanı 1500 nəfər Çin qoşunları mühafizə edir. Mayın 15-də Odessada yəhudi talanı başlanmışsa da, lakin sonradan dayandırılmışdır.

**Məxlu Məhəmmədəli şah**

Odessadan bolşeviklərin əlindən xilas olub da İstanbula gələnlər xəbər verirlər ki, məxlu [taxtdan salınmış] Məhəmmədəli şah [Qacar] hal-hazırda Prins cəzirəsindədir.

**Müxtəlif xəbərlər**

- Tiflisdə müntəşir [nəşr olunan] "Borba" qəzetəsi Zaqafqaziyaya İtaliya qoşunlarının gəlməsindən böylə məlumat almışdır:

Zaqafqaziyada olan ingilis qoşunları əvəzinə İtaliya qoşunlarının gəlməsi məsələsi Paris Konfransında həll edilmişdir. Deməli, mükəmməl surətdə qoşunlar təbdil olunacaqlardır [dəyişdiriləcəkdir]. İtaliya qoşunları Zaqafqaziya səfərinə hazırdırlar. Qoşunların gəmiyə minmələri bu günlərdə qurtaracaqdır.

- Zaqafqaziyaya yeni ingilis hissələri gəlmişdir ki, vətənlərinə gedən ingilis əsgərlərinə əvəz olsunlar.

- Batumdan gəlmiş olan bir şəxs bəyan edir ki, Novorossiyskdən alınan məlumata görə Tsaritsının dabravollar tərəfindən işğal edilməsi təyid [təsdiq] olunur. Hakəza [həmçinin] dabravolların Feodosiyanı aldıqları da xəbər verilir. Dabravol qoşunlarının Krım yoluna yaxınlaşdığı üçün Yekaterinodar səmtində bolşeviklər Krımı təxliyə edirlər. Batum xəbərlərinə görə, Şura qoşunları Odessanı da təxliyəyə başlamışlarmış.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 24 iyun (Çərşənbə axşamı günü) tarixli 210-cu nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

* Daxiliyyə nazirinin Morul kəndi əhalisindən toplamış üşrü kənd icmasına qaytarmaq haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Daxiliyyə Nəzarətinə tapşırılsın ki, Morul kəndindən toplanmış 623 pud ½ buğda, 141 pud 22 girvənkə arpa, 144 pud 31 girvənkə miqdarında darı Hərbiyyə Nəzarəti ilə etilaf [razılıq] üzrə Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] verilsin ki, həman kəndin füqəra sinifinə təqsim edilsin [paylansın].

* Daxiliyyə nazirinin sabiq polis müfəttişliyi katibi Fəxrəddin Kaşaninin Tumanyansdan aldığı 35.000 rublə sahibinə qaytarmaq haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Daxiliyyə Nəzarətinə pulun qaytarılması üçün tədabir ittixazı [tədbirlər görülməsi] tapşırılsın.

* Daxiliyyə nazirinin Mərkəzi Əxzi-əsgər [Hərbi çağırış] idarəsi məxaricatı üçün 24.400 rublə buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

20 milyonluq fonddan istənilən məbləğ buraxılsın.

* Ədliyyə nazirinin Azərbaycan dəmiryollarında tətil vaxtlarında təbliğatda müttəhim edilənlərin işlərinin qət edilməsi ilə azad edilmələri haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Nikolay Kaspar, Nikolay Xarlamov, Savileviç, Bortsov, Fyodorov, Zaqunov, Basovun işləri qət edilməklə azad edilsinlər.

* Rəisi-vükəlanın [Baş nazirin] sabiq Maarif naziri müavini [Həmid bəy] Şahtaxtlıya para vermək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

20 milyonluq fonddan Şahtaxtlıya, özünə vəzifə ixtiyar edənədək məvacibi 5.000 rublə borc olmaq üzrə verilsin. İyul ayı üçün o vaxt verilə bilər ki, müşarüni-leyh [adı çəkilən şəxs] özünə vəzifə tapmamış olsun. 1918-ci sənəsinin dekabr ayında verilmiş maaşı o məbləğdən çıxmalı.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Baş Fabrika müfəttişi Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir ki, Nobel qardaşlarının 3-cü müdiri Eyqenson nam [adlı] mühəndis fəhlələr tərəfindən xidmətindən əzl [kənar] edilmişdi. İyunun 18-də Baş müfəttişlə fəhlələrin müştərək iclaslarında məsələ müzakirə olunaraq qət edilmişdir ki, Eyqensonun işini təhqiq üçün xüsusi bir komisyon təşkil edilsin. O vaxtadək Eyqenson öz xidmətində qala biləcəkdir. Müfəttiş məlum etmişdir ki, fəhlələr öz işlərinə şüru etmişdirlər [başlamışlar].

- Məsai Nəzarətinin Bakıdan nəfy [sürgün] edilmiş Çurayev, Koval və digərlərinin qaytarılması barəsində verdiyi isticvabına [sorğusuna] cavabən Daxiliyyə Nəzarəti məlum etmişdir ki, hələlik onların qaytarılmasına Daxiliyyə Nəzarəti icazə vermək fikrində deyildir.

**Ədliyyə Nəzarətində**

Ədliyyə Nəzarəti cənbində [nəzdində] təşkil edilmiş Cinayət məhkəməsinə ictimai ənasirin [ünsürlərin] də düxulu məsələsi vicdan hakəmləri [arbitrləri] düxulu ilə xitampəzir olmuşdur [yekunlaşmışdır] ki, qanun layihəsi kimi tərtib verilərək bütün Azərbaycan dairəsində qullanmaq üçün əmr veriləcəkdir.

İşbu layihə komisyonun açıq iclasında müzakirə ediləcəkdir. Vicda[n hakəmlərinə] bütün 25 yaşına çatmış, məhkəmədə müttəhim edilməmiş erkəklər qəbul edilə bilərlər. Fəqət onların rusi [rusca] yaxud türkcə bilmələri şərtdir. İşbu işdən hərbi xidmətdə olanlar, polis məmurları, məhkəmə müəssisələri, dava vəkilləri, dövləti və ictimai müəssisələr həkimləri, istiqraz müəssisələrinin xəzinədar və kassirləri azad edilirlər. Dəvət ediləcəklərin siyahısı müsalihə [sülh, barışıq] məhkəmələri dairələrində müsalihə məhkəməsi rəisi təhti-nəzarətində [nəzarəti altında] tərtib verilərək qəza komisyonlarına verilir. Orada nahiyə məhkəməsi üzvü təhti-nəzarətində vicdan hakəmləri təyin edilirlər. Hər məhkəmədə 33 nəfər olacaqdır. Hər işə baxmaq üçün işbu 33 nəfərdən püşk ilə 8 nəfər intixab edilirlər [seçilir], 1 nəfər də ehtiyat üçün intixab edilir. İşbu 9 nəfər işə baxır.

İclası cinayət məhkəməsi üzvü aparır. Məzkur [deyilən şəxs], iş zamanında hüquq məsələsindən dolayı baş qalxızacaq məsələləri şəxsən həll edir. Vicdan hakəmlərinin odaları ayrı olduğu kimi, sədrdən və xalqdan da ayrı olurlar. Fəqət işin istimasından [dinlənməsindən] sonra sədr ilə çıxaraq məsələni əksəriyyəti-səda [səs çoxluğu] ilə qət edirlər.

Hakəmlər məhkəməsinə bütün ixtiyardan məhrum olmaq kimi nəticələri ola biləcək işlər verilir. Buraya dövləti cinayətlər də daxildir; mətbuat işləri və məmurin [məmurlar] əleyhinə görülən işlər – ki bu vaxtadək Rusiyada onların ixtiyarından alınmışdı. Məhkəmə isə fəqət qəlp pul kəsmə, qiymətli kağızlar çap etmək və dünyəvi cinayətlər yapmaq kimi işlərə baxacaqdır. Bütün işlər müttəhimin və yaxud onların vəkili vasitəsi ilə Palataya veriləbiləcəkdir.

## QARABAĞDAN

Azərbaycan Cümhuriyyətinin və türk millətinin azadlığını və istiqlaliyyətini boğmaqdan ötrü üstümüzə hücum edən qara qüvvələrin çarəsinə və tədbirinə nə qədər əhəmiyyət verilmək lazım isə, bir o qədər də Qarabağa, Qarabağ məsələsinə etina və əhəmiyyət verməyi vacib bilirəm. Çünki 5-6 ay tamam Qarabağda olub və Qarabağın həyati-ictimaiyyəsini, əhalinin amal və əfkarını [arzu və fikirlərini] öyrənib və Qarabağ məsələsi ətrafında işlənilən siyasətləri təcrübə ilə anlayıb həddi-yəqin ilə [əminliklə, qətiyyətlə] təkrar edirəm ki, Qarabağ məsələsinə gərək pək artıq əhəmiyyət verilsin.

İndi bu saat Qarabağda ermənilər müsəlmanlarla genə də dava başlayıblar. Genə də kəndlər yandırılıb, evlər talan edilib, insanlar heyvan sifəti gətirib, əllərində silah yolları kəsdirib yüz illərcə qapıbir qonşuluqda yaşadıqları əmi oğlu, xala oğlanlarını qırırlar. Dava zamanında hər iki tərəf biri-birinin yoxluğuna, puç olmasına tədbirlər qurub çalışırlarsa da, amma hər iki tərəf bunu həmişə zikr edirlər ki: "Genə də Allah şeytana lənət eyləsin. Bizi dinc, fərağat yaşamağa qoymayırlar."

Hər kəs Qarabağın halını, övzasını [vəziyyətini], qarabağlıların istədiklərini bilmək istərsə, gərək Qarabağ xalqı ilə danışsın, bilafərqi-məzhəb [məzhəb fərqi olmadan] həm ermənının və həm də müsəlmanın kəndçisi, zəhmətkeşi ilə danışsın və sonra da bilsin ki, həm Ararat hökuməti öz [Mixail] Arzumanyan, Tiqranyan, Şaxnazaryanları ilə və həm də bunları təşviq və təhrik edənlər Qarabağın insancasına zindəganlığını [yaşayışını, dolanışığını], qarabağlıların səadət və asayişini istəməyirlər.

Bu davadan qabaq hər yekşənbə [bazar] günü Ağdam bazarına iki-üç min nəfər erməni gəlib bazarın alış-verişinin 90 prosenti [faizi] ermənilərin əlində idi. Bazarda satanların da, alanların da əksəri dağ tərəflərdən gəlmiş ermənilər idi. Ermənilər bazara kömür, göyərti, xalça, palaz və şallar, taxta və odun və sair bu kimi şeylər gətirib satıb, əvəzində müsəlmanlardan arpa, buğda, darı və sair yeyinti şeylər alıb aparırdılar. Çox zaman olurdu ki, hökumət nümayəndələri qaçqınlar üçün, əsgərlər üçün və ya sair idarələr üçün qəlləcat [taxıl məhsulları] almaq istəyəndə ermənilərin əlindən bazardan heç bir şey tapa bilməyirdilər.

Bir dəfə müsəlman dükançı ilə bir nəfər erməni müştərinin böylə bir müsahibəsinə rast gəldim. Dükançı: "A balam, ay qonşu, bu gün bazardan azına bir milyon manatlıq buğda, arpa alıb aparmısınız. Amma özünüz də Azərbaycan hökumətinə tabe olmaq istəməyirsiniz. Hərgah, bu hökumət sizin olaydı və çörək də sizdə olaydı sizin hökuməti tanımaq istəməyənlərlə siz də böylə rəftar edərdinizmi?"

Erməni: "A canım! Doğru sözü gizlətmək heç insaf deyil. Hərgah, siz müsəlmanların çörəyi olmasa, heç bir nəfər erməni öz çörəyi ilə dolana bilməz. Genə, Allah sizdən razı olsun ki, siz bu qədər insaflısınız. Allah mərdimazara lənət eyləsin. Bizə nə qalıb ki, oturub Azərbaycanla dava edək? Çörəyimiz ondan, dolanışığımız ondan. Hər kəs ki, istəmir, qoy, getsin İrəvana. Amma bir neçə nəfər mərdimazarlar yığışıb gündə bizə bir hökm yazıb min cürə fokuslar çıxardırlar. Hər kəs gəlir deyir pul ver, amma heç bir nəfər gəlib çörək vermir. Hələ, buyruq buyurur. Deyir ki, komitet belə buyurur."

Həqiqətdə də belədir. Qarbağda hökumət məsələsini həll etmək üçün nə top-tüfəng, nə də diplomatlıq lazım deyildir. Qarabağlılar ancaq buna qərar versələr ki, hər kəs öz çörəyi və öz pulu, ticarəti ilə dolansın o vaxt məsələ bir az vaxtda özü özbaşına həll edilər. Budur, neçə zamandır ki, erməni mahallarına müsəlmanların yolu bağlıdır. Qaryagin, Xaçın, Gorus və sair erməni kəndlərinin içindən keçən yollar hamısı müsəlmanlar üçün bağlıdır. Amma Yevlaxdan Şuşaya kimi şose yolu ermənilər üçün nəinki açıqdır və hətta onların əmniyyəti, səlaməti üçün Qarabağ hökuməti tərəfindən xüsusi tədbir, xüsusi sərəncamlar da görülmüşdür. Hərgah, vaxtilə bu tədbirlər, bu insancasına sərəncamlar ermənilər tərəfindən dəxi görülsəydi və gəmidə oturub gəmiçi ilə dava edilməyə yol verilməsəydi, nə bugünkü qovğalar qopmazdı, nə də həmişə sülhpərvər müsəlman kəndçilərini məcbur etməzdilər ki, axırda özləri üçün əllərində silahla yol açmağa qədəm qoysunlar.

Bunu hər kəs bilir ki, insana çörək, su lazım olan kimi Qarabağın aşağı tərəflərində, aranlarında yaşayan müsəlmanlar üçün də yay fəslində yaylaqlara köçmək lazım və vacib bir məsələdir. Hərgah müsəlmanları yayda otlaqlara, dağlara buraxmazlarsa, onların canlarına, mallarına qəsd etmək deməkdir. Bu əhvalatı ermənilər özləri də bilib təsdiq edirlər və hətta ermənilərin Şuşada olan beşinci syezdləri də bunu bilib qərar vermişlər ki, gərək müsəlmanlara köç yolu verilsin. Bunuyla belə, Cavanşir, Qaryagin və Zəngəzur yolları genə də köç üçün açılmayıbdır. Bir tərəfdən müsəlmanlara deyirlər ki, köçərilərin əmniyyəti, sələmətliyi təmin edilmişdir, o biri tərəfdən yolları açmayırlar. Odur ki, axırda camaat təngə gəlib, indi hərə özü öz başına çarə qılmaq fikrinə düşüblər. İndi bu saat camaat içində çox böyük danışıq vardır. Hər yerdən, hər mahaldan adamlar gəlib Qarabağ hökumətindən xahiş edirlər ki, onlara öz təbii yolları ilə getməyə izin verilsin. Onlar heç bir siyasi və hökuməti işlərə qarışmaq istəməyirlər. Ancaq bunu istəyirlər ki, öz yolları ilə yaylaqlarına keçsinlər.

Bu iş zahiri nəzərlə çox da mühüm görülməyirsə də, amma Qarabağın əhvalına xəbərdar olanlar biləcəklər ki, bu məsələ Qarabağ üçün həyat-məmat [ölüm-qalım] məsələsidir. Ona görə də, məsləhət olardı ki, hökumətimiz bu barədə ciddi bir sərəncam görüb məsələyə artıq əhəmiyyət versin.

Çox şükürlər olsun ki, Şuşada və yavuq kəndlərdə yandırılmış bir balaca alovu Qarabağ qubernatoru artıq səy və kuşişlərlə [çalışmaqla] söndürə bildi. Amma bu alov böyüyüb ətraflara dağılarsa, yəqinimdir ki, nə qubernator və nə də başqaları bu bəlaya heç bir çarə tapa bilməyib, içindən çox böyük fənalıqlar nəşət etməsin [əmələ gəlməsin]. Hər halda ciddi tədbirlər lazımdır.

*Məhəmməd Sadıq [Aran]*

**Bədət-təhrir:** Vüquat [hadisələr] qəbilindən bunu xəbər verə bilərəm ki, Daşkənd denilən bir erməni kəndindən müsəlləh [silahlı] ermənilər Ağa körpüsü tərəfdən Şuşa yolunun qabağına çıxıb yol ilə gəlib-gedənləri güllələbaran edirlər. Bir neçə gün bundan əqdəm [qabaq] şəhərə un və buğda gətirən bir malıbəylili furqonçunun qabağını kəsib güllələbaran edəndən sonra furqonun atlarını açıb aparmışlar. Furqonda gələn un və buğda qubernator tərəfindən erməni qaçqınları üçün gətirilirmiş. Yolu kəsənlərin başçısı bir neçə gün bundan qabaqlara kimi Ağa körpüsü denilən qaraqol postunda uryadnik [polis məmuru] vəzifəsini ifa etməkdə idi. Şəhərdə şuluqluq düşən kimi həmin uryadnik Muxan da öz atını və tüfəngini götürüb, həman Daşkəndə qaçıb orada quldurlar dəstəsinə sərkərdə olubdur. Amma əsil həqiqətə baxsaq görərik yalnız Qarabağda deyil, bəlkə ümum Azərbaycanda hökumət xidmətlərində minlərcə Muxan kimi qulluqçular vardır ki, bu gün hökumətdən məvacib alıb, qulluq edib, sabah hökumətin düşməni olub yolkəsən olurlar. Buna da gərək bir çarə edilsin.

*M[əhəmməd] S[adıq] [Aran]*

## MƏSAİ NAZİRİ HƏZRƏTLƏRİNİN NƏZƏRİ-DİQQƏTLƏRİNƏ

Sevgili yurdumuz Azərbaycanın müdafiəsi üçün alınan əsgərlər cümləsində öylə şəxslər dəxi gedirlər ki, banklarda, Xəzinədə, Palatada və başqa bu növ idarələrdə qulluq edirlər. Məzkur [deyilən] qulluqçular millətimizin ziyalı qismini təşkil etdiklərindən, sevgili vətəninə və millətinə xaricdən gələn təhdidi və təhlükəni hamıdan əvvəl düşünüb, baha qiymətə alınmış istiqlaliyyətini daimi surətdə əldə saxlamaq üçün gülər üzlə əsgərlər sırasına dururlar. Məzkur məmurların əksərinin dolanacağı, qulluq etdikləri idarələrdən aldıqları maaşla olduğu həpimizin məlumudur.

Sabiq rus hökumətinin qanunu mövcibincə [qanununa görə], əsgərliyə alınmış bir məmura qulluq etdiyi idarə özünə birdəfəlik və ailəsinə hər ay məmurun aldığı paranın yarısını verirdi. Fəqət, şimdi nədənsə fövqəlzikr [yuxarıda adı çəkilən] idarələr əsgər düşən müsəlman qulluqçularına nəinki birdəfəlik para və yaxud ailəsinə hər ay başında para verməyirlər, hətta məmurun bir ayının maaşını verməkdən belə imtina edirlər. Bundan dolayıdır ki, məmurların ailələrinin halı maddətən pək fəna bir surət kəsb edir.

İşbu idarələrin məmurlar haqqında bu tövr rəftarda bulunmalarını möhtərəm Məsai Nazirinin nəzər-diqqətlərinə yetirib, min-bəd [bundan sonra] böylə fəna rəftarların önü alınmasını istida [xahiş] və arzu edərdik ki, müqəddəs vətəninin müdafiəsinə çıxan işbu möhtərəm zəvatların [şəxslərin] halları nəzərə alınıb, ailələrinin yaşayışı nəinki birdəfəlik, bəlkə əbədi olaraq təmin olunsun.

*Bir nəfər məmur*

## BAKI XƏBƏRLƏRİ

**Yeni bir qəzetə**

"Əhrar" firqəsinin mürəvvici-əfkarı [fikirlərini yayan orqanı] olmaq üzrə bu yaxınlarda Bakıda "El" adında bir qəzetə çıxmağa başlayacaqdır. Bu qəzetə sadə türk dilində olub, hələlik həftədə bir dəfə çıxacaqdır.

**Millilləşmiş məkatib üçün kitab təlifi**

Gələcək təhsil sənəsi üçün məkatibdə [məktəblərdə] tədrisat kitabları hazırlamaq üçün Ziyalılar İttifaqının Maarif şöbəsinin təşəbbüsatı ilə Maarif naziri müavini Nurməhəmməd Şahsüvarovun iştirakı ilə bir neçə gün bundan əqdəm [qabaq] müəllimlərin müşavirəsi olmuşdur. Müşavirədə qət edilmişdir [qərara alınmışdır] ki, gələcək sənə üçün tədrisat kitabları hazırlayacaq müəllimlərdən xüsusi komisyonlar təşkil edilsin. Riyaziyyat, tarix və coğrafiya, tarixi-təbii və ədəbiyyat komisyonları təşkil edilmişdir ki, fəaliyyətə başlayaraq kitablar təlif edirlər [yazırlar]. Komisyonlarda 30 nəfərdən ziyadə müəllim iştirak etməkdədir. Birinci Realnı məktəbi mülkü komisyonun ixtiyarına verilmişdir.

**Yeni Maarif naziri**

Aldığımız məlumata görə, məşhur İstanbul Darülfünunu [Universiteti] professoru [Rəşid xan] Qaplanov həzrətləri Maarif nazirliyinə təyin edilmişdir.

**Lənkəran ətrafında**

Bir neçə gün bundan əqdəm bir nəfərin dediyinə görə, rus Astarasını işğalən bir çox kəndlərin dağılmasını yazmışdıq. Yeni aldığımız məlumata görə, Ramazan öz dəstələri ilə Lənkəran qəsəbəsinin 7 verstliyində vaqe Dəlli kəndini işğal etmişdir. Lənkəran bolşevikləri qəsəbədə 18-dən 25 yaşınadək səfərbərlik elan etmişdirlər. Bəndərdə [limanda] durmuş "Milyutin" vaporunu bolşeviklər qaçmaq üçün hazırlamışdırlar. Fəqət uzaq qaçammayacaqları ehtimal edilir. Zira vaporda bir az mazut vardır ki, uzaq getməyə kifayət etməyəcəkdir.

**Cəmiyyəti-Maarifi-İraniyan "Tərəqqi"**

May ayının 30-u Fəhlə Klubunda Cəmiyyəti-Maarifi-İraniyan [İranlıların Maarif Cəmiyyəti] "Tərəqqi" idarəsi tərəfindən həvəskarlar iştirakı ilə "İntiqami-həqiqi" faciəsi mövqeyi-tamaşaya qoyulub zeyldəki [aşağıdakı] məbləğ hasil olmuşdur.

Mədaxil: Bilet satışından 14.240 manat, məramnamə satışından 263 manat 50 qəpik, ianə 975 manat. Cümlətan: 15.473 manat 50 qəpik.

Məxaric: Hökumət vergisi 2.653 manat 30 qəpik, başqa xərclər 2.059 manat. Cümlətan: 4.713 manat.

Cəmiyyəti-Maarifi-İraniyan "Tərəqqi" "İntiqami-həqiqi" teatrosunda hər növ müavinət edən zəvata [kömək edən şəxslərə], xüsusən Heydər Əlizadə, Ağahəsən Möhsünzadə, Ələkbər Tağızadə və Qulam Cabbarzadə cənablarına təşəkkür edir.

*İdareyi-Cəmiyyəti-Maarifi-İraniyan "Tərəqqi"*

## AZƏRBAYCANDA

**Kuban ilə mal mübadiləsi**

Azərbaycan Ticarət, Sənaye və Ərzaq Nəzarəti mal mübadiləsi və ticarəti [ticari] əlaqə başlamaq barəsində Kuban hökuməti ilə etilafa [razılığa] girişmişdir. Kuban hökuməti arzu etmişdir ki, möhkəm qiymətlə Azərbaycandan cövhər [kerosin], benzin, mineral və çarx yağı, səb zə, düyü və pambıq istəyir. Öz növbətində, Kuban hökuməti Azərbaycana 36 manat 25 qəpikdən pudu buğda, 32 manat 50 qəpikdən roj [çovdar], 31 manat 90 qəpikdən çəltik, 31 manat 90 qəpikdən arpa, 32 manat 50 qəpikdən peyğəmbəri buğdası təklif edir. Bu barədə Ticarət Nəzarəti Bakı Neftçilər İctiması sədrinə, Ticarət Sənaye İttifaqına, Birja Komitəsinə, Nəqliyyat Cəmiyyəti İttifaqına müraciət edərək təvəqqe edir məlum etsinlər ki, yuxarıda zikr edilən mallardan nə miqdarda və nə fiyatla Batuma mal mübadilə əvəzinə göndərmək olar.

**Lənkərana hücum etmək şayiələri**

Bu günlərdə bolşeviklərin zəifliyindən müstəfid olan [istifadə edən] İran kazak ərkani-hərbi[nin] [hərbi qərargahının] Lənkərana hücum etmək tədabir [tədbirləri] və hazırlıqları şaiyatı ciddi surətdə dövran etməkdədir. Bu günlərdə bolşeviklər qorxusundan qaçan gömrük rəisi Lijonun məiyyəti [müşayiəti] ilə güclü kazak qüvvəsi gözlənir. Bunlar rus və İran Astarasının quldur dəstələrinin köməkliyi ilə Lənkəranı almaq xəyalındadırlar. Sahibsiz və kimsəsiz qalan bu yerin gələcək zəhərli dəqiqələri müşahidə edilməkdədir. "Hər koca səng ayəd, be paye ləng ayəd" misrasının misdaqınca [təsdiq etdiyi kimi], şu zavallı vilayətin axırda bit-birə tapdağı olacağı çəkiləcək bir dərd deyildir.

*Qəmkeş*

**Dağ kəndləri**

Beş-altı ay bundan irəli Quba uyezdində bulunan dağ kəndliləri hökumətə müraciət edib özlərinin Bakı üstündə yazılmalarını xahiş etmişlərdi. Çünki dağ kəndlərinin istər iqtisadca, istər məişətcə əlaqələri Qubadan artıq Bakı ilə olur. Buna görə özlərinin Bakı uyezdinə daxil edilmələrini rica etmişlərdi. Hökumət də onların işbu ricasını sərəncamsız buraxmayıb onları Bakı kəndləri üstünə daxil etmişdir.

Bu günlərdə dağ kəndlərinin mərkəzi bulunan Sayad Xızı "Müsavat" şöbəsi Bakı Mərkəzi Komitəsinə müraciətlə dağ kəndlərində Səhhəti-Ümumiyyə Nəzarəti tərəfindən bir xəstəxana açılmasını rica etmişlər. Əlavə olaraq, Sayad Xızı kəndində bir posta idarəsi, bir də ibtidai məktəb güşad edilməsini [açılmasını] istəmişlərdir.

Məlumdur ki, bu vaxtadək oralara mədəniyyət heç bir növlə sövq edilməmiş. Fitrətən qeyri kənd əhalisindən zəki olan dağlılar mədəni həyata yaxınlaşmağa təşəbbüs etməkdədirlər. Bu təşəbbüslərini birinci dəfə Bakı uyezdinə daxil olmaqla, ikincisi orada "Müsavat" firqəsinin şöbəsini güşadla, üçüncü "Müsavat" vasitəsilə postaxana, məktəb və xəstəxana kimi mədəni müəssisələr tələb etməklə bildirməkdədirlər. "Müsavat" firqəsi məktəb açmaq barəsində Maarif Nəzarətinə, postaxana üçün Posta və Teleqraf Nəzarətinə, xəstəxana üçün də Səhhəti-Ümumiyyə Nəzarətinə müraciət edib, tezliklə onların xahişinə əməl edilməsini rica etmişdir. Ümid var ki, bu yaxınlarda arzu edilən mədəni müəssisələr Sayad Xızıda açılsın. Bununla bərabər, Ərzaq Nəzarətinə də müraciət edilmişdir ki, dağ kəndlərinə ərzaq xüsusunda müavinət etmək üçün orada bir də ərzaq şöbəsi açılsın.

## GÜRCÜSTANDA

**Qaqrada**

Gürcüstanda olan Yunan Milli Şurasına Qaqrada yaşayan yunanlardan böylə bir teleqraf gəlmişdir:

*"Mayın 25-də ermənilər və Dabrovol dəstələri Salyami kəndini bombardman etmişlər. Əhali qorxu ilə qaçmışdır. Sonra yunan təbəələrinin hər bir müxəlləfatı [əşyası] qarət edilmişdir. Bir çox qızlar oğurlanıb üç nəfər kişi aparılmışdır. Oğurlanan qızların, kişilərin və qarət edilən şeylərin tezliklə tələb olunmasını xahiş edirik. Bu barədə Yunanıstan hökumətinə xəbər verməyiniz dəxi xahiş olunur. Sizdən acizanə rica edirik, bu tövr hərəkət əleyhinə mümkün qədər tezliklə tədbirlər görəsiniz".*

## TƏKZİB

Türkcə "Azərbaycan" qəzetəsinin 10 iyun 110-cu nömrəsində Ümuri-Xeyriyyə Nəzarətinin [Sosial Təminat Nazirliyinin] Rus Milli Şurasına müraciətlə gömrükxana mühafizə dəstəsi təşkil edilməsi haqqında yazılan fəqərə [hadisə] münasibəti ilə Ümuri-Xeyriyyə Nəzarəti lazım bilir xəbər versin ki, həman məsələ səhv olmuşdur. Rus Milli Şurası işsizlərə təxsisat verilməsi [pul ayrılması] üçün dəfələrlə Nəzarətə müraciət etdiyinə görə, Ümuri-Xeyriyyə Nəzarəti işsizləri hesaba almaqdan ötrü işsizlərin siyahısını Rus Milli Şurasından istəmişdi. Bu cür siyahı verildikdən sonra Nəzarət Bakı Gömrükxanasında 40 gözətçi (dasmotrçik) və qeyri qulluqçuların ştatı artırılması haqqında keçən ay mayın 23-də Vükəla Şurasının [Nazirlər Kabinetinin] qətnaməsini Rus Milli Şurasına xəbər verib zənn etmişdi ki, siyahıda göstərilən adamlar ehtiyac içrə olduqlarına görə lazımi istidada bulunarlar [müraciət edərlər]. Vəilla [yoxsa], rus qulluqçuları cəm edilməsi haqqında heç bir söz olmamışdır.

*Ümuri-Xeyriyyə və Nafiə şöbəsi naçalniki (imza)*

**İtibdir**

Rəşid Nəsrulla oğlunun əsgərlikdən azad olmaq vəsiqəsi itib, etibardan saqitdir [etibarsızdır].

*10252*

**Şüvəlanda**

Hacıyevin bağında iyul ayının birindən etibarən (ali təhsil görmüş) ali məktəbin müəllimi dərs verəcəkdir. Xahiş edənlər iyulun 1-nə qədər bu adresə müraciət edə bilərlər: Nikolayevski küçə, diş həkimi Hamburqun mənzili, telefon nömrə 5-96, Parlaman qarşısında.

*10253*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

Moskvada təcrübə görmüş diş həkimi **K. S. Kolandskaya-Sanuxat** kabinə açmışdır. Müalicə edir, dişləri doldurur, süni dişlər qayırır və dişləri ağrısız çəkir. Qiymət münasibdir. Qəbul edir: Hər gün səhər saat 9-2-yədək; aşxam saat 5-7-yədək. Adres: Bazarnı və Suraxanski küçələrin küncündə, nömrə 112.

*8795*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Fin-kelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi R. S. Fuks**

Qəbul edir: 9-dan 10-a dək; 5-dən 7-yə dək. Ünvan: Mariinski, nömrə 18. Ferdinandın aptekası ilə bərabər. Telefon nömrə 34-15.

*10202*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*8798*

**Rus çayı**

Xırda-xırda çox miqdar qiymətinə satılır. İ. V. Denisovun bankir kantorasında (Olqinski və Nikolayevski küçələrin küncündə; telefon nömrə 37-75).

*10245*

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Teleqraf xəbərləri***

"Yamburq": Rusiyanın Leninqrad vilayətində Kinqisepp şəhərinin köhnə adı.

"Qdov": Rusiyanın Pskov vilayətində şəhər; qəzetdə "Qdov" yerinə səhvən "Qzov" getmişdir.

"həbəş imperatriçəsi və vəliəhdi": 1916-1930-cu illərdə Həbəşistan imperatriçəsi olan Zauditu və eyni dövrdə səltənət naibi olan Teferi Mekonnın nəzərdə tutulur.

"Menelik": 1889-1913-cü illərdə Həbəşistan imperatoru olan II Menelik nəzərdə tutulur; 1916-1930-cu illərdə Həbəşistan imperatriçəsi olan Zauditu, II Menelikin qızı idi.

"Haller alayının əsgərləri": Polşa generalı Yozef Hallerin qoşunu nəzərdə tutulur.

***Sülh ətrafında***

"Vilhelmştrasse" [Wilhelmstraße]: Berlinin mərkəzi küçələrindən biri. XVIII əsrdə Prussiya kralı olan I Fridrix Vilhelmin şərəfinə adlandırılmışdır. Almaniyanın bir sıra vacib dövlət qurumları bu küçədə yerləşmişdir.

"imperiya kançleri [sarayı] qarşısında": Almaniyada imperiya dövründə icraedici hakimiyyətin başçısı, Veymar Respublikası və Üçüncü Reyx dövründə Hökumət başçısı reyxkansler, yəni imperiya kansleri [Reichkanzler] adlanırdı. Reyxkanslerin sarayı Reyxkanselyariya [Reichkanzlei] Berlində Vilhelmştrasse küçəsində yerləşirdi.

"Macarıstan Şura Cümhuriyyəti" (Macarıstan Sovet Respublikası): Macarıstanın bəzi ərazilərində 1919-cu ilin 21 martından 6 avqustuna qədər mövcud olmuş siyasi qurum.

***Türkiyədə***

"16 həziran sabahı": qəzetdə səhvən belə getmişdir: "16 həziran 22 sabahı".

***Türkiyədə***

"16 həziran tarixli və 202 nömrəli": qəzetdə səhvən belə getmişdir: "16 həziran və 22 tarixli və 202 nömrəli".

***Qəzetələrdən***

"Prins cəzirəsi" (yaxud Prins adaları): Mərmərə dənizində, İstanbul sahilinə yaxın 9 adadan ibarət arxipelaq.

***Vükəla Şurasında***

"üşr": kənd təsərrüfatı məhsullarından onda bir miqdarında alınan dini vergi.

"kənd icmasına qaytarmaq": qəzetdə "icmasına" yerinə "ictimasına" getmişdir.

***Nəzarətlərdə***

"Baş Fabrika müfəttişi": Sənaye müəssisələrində əmək şəraitinə nəzarət edən dövlət qurumu Fabrik Müfəttişliyinin baş müfəttişi.

**Qarabağdan**

"Bədət-təhrir": "yazandan sonra"; P. S.

***Azərbaycanda***

"Hər koca səng ayəd, be paye ləng ayəd": "Hara daş atılsa, axsaq ayağa dəyər" (farsca)

***Təkzib***

"10 iyun 110-cu nömrəsində": burada qəzetin nömrəsi səhv göstərilmişdir; gömrük mühafizəsinə rusların işə dəvət edilməsi haqqında məlumat, qəzetin 10 iyun tarixli 200-cü nömrəsində, "Bakı xəbərləri" daxilində "Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqında" yazısında getmişdir.




# Məktublar: problemlər, rəylər, təkliflər...



● QƏHRƏMANLAR UNUDULMUR

## Ürəyi Vətənə bağlı igid

**Vətən naminə odlardan keçib ölümsüzlüyə qovuşan qəhrəmanlardan biri də Biləsuvar rayonu Günəşli kəndində boya-başa çatan Nihad Akif oğlu Babayevdir. 29 yaşında ulu torpağın bağrına zəfər bayrağı sancan Nihadın adı indi dillərdən düşmür.**

Onun ömür yolu qısa olsa da, Azərbaycan xalqı üçün qəhrəmanlıq simvoluna çevrilib. Qərinələr boyunca Nihad ürəklərdə yaşayacaq, gələn nəsillər onun Vətənə, torpağa sevgisini özünə örnək biləcəklər. Ölümündən sonra təltif olunduğu "Vətən Müharibəsi Qəhrəmanı" adı, "Vətən uğrunda", Xocavəndin və Füzulinin azadlığına görə medalları onun yüksəldiyi müqəddəslik zirvəsində sönməyən işıq olacaq.

Nihad Babayev məktəbdə oxuduğu zaman hərb sahəsinə maraq göstərib. 15 yaşında Cəmşid Naxçıvanski adına hərbi liseyə, 18 yaşında Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə yüksək nəticə ilə qəbul olub. 2012-ci ildə leytenant rütbəsi alaraq xüsusi təyinatlı qüvvələrdə təlimə başlayıb və kursu uğurla bitirdikdən sonra Naxçıvana xidmətə göndərilib. Daha sonra Türkiyədə snayper təlimlərində iştirak edərək uğurlu nəticələr qazanıb, ardınca Gürcüstanda dağa dırmanma üzrə xüsusi kurs keçib. Nihad Babayev yüksək peşəkar kəşfiyyatçı təcrübəsinə malik olmaqla, həm də erməni, ingilis və rus dillərində səlis danışmağı da bacarıb.



Nihad düşmənə ilk dəfə gücünü 2018-ci ildə Naxçıvanda "Günnüt əməliyyatı"nda göstərib. 3 gün eyni mövqedə erməni mayorun maşınını gözləyib və gəlib keçəndə onu snayperlə vurub. Od-alovun içərisində çiyin-çiyinə vuruşduğu döyüş yoldaşları ilə birgə iştirak etdiyi "Günnüt əməliyyatı" nəticəsində Günnüt kəndi, "Ağbulaq" yüksəkliyi, Qızılqaya dağı, Qaraqaya dağı daxil olmaqla 11 min hektarlıq ərazi işğaldan azad olunub.

44 günlük haqq savaşımız başlayanda Naxçıvan XTQ-də hərbi hissə komandirinin müavini olan və bir neçə ay öncə kapitan rütbəsinə yüksələn Nihad Babayevi rəhbərlik orada saxlamaq qərarına gəlib. Lakin Vətən sevdalı qəhrəman hərbi komandanlığa raportla müraciət edərək Qarabağda döyüşlərə qatılmaq istəyini bildirib. Oktyabrın 3-də Naxçıvandan göndərilən qrupun tərkibinə onun da adı salınıb. Kapitan Babayev Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan uğrunda döyüşlərdə hər zaman öndə gedib, ölümün gözünə dik baxıb. Qrup komandiri verilən döyüş tapşırıqlarını hərbçi yoldaşları ilə birlikdə böyük cəsarət və hünərlə yerinə yetirib. Yağının kabusuna çevrilməklə neçə-neçə ağır sınaqlardan üzüağ çıxıb.

Nihad 44 günlük müharibənin düz 30 gününü hər an ölümlə üz-üzə qalmaqla düşmənə qarşı qəhrəmanlıqla vuruşub. Oktyabrın 29-da Füzulinin Yuxarı Veysəlli kəndinə yaxın yüksəklik uğrunda gedən şiddətli döyüşlərdə ağır yaralanıb. Rəhbərlik etdiyi qrupdan xeyli irəlidə təkbaşına təxminən 10 dəqiqə döyüşdükdən sonra şəhidlik zirvəsinə yüksəlib.

Kapitan Nihad Babayev qısa, amma şərəfli ömür yaşadı. Canını Vətəninə fəda etməklə özündən sonra doğmalarına, el-obasına, bütöv xalqına əbədi qürur miras qoydu.

*Zəfər ORUCOĞLU*

● EHTİRAM

## Qəhrəman oğulun qəhrəman anası

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva şəhid anaları ilə görüşlərinin birində belə bir fikir səsləndirmişdi: "Şəhid anaları qəhrəman analardır!"**

Belələrindən biri - Vətən Müharibəsi Qəhrəmanı Anar Şükürovun anası Emma Şükürovadır. Onunla söhbət əsnasında öyrənirik ki, 1956-cı ildə Sumqayıt şəhərində anadan olub. 16 saylı tam orta məktəbi əla qiymətlərlə başa vurub. 1974-cü ildə Azərbaycan Pedaqoji İnstitutunun Riyaziyyat fakültəsini bitirib. Sumqayıt şəhər 33 saylı tam orta məktəbdə fəaliyyətə başlayıb. Bu təhsil ocağında 45 ilə yaxın riyaziyyat müəllimi işləyib. Həyat yoldaşı Mehman Şükürov da pedaqoq olub və 50 il müəllim kimi çalışıb.

Emma xanım söyləyir ki, böyük oğlu Arzu Almaniyada bizneslə məşğuldur. İkincisi Anar isə 1977-ci il yanvarın 20-də anadan olub. 1983-cü ildə Sumqayıt şəhər 28 nömrəli tam orta məktəbin birinci sinfinə gedib, 6-cı sinfədək orada oxuyub. Sonra Sumqayıt şəhər 25 nömrəli tam orta məktəbin riyaziyyat təmayüllü sinfində təhsilini davam etdirib. Hazırda həmin məktəb onun adını daşıyır.



Anar Vətənə bağlı uşaq idi. Ata yurdu Qarabağın düşmən tapdağı altında qalmasına dözə bilmirdi. Bu barədə atası ilə tez-tez söhbət edər, qisas alınacağı günə ümid bəsləyərdi. Xüsusi Təyinatlı Qüvvələrin "N" saylı hərbi hissəsində qrup və tabor komandiri idi. Sonra xidmətini Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun sıralarında davam etdirib. Ehtiyatda olan polkovnik-leytenant Anar Şükürov İkinci Qarabağ savaşında göstərdiyi şücaətə görə "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb.

Emma ana sözünə davam edərək oğlu ilə bağlı xatirələrini dilə gətirdi: "Mənim üzərimdə əziyyətin çox olub, borcunu heç nə ilə ödəyə bilmərəm, ancaq gün gələcək, sənə oğul fəxarəti yaşadacağam - deyirdi. Əhdinə xilaf çıxmadı Anarım. Lakin hər qapı açılanda boylanıram ki, bəlkə gələn Anardır. Elə bilirəm ki, döyüşdədir, gələcək… Ürəyimdə təsəlli tapıram ki, övladım Vətən uğrunda həlak olub. Mənə deyirdi ki, bir ovuc torpaq uğrunda ölmək şərəfdir". Emma ana onu da bildirdi ki, Anarın nə qədər arzuları, diləkləri olub. Qızının da adını Dilək qoymuşdu. Həyat yoldaşı Şəmsiyyəni özü sevib-seçmişdi.

Qəhrəman oğulun qəhrəman anası təkcə öz oğlundan söhbət açmırdı. O, bütün şəhidləri övladı hesab edir. Belə anaların qayğısına qalmaq isə bizim şərəf borcumuzdur.

*İlhamə MƏHƏMMƏDQIZI,*
*Sumqayıt şəhər sakini*

● RAZILIQ

## Binamıza yeni lift quraşdırılır

**Yaşadığımız binada olan liftlərin pis işləməsi barədə dəfələrlə rayon rəhbərliyinə müraciət edirdik. Sağ olsunlar, hər dəfə gəlib təmir edirdilər. Lakin çox çəkmirdi ki, liftlər yenidən xarab olurdu.**

Dövlət başçısının "Azərbaycan Respublikasında çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" imzaladığı sərəncama əsasən, lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində artıq işlərə başlanılmışdır. Bu sənədə görə, 7 şəhər üzrə 200 liftin quraşdırılması nəzərdə tutulmuşdur ki, onun da 2-si Qazax şəhərindədir. Şəhərimizin Heydər Əliyev prospektindəki 179 saylı binada yeni liftlər artıq quraşdırılır.



Hörmətli redaksiya! Bu işdə əməyi olan hər kəsə qəzetiniz vasitəsilə minnətdarlığımızı bildiririk.

*Zabit MƏMMƏDOV,*
*Qazax rayon sakini*

● FOTO

## Otaq bitkiləri həm sağlamlıqdır, həm də estetik gözəllik



**Ev şəraitində bitki saxlamaq həm sağlamlıqdır, həm də psixoloji baxımdan bir çox müsbət təsirlərə malikdir. Təbiətlə ünsiyyət insanın daxili dünyasını sakitləşdirdiyi kimi, ev bitkiləri də təbiətin bir parçası olaraq gündəlik həyatımıza rahatlıq gətirir.**

Alimlərin araşdırmalarına görə, otaq bitkiləri havanı təmizləyir, oksigen səviyyəsini artırır, rütubəti tənzimləyir və stresin azalmasına kömək edir. Xüsusilə şəhər mühitində yaşayan insanlar üçün evdə bitki saxlamaq təbii nəfəs mənbəyi rolunu oynayır. Bunlardan əlavə, bitkilərə qulluq prosesi insanın məsuliyyət hissini artırır, gündəlik qayğılarını unudaraq diqqətini başqa bir canlıya yönəltməsinə şərait yaradır. Sulama, torpağın dəyişdirilməsi, yarpaqların təmizlənməsi kimi sadə işlər həm fiziki aktivliyi artırır, həm də insanın beynini sakitləşdirir. Psixoloqların fikrincə, bitkilərə qulluq edən insanlarda depressiya və narahatlıq halları daha az müşahidə olunur. Bitkiyə baxmaq, onun inkişafını izləmək və böyüdüyünü görmək insanda sevinc və məmnunluq hissi yaradır. Təcrübə göstərir ki, bitkilərə sevgi ilə yanaşanda, onlara xüsusi qayğı göstərəndə daha yaxşı inkişaf edirlər. Bitkilərə qulluğu həyat tərzinə çevirmiş insanlar yetişdirib bəslədiyi bitkilərlə söhbətləşir, onları uşaq kimi əzizləyir və bundan xüsusi zövq alırlar.

Evdə havanı daha çox oksigenlə zənginləşdirən bitkilər arasında aloe vera, xlorofitum (hörümçək bitkisi), sansevieriya (ilan bitkisi), areka xurması, bambuk palma və fikus növləri xüsusilə seçilir. NASA-nın apardığı araşdırmalara əsasən, bu bitkilər yalnız oksigen istehsal etmir, həm də havadakı zərərli toksinləri (formaldehid, benzen, ammonyak və s.) udaraq təmiz mühit yaradır. Aloe vera gecə də oksigen istehsal etdiyi üçün yataq otağı üçün ideal hesab olunur. Sansevieriya isə istənilən şəraitdə asanlıqla böyüyə bilir və havanı effektiv şəkildə təmizləyir.

Hər bir bitkinin özünəməxsus xüsusiyyəti olduğu kimi, qulluqetmə qaydası da var. Elə bitkilər var ki, sərin yerə qoymaq və onların sulanma rejiminə diqqət etmək lazımdır. Bəzi otaq bitkiləri gec, bəziləri isə əksinə, intensiv su verilməsini tələb edir. Xüsusən qış aylarında otaq bitkilərinə yer seçərkən diqqətli olmaq, qızdırıcı panellərə yaxın yerləşdirməmək, amma işıq almasına, soyuqla təmasda olmamasını nəzarətdə saxlamaq lazımdır. Tez-tez iqlim dəyişikliyinə məruz qalmaları da bitkilərin inkişafına zərər yetirə bilir.

Xarici ölkələrdə ev və ofis interyerlərində bitkilərin istifadəsi daha geniş yayılıb. Skandinaviya ölkələrində "biofilik dizayn" adlanan yanaşma ilə evlər və iş yerləri çoxlu yaşıl bitkilərlə bəzədilir. Bu üsul işçilərin məhsuldarlığını artırır, stres səviyyəsini azaldır və yaradıcılığı stimullaşdırır. Yaponiya və Koreyada isə "fitonsid terapiyası" deyilən üsul tətbiq olunur - bitkilərin yaydığı təbii efir yağları sinir sistemini sakitləşdirir, immuniteti gücləndirir. Bundan başqa, Avropa ölkələrində vertikal bağlar, yəni divar boyu yaşıl kompozisiyalar xüsusi populyarlıq qazanıb. Bu dekorativ yanaşma həm vizual gözəllik, həm də sağlamlıq baxımından üstünlük təşkil edir.

Hətta otaq bitkiləri ilə bağlı müəyyən inanclar da mövcuddur. Son vaxtlar mənfi enerjiyə qarşı həssas olduğu deyilən krasula - pul ağacı kimi tanıdığımız bitkiyə evlərdə üstünlük verilir və onun ruzi bolluğu yaradacağına inanırlar. Kaktusları radiasiyanı süngər kimi çəkdiyinə inanaraq kompüterlərin yanında yerləşdirənlər də var.

Ən gözəl dekorativ görünüşə malik ev bitkiləri arasında monstera, orkide, anturium, kaktus və sukulentlər, həmçinin zəncəfilçiçəyi və bromeliya kimi ekzotik növlər seçilir. Monstera iri yarpaqları ilə interyerə tropik hava qatır, orkide zərif çiçəkləri ilə zövq oxşayır, anturium isə həm parlaq yarpaqları, həm də çiçəkləri ilə evə təravət gətirir. Bütün bunlar deməyə əsas verir ki, dekorativ bitkilərin seçimi insanın estetik zövqünə təsir edir və evdə xoş əhvali-ruhiyyə yaradır.

Beləliklə, evdə bitki saxlamaq sadəcə dekorativ məqsəd daşımır, həm də fiziki sağlamlıq və psixoloji rahatlıq üçün böyük əhəmiyyət kəsb edir. Xarici ölkələrdə tətbiq olunan yaşıl dizayn üsulları isə göstərir ki, bitkilər yalnız evlərimizdə deyil, iş mühitində də əvəzsiz fayda mənbəyidir. Gözəl görünüşlü dekorativ bitkilər həm sağlamlıq, həm də estetik baxımdan həyat keyfiyyətini artırır.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

● TARİXİMİZ

## 130 yaşlı Tağlı körpü

**Bu gün Qubaya gələn turistlər həm də rayonun keçmişi ilə maraqlanır, tarixi yerlərini ziyarət edirlər. Keçmis mühəndis tikililərindən dövrümüzə qədər qorunub saxlanılan abidələr içərisində mühüm tarixi-memarlıq əhəmiyyətinə malik olanlardan biri də Tağlı körpüdür.**

XIX əsrdə Quba qəzasında 7 körpü olmuşdur. Tarixçilərin araşdırmasına görə, təkcə XIX əsrdə Qudyalçay üzərində 4-ə yaxın körpü olub. Amma onlardan yalnız Tağlı körpü günümüzə qədər gəlib çatmışdır.



Körpünün salınması zərurəti XVIII əsrin sonlarında - XIX əsrin əvvəllərində yaranmışdır. 1851-ci ildə Qudyalçayda dirəklər üzərində taxta körpü tikilsə də, ömrü uzun olmamışdır. Həmin illər havaların yağışlı keçməsi nəticəsində körpünün saxlama dirəklərini su yuyaraq zəiflətmiş, sel isə körpünü dağıtmışdır. Bu səbəbdən onun yerində yeni körpü salmaq zərurəti yaranmışdır.

Yeni körpünün tikintisinə 1894-cü ildə başlanmışdır. Körpünün tikintisi 78000 manata başa gəlmişdir. Əvvəlcə körpünün 19 dirək üzərində tikilməsi nəzərdə tutulmuşdur. Lakin onun tikintisi zamanı aşırımlar ixtisar olunmuş və o, 14 daş dayaq üzərində tikilmişdir. Yarımdairəvi biçimli tağlar sistemi bişmiş kərpicdən hörülmüş və bir-birindən 11,1 metr aralı olan dayaqlara söykənir. Körpünün tağları altından hər iki sahildəki yaşayış məntəqələrinin ecazkar mənzərəsi açılır. Körpünün 70 sm enində tağı əsas kərpic hörgüsü ilə birlikdə inşa edilmişdir. Tağ dayaqlar üzərində dayanan körpünün bünövrəsi yaxşı yonulmuş daşlardan hörülmüşdür. Körpü memarlıq abidəsi kimi dövlətin mühafizə etdiyi abidələr siyahısına daxil edilmişdir.

**Abutalıb TURABOV,**
**Quba Soyqırımı Memorial Kompleksinin əməkdaşı**

● ŞİKAYƏT

## Evlərimiz təhlükədədir

**Ev tikmək üçün torpaq sahəsi alanda sevindik ki, rahat bir ev tikərik, kiçik də olsa, həyətimiz olar, ağac əkib kölgəsində dincələrik. Amma sən saydığını say, gör fələk nə sayır.**



Abşeron rayonu Masazır qəsəbəsi Asif Həsənov küçəsində ev tikdik, amma ağac əkib kölgəsində bir stəkan çay içə bilmədik. Min bir əziyyətlə tikib başa gətirdiyimiz evimizdə rahat yaşaya bilmirik. Çünki yaxınlıqdakı gölün suyu artaraq evlərə qədər gəlib çatıb, hər tərəf zibillə doludur, sanki yaşayış ərazisi yox, tullantı poliqonudur. Yağış yağan kimi gölün suyu daha da çoxalaraq ətrafa yayılır, nə piyada, nə də maşınla gediş-gəliş mümkün olur, həyətlər, evlərin zirzəmiləri də su ilə dolur. Uzunboğaz çəkmələrsiz ərazidə hərəkət edə bilmirik. Evlərin divarları yarıya qədər nəm çəkir. Uşaqlarımız tez-tez xəstələnirlər. Bəzi sakinlər nəmişliyin ucbatından evlərini tərk edərək başqa ərazilərə köçüb kirayədə yaşayırlar. Su içində qalmış hasarların və hətta evlərimizin uçmaq təhlükəsi var. Zibilliyin əhatəsində, suyun içində nə edəcəyimizi, vəziyyətdən necə çıxacağımızı, problemi hansı yolla həll edəcəyimizi bilmirik.

Yaranmış vəziyyətlə əlaqədar dəfələrlə aidiyyəti qurumlara müraciət etsək də, problemin həlli istiqamətində heç bir tədbir görülməyib. Sizin qəzet vasitəsilə səsimizi bu işə məsul olan strukturlara çatdırmağı, bizə kömək göstərilməsini xahiş edirik.

**Arif QULİYEV, Elşən CƏFƏROV, Rəşad MƏLİKOV, Hicran HƏSƏNƏLİYEVA,**
**Masazır qəsəbəsi A.Həsənov küçəsinin sakinləri**

● İRAD

## İctimai iaşə obyektlərində siqaret çəkilməsinə nə vaxt son qoyulacaq?

**Son illər ölkəmizdə insanların ziyanlı vərdişlərdən azad olması ilə əlaqədar bir sıra tədbirlər həyata keçirilir. Onlardan biri də siqaretdən imtina üçün görülən tədbirlərdir.**



Tütün məhsullarının bahalaşması, ictimai yerlərdə siqaret çəkilməsinin, təhsil müəssisələrinə yaxın ərazilərdə tütün məhsullarının satılmasının qadağan olunması şübhəsiz ki, nəticəsiz qalmır. Lakin bütün bu qadağalara baxmayaraq, cəmiyyətimizdə hələ də bu ziyanlı vərdişdən yaxa qurtara bilməyənlərin sayı az deyil.

Mən təqaüdçüyəm. Həyatım boyu heç vaxt tütün məhsullarından istifadə etməmişəm. Siqaret çəkənlərə də həmişə məsləhət görmüşəm ki, ondan uzaq olsunlar. Xüsusilə çayxanalarda siqaret çəkən gəncləri görəndə əsəbiləşirəm. İndi qış mövsümüdür. İnsanlar boş vaxtlarını qapalı yerlərdə, o cümlədən çayxanalarda, kafelərdə keçirirlər. Amma biz yaşlı nəslin nümayəndələri boş vaxtımızda belə obyektlərə gedə bilmirik. Səbəb siqaret tüstüsüdür. Təəssüflər olsun ki, belə hallara qarşı məsul olan qurumlar da mübarizə aparmırlar, halbuki bunun üçün onların əlində qanun da var, səlahiyyət də.

**Ayaz ƏLİYEV,**
**Gəncə şəhəri, təqaüddə olan əmək veteranı**

# İran ABŞ ilə danışıqlarda "yaxşı irəliləyiş" olduğunu bildirib

**Vasitəçilər son müzakirə mərhələsindən sonra cümə axşamı İsveçrədə keçirilən danışıqlarda "əhəmiyyətli irəliləyiş" əldə etdiklərini və gələn həftə dialoqu davam etdirmək barədə razılığa gəldiklərini bildiriblər.**

Omanın vasitəçiliyi ilə keçirilən danışıqlar Donald Trampın İrana zərbə endirməklə bağlı təkrarlanan təhdidlərindən sonra baş tutub. Ötən cümə axşamı ABŞ Prezidenti Tehrana razılığa gəlmək üçün 15 gün vaxt verib.

Danışıqların irəliləyişlə nəticələnəcəyi gözlənilmirdi. Çünki ABŞ bölgədə əhəmiyyətli hava və dəniz qüvvələri cəmləşdirməklə zərbələri nəzərdən keçirməyə davam edir. İran müzakirələrin yalnız nüvə proqramına yönəldiyini israr etsə də, ABŞ Tehranın raket proqramını və bölgədəki silahlı qruplara dəstəyini məhdudlaşdırmaq istəyir.



İranın xarici işlər naziri Abbas Əraqçi isə dövlət televiziyasında bildirib ki, danışıqlarda "çox yaxşı irəliləyiş əldə edilib və həm nüvə, həm də sanksiyalar cəbhəsində razılaşmanın elementləri çox ciddi qəbul olunub". O, növbəti raundun bir həftədən az müddətdə baş tutacağını və BMT-nin nüvə agentliyində texniki məsləhətləşmələrin bazar ertəsi Vyanada başlayacağını söyləyib. Əraqçi həmçinin danışıqların son raundunu "indiyə qədər ən intensiv" adlandırıb. O, "X" platformasında yazıb: "Görüş sanksiyaların ləğvi və nüvə proqramı ilə bağlı addımlar da daxil olmaqla istənilən razılaşma üçün zəruri məsələlər üzrə daha ətraflı müzakirələrə davam edəcəyimiz barədə qarşılıqlı anlaşma ilə başa çatdı".

Əraqçi danışıqlarda İranı təmsil edib. ABŞ nümayəndə heyətinə D.Trampın Yaxın Şərq üzrə xüsusi elçisi vəzifəsində çalışan milyardçı və daşınmaz əmlak inşaatçısı Stiv Uitkoff Prezidentin kürəkəni Cared Kuşner ilə birlikdə rəhbərlik edib.

Təxminən üç saatlıq müzakirələrdən sonra tərəflər fasilə verib və sonra danışıqlara davam ediblər. Fasilə zamanı İran Xarici İşlər Nazirliyinin sözçüsü Esmail Baqaei bildirib ki, İran tərəfinin məlumatına görə, həm nüvə məsələsi, həm də sanksiyaların aradan qaldırılması ilə bağlı "konstruktiv təkliflər" irəli sürülüb.

D.Tramp İrandan uranın zənginləşdirilməsini tamamilə dayandırmasını, uzaqmənzilli raket proqramını ləğv etməsini və regional silahlı qruplaşmaları dəstəkləməyi dayandırmasını tələb edir. İran isə yalnız nüvə məsələlərini müzakirə etməyə hazır olduğunu və nüvə proqramının yalnız dinc xarakter daşıdığını bildirir.

Danışıqlar ərəfəsində İran Prezidenti Məsud Pezeşkian bir daha deyib ki, İslam Respublikası heç bir şəkildə nüvə silahına səbəb olmağa çalışmır.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# "Daşkəsən və Göygöl rayonlarında aqrar inkişafa dəstək" layihəsinin yekun hesabat tədbiri keçirilib



**24 fevral 2026-cı il tarixdə "AzerGold" QSC-nin təşəbbüsü və Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin (AXA) dəstəyi ilə həyata keçirilən "Daşkəsən və Göygöl rayonlarında aqrar inkişafa dəstək" layihəsinin yekunlarına dair görüş keçirilib. Tədbirdə qurum rəhbərləri, rayon icra hakimiyyətləri, yerli icma nümayəndələri və fermerlər iştirak ediblər.**

"AzerGold" QSC-nin İdarə Heyətinin üzvü - sədrin müavini, Korporativ Sosial Məsuliyyət Komitəsinin sədri Xəyyam Fərzəliyev, AXA-nın sədri Sərdar Hacıyev, müvafiq olaraq Daşkəsən və Göygöl rayon icra hakimiyyətlərinin başçıları Orxan Abbasov və Vüqar Novruzov çıxış edərək layihənin əhəmiyyəti barədə danışıb, əsas nəticələri təqdim ediblər.

Bildirilib ki, heyvan, bitki, torpaq və su nümunələri üzrə aparılan geniş laborator analizlərin elmi təhlillərinə əsasən, QSC-nin hasilat və istehsalat fəaliyyətinin təbiətə, torpağa və məhsuldarlığa hər hansı mənfi təsiri qeydə alınmayıb. Aqrokimyəvi analizlər nəticəsində ərazidəki su mənbələrinin suvarma üçün tam yararlı olduğu müəyyən edilib. Heyvan sağlamlığı üzrə aparılan müayinələrdə xüsusi təhlükəli xəstəlik aşkarlanmayıb.

Bitki mühafizəsi istiqamətində 213 fermer təsərrüfatında monitorinqlər aparılıb, zərərvericilər müəyyən edilərək fermerlərə fərdi tövsiyələr verilib. Həmçinin təşkil olunan 37 təlim vasitəsilə iştirakçılar aqrar sahədə bilik və bacarıqlarını artırıblar.

Xatırladaq ki, icrasına ötən il başlanılmış layihə Daşkəsən rayonunun Şadax yaşayış məntəqəsini, Bayan, Quşçu, Çovdar və Çaykənd, Göygöl rayonunun isə Tüllallar və Zurnabad kəndlərini əhatə edib. Layihənin məqsədi heyvandarlıq və bitkiçilikdə məhsuldarlığı artırmaq, aqrar fəaliyyətin ekoloji tələblərə uyğun təşkili və yerli təsərrüfatlara elmi əsaslı dəstək göstərməkdir.




# Maqnit kapsulunda səyahət

Avropa İttifaqının dəstəklədiyi yüksəksürətli nəqliyyat vasitəsi (hyperloop) layihəsi çərçivəsində Hollandiyanın Veendam şəhərində yerləşən sınaq mərkəzində zolaq dəyişikliyi sınağı uğurla başa çatdırılıb. Saatda 1000 kilometrə qədər sürətə çatmağı hədəfləyən sistemdə texniki irəliləyişlər olsa da, maliyyələşdirmə, tutum və təhlükəsizliklə bağlı müzakirələr davam edir. Bu sürətə nail olunarsa, London və Paris arasındakı səyahət yarım saatdan, Paris-Amsterdam xətti isə bir saatdan az müddətə endirilə bilər.

"Hyperloop" konsepsiyası 2013-cü ildə İlon Mask tərəfindən texniki sənədlərin dərc olunmasından sonra geniş maraq doğurmuşdu. ABŞ-nin Nevada ştatında ilk sərnişin sınağı keçirilsə də, layihəni icra edən "Virgin Hyperloop" 2023-cü ildə artan xərclər səbəbindən fəaliyyətini dayandırıb.




Hazırda Avropada layihə "Hardt Hyperloop" tərəfindən davam etdirilir. Ötən ilin dekabr ayında hərəkətli mexaniki hissələrdən istifadə etmədən saatda 55 mil sürətlə zolaq dəyişdirmə sınağı həyata keçirilib. Bu texnologiya gələcəkdə şəbəkəli nəqliyyat sisteminin qurulması üçün vacib hesab olunur.

Layihənin dəyəri ən çox müzakirə olunan məsələlərdən biridir. Layihə rəsmiləri infrastruktur xərclərinin yüksəksürətli dəmir yolunun xərclərinə bənzədiyini, lakin istismar xərclərinin daha aşağı olacağını iddia edirlər. Onlar vakuum mühitində hava müqavimətinin aradan qaldırılmasının enerji istehlakını azaldacağını bildirirlər.

Lakin tənqidçilər tutum probleminə diqqət çəkirlər. Avropada sərnişin daşınması üçün sertifikat alan ilk kapsul Münxen Texniki Universiteti tərəfindən hazırlanıb və beş sərnişin tutumuna malikdir. Mütəxəssislər qeyd edirlər ki, aşağı tutum bilet qiymətlərini yüksək saxlaya bilər və mövcud dəmir yolu infrastrukturunun təkmilləşdirilməsi daha rasional ola bilər.

# Neandertalların kəllə kolleksiyası



**İspaniyanın Des-Cubierta mağarasında neandertallar tərəfindən toplanmış çöl bizonu, öküz və maral kimi heyvanlara aid 35 kəllə aşkar edilib.**

Tapıntılar Mustye tipli daş alətlərlə birlikdə qeydə alınıb və təxminən 43 min il əvvələ aid edilir.

İlk vaxtlar arxeoloqlar kəllələrin, sadəcə olaraq, təsadüfi şəkildə səpələndiyini düşünürdülər. Lakin sonradan tədqiqatlar nəticəsində müəyyən edilib ki, tapıntılar mağaraya müxtəlif vaxtlarda gətirilib və məqsədyönlü formada yerləşdirilib. Bu fakt neandertalların simvolik və mədəni davranışlara malik olduqlarını göstərir. Alimlər hesab edirlər ki, bu tapıntı neandertal cəmiyyətlərinin mədəni ötürülmə və ortaq ənənələr baxımından daha dərindən öyrənilməsinə imkan yaradır.

# Zəlzələlər qızıl yarada bilər

**Yeni elmi araşdırma seysmik aktivlik zamanı baş verən elektrokimyəvi reaksiyaların böyük miqdarda qızılın formalaşmasında mühüm rol oynaya biləcəyini göstərir.**

"Nature Geoscience" jurnalında dərc olunan "Zəlzələlər nəticəsində qızıl külçələrinin əmələ gəlməsi: kvarsda pyezoelektrikliyin rolu" adlı tədqiqat göstərir ki, zəlzələlər Yer qabığındakı kvars kristallarında elektrik xüsusiyyətlərini aktivləşdirərək qızılın toplanmasına səbəb ola bilər.

Avstraliyanın Monaş Universitetinin alimlərinin apardığı araşdırma ənənəvi modellərlə tam izah olunmayan iri qızıl yataqlarının yaranma mexanizmini anlamağa yeni yanaşma təqdim edir. Seysmik aktivlik zamanı kvars kristallarına tətbiq olunan təzyiq piezoelektrik effekt nəticəsində elektrik gərginliyi yaradır. Piezoelektriklik bəzi mineralların deformasiyaya uğradıqda elektrik yükü yaratması ilə xarakterizə olunan fiziki fenomendir. Yaranan elektrik enerjisi geoloji mayelərdə həll olmuş qızılın bərk hissəciklərə çevrilməsinə və süxurların səthinə çökməsinə səbəb olan elektrokimyəvi reaksiyaları işə salır.



Bu hipotezi yoxlamaq üçün tədqiqatçılar qızıl tərkibli məhlullara batırılmış kvars kristallarını laboratoriya şəraitində deformasiya ediblər. Nəticələr göstərib ki, yaranan elektrik enerjisi qızılın çökməsi və ilkin böyümə nüvələri kimi çıxış edən nanopartikulların formalaşması üçün kifayətdir. Alimlər həmçinin müəyyən ediblər ki, qızılın yüksək keçiriciliyi mövcud hissəciklərin üzərinə yeni təbəqələrin yığılmasını asanlaşdırır. Bu proses zamanla kiçik yığıntıların iri qızıl külçələrinə çevrilməsinə şərait yaradır.

Tədqiqatın nəticələri Yer qabığında iri qızıl yataqlarının formalaşma mexanizmini daha yaxşı anlamağa kömək etməklə yanaşı, gələcək geoloji kəşfiyyat işləri üçün də yeni perspektivlər açır.

# Təyyarə mühərriklərində yeni mərhələ

Qlobal aviasiya sənayesi emissiya hədəfləri və yanacaq səmərəliliyi tələbləri səbəbindən mühərrik və dizayn sahəsində ciddi transformasiya yaşayır. "GE Aerospace" Fransanın "Safran" şirkəti birlikdə açıq ventilyatorlu mühərrik konsepsiyası üzərində işləyir. Onların birgə müəssisəsi olan "CFM International" bu dizaynın dar gövdəli təyyarələrin növbəti nəslində istifadə oluna biləcəyini bildirir.

"Airbus" və "Boeing" hazırda "A320" və "737 MAX" modellərinin varislərini planlaşdırır. Açıq ventilyator dizaynının yanacaq sərfiyyatını təxminən 20 faiz azalda biləcəyi iddia olunur. Bu konsepsiya yeni deyil. "GE Aerospace" 1980-ci illərdə də oxşar dizaynları sınaqdan keçirib. Lakin səs-küy və təhlükəsizlik məsələləri səbəbindən layihə geniş tətbiq mərhələsinə keçə bilməmişdi. İndi isə superkompüter modelləşdirməsi sayəsində bu problemlərin aradan qaldırılması hədəflənir.



Eyni zamanda "Rolls-Royce Holdings" və "Pratt & Whitney" də alternativ mühərrik texnologiyaları üzərində işləyir. Ekspertlər açıq ventilyatorların səmərəlilik üstünlüyünə baxmayaraq, sertifikatlaşdırma və inteqrasiya baxımından risklər daşıdığını vurğulayırlar.

*Hazırladı:*
*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Bilmək istəyirəm

**- Kommunal borc əvvəlki ev sahibinə aiddirsə, məndən tələb oluna bilərmi? Bu nə dərəcədə doğrudur və belə halda nə edə bilərəm?**

*Orxan XASAYEV,*
*Bakı şəhəri*

- Sualınıza cavab olaraq bildiririk ki, kommunal borc münasibətləri kommunal xidmət üçün müvafiq qurumla şəxs arasında bağlanmış müqavilə əsasında həyata keçirilir. Yəni kommunal xidmət ilə bağlı müqaviləni kim bağlamışsa, borcu da o, ödəməlidir. Burada tərəflər (kommunal xidmət göstərən və bu xidmətdən yararlanan) arasında bağlanmış xidmət müqaviləsi əsasında müəyyən öhdəliklər nəzərdə tutulur ki, kommunal xidmətdən yararlanan şəxs istifadə etdiyi kommunal xidmətə görə müəyyən edilmiş haqqı ödəmək öhdəliyi daşıyır. Öhdəlik əvvəlki ev sahibinə aiddir və siz borc yaranan müddətdə xidmət müqaviləsi üzrə tərəf deyilsiniz. Qeyd etməliyik ki, kommunal xidmətlər fərqlidir, buna görə də hər bir kommunal xidmət sahəsində bu münasibətləri tənzimləyən hüquqi aktlar mövcuddur. Məsələn, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 may 2011-ci il tarixli 80 nömrəli qərarı ilə təsdiq edilmiş "Qazdan istifadə Qaydaları"nın 1.3-cü bəndinə görə, qaz paylayıcısı və istehlakçının bu Qaydalara əsasən, müəyyənləşdirilən vəzifələri və hüquqları, habelə istehlakçılara verilən qazın keyfiyyəti (təzyiq və təchizatın etibarlığı), həcmi, dəyərinin ödəmə şərtləri və digər məsələlər qazın alqı-satqı müqaviləsində göstərilir. Qaydalara 2 nömrəli əlavə olan "Qaz paylayıcısı ilə məişət qaz qurğusu istifadəçisi arasında qazın alqı-satqısı Müqaviləsi"nin 2.3.1-ci bəndi ilə qaz sayğacının göstəricisinə əsasən hesablanmış və paylayıcı tərəfindən təqdim edilmiş (göndərilmiş) hesab üzrə qazın dəyərini tam ödəmək istehlakçının vəzifəsidir. Bundan başqa, qaydaların 6.4-cü bəndinə uyğun olaraq, qazlaşdırılmış obyektin mülkiyyətçisi (istifadəçisi) dəyişildikdə, əvvəlki istehlakçı obyektin mülkiyyətçisi (istifadəçisi) dəyişildiyi günədək qazdan istifadəyə görə olan borcunu ödəməli, qaz paylayıcısından borcunun olmaması barədə arayış almalı və həmin arayışı yeni istehlakçıya təqdim etməlidir. Yeni mülkiyyətçi (istifadəçi) qazın alqı-satqısına dair yeni müqavilənin bağlanılması üçün qaz paylayıcısına 10 (on) iş günü müddətində yazılı müraciət etməlidir. Yazılı müraciət daxil olduğu gündən başlayaraq, 3 (üç) iş günü müddətində yeni mülkiyyətçi (istifadəçi) ilə qaz paylayıcısı arasında müqavilə bağlanılmalıdır.

Siz yeni mülkiyyətçi (istifadəçi) kimi mütləq formada kommunal xidmət göstərən qurumla müqavilə bağlamalısınız. Müqavilə bağlandığı andan sizin göstərilən kommunal xidmətə görə onun haqqını ödəmək öhdəliyiniz yaranır.

Əgər bu hallara baxmayaraq, əvvəlki ev sahibinin kommunal borcu müvafiq kommunal xidmət göstərən qurum tərəfindən sizdən tələb olunursa, o zaman bu borcu ödəməmək hüququnuz var. Bundan sonra kommunal xidmət göstərən qurum sizə kommunal xidmət göstərməkdən imtina edərsə və evinizə göstərilən kommunal xidmət dayanarsa, bu barədə məhkəməyə müraciət etmək tövsiyə olunur. Müraciət zamanı siz kommunal xidmətin göstərilməsilə bağlı yaranmış maneənin aradan qaldırılması ilə yanaşı, kommunal xidmət göstərən qurumun xidməti dayandırması nəticəsində sizə vurulmuş ziyan barəsində də tələb irəli sürə bilərsiniz.

**- Uşağın atası hazırda xaricdə yaşayır və işsizdir. Aylardır ki, aliment pulu ödəmir. Bilmək istəyirəm, aliment bu vəziyyətdə necə tutulmalıdır?**

*Aygün BABAZADƏ,*
*Mingəçevir şəhəri*

- Sualınıza cavab olaraq bildiririk ki, aliment ödəyən atanın xaricdə olması, eyni zamanda rəsmi işinin və ya rəsmi gəlirinin olmaması onu aliment öhdəliyindən azad etmir.

Qanunvericiliyə əsasən belə hallarda uşağın maraqları üstün tutulur və həmin maraqlar digər bütün maraqlardan öncə nəzərə alınır. Bununla bağlı mövcud qanunvericilik uşağın maraqlarını üstün tutur. Odur ki, məhkəmə qərarında müəyyən edilmiş aliment məbləği ata tərəfindən mütləq qaydada ödənməlidir.

Əgər qeyd etdiyiniz hal mövcuddursa və ata bir neçə ay ərzində aliment ödənişlərini həyata keçirmirsə, o zaman məhkəmə qərarının icrası ilə məşğul olan icra şöbəsinə müraciət etməyiniz tövsiyə olunur. Atanın məhkəmə qərarını icra etməməyə görə inzibati xəta və cinayət məsuliyyəti məsələsinə, eləcə də yığılmış borcun borclunun əmlakına və digər gəlirlərinə yönəldilməsi ilə bağlı zəruri hərəkətlərin görülməsini icra məmurundan tələb edə bilərsiniz.

Borclunun xaricdə olması məsələsinə gəlincə, bildiririk ki, alimentlə bağlı məhkəmə qərarının borclunun olduğu ölkədə icra edilməsi üçün həmin dövlətlə Azərbaycan Respublikası arasında hüquqi yardımın göstərilməsinə dair beynəlxalq müqavilə olmalıdır. Qeyd edək ki, Azərbaycan Respublikası bir çox ölkələrlə (MDB ölkələri, Türkiyə və s.) mülki işlər üzrə hüquqi yardım haqqında müqavilələrdə (məsələn, Minsk Konvensiyası) tərəfdir.

**Sualları cavablandırdı:**
**PAŞA SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti
539-49-20

*"Dokta" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus dərman vasitələrinin pərakəndə satışı fəaliyyətinə dair İN/L-1204/2016/735 qeydiyyat nömrəli, 14.02.2020-ci il tarixli lisenziya əlavəsi itdiyi üçün etibarsız sayılır.*

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3317
Sifariş 275

Qiyməti 60 qəpik